Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 292 (8019) ÇƏRŞƏNBƏ, 26 dekabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## Prezident dəstəyi daxili işlər orqanlarının fəaliyyətini təkmilləşdirir, peşəkarlığını artırır





Dekabrın 25-də Daxili İşlər Nazirliyinin Polis Akademiyasında yeni tədris binasının açılışı olub.




AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev açılışda iştirak edib.

Daxili işlər naziri general-polkovnik Ramil Usubov dövlət başçısına raport verdi.

Prezident İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin Polis Akademiyasının meydanında ucaldılan abidəsi önünə gül dəstəsi qoydu.

Dövlət başçısı yeni tədris binasının rəmzi açılışını bildirən lenti kəsdi və burada yaradılan şəraitlə tanış oldu.

Daxili işlər naziri general-polkovnik Ramil Usubov tədris binasında yaradılan şərait barədə Prezident İlham Əliyevə məlumat verdi.

Bildirildi ki, yeni tədris binasının inşası 2016-2018-ci illərdə aparılıb. Altımərtəbəli bina müasir səviyyədə və yüksək zövqlə inşa olunub. Yeddi min kvadratmetrə yaxın sahəsi olan binada təlim-tədris üçün hər cür şərait yaradılıb. Burada 138 nəfərlik oxu zalı və elektron kitabxana müdavimlərin ixtiyarına veriləcək. Bina liftlər, havalandırma, videomüşahidə, səs-anons sistemləri, eləcə də elektron lövhələr və tədris prosesi üçün zəruri olan digər ləvazimatla təchiz edilib. Burada müasir akustik sistemin qurulduğu 252 nəfərlik iclas zalı yaradılıb. Zalda akademiyanın həyatında baş verən əlamətdar hadisələri qeyd etmək üçün hər cür şərait mövcuddur.

*Ardı 2-ci səh.*





### Dünya azərbaycanlılarına

## Azərbaycan qarşıya qoyduğu böyük məqsədlərə doğru inamla irəliləyir



Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Milli birliyimizin rəmzi kimi hər il geniş qeyd etdiyimiz 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə sizi səmimi qəlbdən salamlayır, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideyalarını yaşadan müstəqil dövlətimiz milli həmrəyliyin gücləndirilməsinə xüsusi əhəmiyyət verir, dünya azərbaycanlılarının mədəni-mənəvi birliyinin daha da möhkəmləndirilməsi ilə bağlı ardıcıl tədbirlər həyata keçirir. Biz xarici ölkələrdə məskunlaşmış həmvətənlərimizin doğma Azərbaycanla əlaqələrinin dərinləşdirilməsi və ümummilli məsələlərin həllində yaxından iştirakının təmin edilməsi istiqamətində irəli sürülən səmərəli təşəbbüslərə hər zaman dəstək veririk.

2018-ci il xalqımızın tarixində şərəfli yer tutan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin geniş şəkildə keçirilməsi ilə yaddaşlarda qalacaqdır. Belə əlamətdar yubileyin təntənə ilə qeyd edilməsi həmvətənlərimizin qəlbində azadlıq və istiqlal duyğularını, ölkəmizin zəngin tarixi ilə haqlı iftixar hissini daha da gücləndirir. Bu gün əminliklə demək olar ki, 100 il əvvəl mühacir həyatı yaşamağa məcbur olmuş cümhuriyyət qurucularının və onların varislərinin Azərbaycanı müstəqil və qüdrətli dövlət kimi görmək arzuları artıq xoş gerçəkliyə çevrilmişdir.

Dünyada gedən mürəkkəb geosiyasi proseslərə, müharibə və silahlı qarşıdurmalara, qaçqın və məcburi köçkün problemlərinə, qlobal iqtisadi çətinliklərə baxmayaraq, Azərbaycan Respublikası qarşıya qoyduğu böyük məqsədlərə doğru inamla irəliləyir. Ölkəmizin sosial-iqtisadi sahədə əldə etdiyi uğurların nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilməsi bunu bir daha əyani surətdə sübut edir. Dünya Bankının “Doing Business 2019” hesabatında Azərbaycan ötən illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşmış, 10 ən islahatçı dövlət siyahısına daxil edilmişdir. Ölkəmizin təşəbbüsü və yaxından iştirakı ilə irimiqyaslı transmilli layihələr uğurla icra olunmuşdur. 2018-ci ildə Avrasiyanın enerji xəritəsinin zənginləşməsində mühüm rol oynayan “Cənub qaz dəhlizi”nin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin istifadəyə verilməsi, həmçinin Ələt-Astara magistral avtomobil yolunun açılışı ilə Azərbaycan ərazisində “Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi” layihəsi üzrə bütün işlərin başa çatdırılması dövlətimizin iqtisadi potensialının artması, regionun tranzit və logistika mərkəzinə çevrilməsi, geoiqtisadi mövqeyinin güclənməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Cari ildə həm də növbəti telekommunikasiya peyki “Azerspace-2”nin orbitə buraxılması respublikamızın müasir rabitə və informasiya texnologiyaları sahəsində qazandığı nailiyyətlərin bariz təzahürüdür.

Ölkəmiz inkişaf etdikcə daha qlobal xarakterli vəzifələri həll etmək imkanları da artır. Qarşımızda Ermənistanın hərbi təcavüzü nəticəsində işğal edilmiş torpaqlarımızın azad olunması kimi taleyüklü vəzifə dayanır. Azərbaycan pozulmuş ərazi bütövlüyünün bərpası yolunda ardıcıl və məqsədyönlü siyasət həyata keçirir. Soydaşlarımız da, öz növbəsində, yaşadıqları ölkələrin yüksək dairələrinin və nüfuzlu beynəlxalq təşkilatların diqqətinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə yönəldilməsində, tarixi həqiqətlərin geniş ictimaiyyətə çatdırılmasında fəallıq nümayiş etdirməlidirlər. Azərbaycanın inkişafı və dünya birliyində mövqeyini möhkəmləndirməsi üçün hər bir həmvətənimiz ümummilli məqsədlər ətrafında sıx birləşməli, diaspor təşkilatlarının fəaliyyəti daha çevik əlaqələndirilməlidir. Əminəm ki, dünyanın hansı guşəsində yaşamasından asılı olmayaraq, bütün soydaşlarımız və həmvətənlərimiz bu prinsiplərə əsaslanaraq qarşıdakı illərdə də üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsində qüvvə və bacarıqlarını əsirgəməyəcəklər.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə səadət, firavanlıq və işlərinizdə uğurlar diləyirəm!

Bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2018-ci il*

## Azərbaycan Avrasiyanın tamamilə yeni enerji xəritəsini yaradır

### **İlham ƏLİYEV:** "2019-cu ildə Qoşulmama Hərəkatının sədr ölkəsi kimi biz beynəlxalq arenada öz rolumuzu artıracağıq"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Rossiya-24” telekanalına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.



**- Cənab Prezident, salam.**

- Salam.

**- 2018-ci il dünya üçün asan keçmədi. Amma bu, tarixi tərəfdaşlarla, qonşularla və dostlarla münasibətlərin əhəmiyyətini dərk etmək və qiymətləndirmək üçün yaxşı məqamdır. Buna görə də bizə çox xoşdur və Sizə xüsusilə minnətdarıq ki, sıx iş qrafikinə baxmayaraq, vaxt taparaq bu gün burada bizi qəbul edirsiniz.**

- Sağ olun.

**- Cənab Prezident, 2018-ci ilin Azərbaycan üçün siyasi-iqtisadi yekunlarını necə qiymətləndirərdiniz?**

- Bütövlükdə il ölkəmiz üçün uğurlu olub. Azərbaycan uğurla inkişaf edib. Biz beynəlxalq miqyasda əsas tərəfdaşlarımızla, ilk növbədə, qonşu ölkələrlə ənənəvi münasibətimizi möhkəmləndirmişik. Xəzər dənizinin hüquqi statusunun nizamlanması haqqında Konvensiya imzalanıb. Hesab edirəm ki, bu, Xəzəryanı ölkələri bir-birinə daha da yaxınlaşdıran tarixi sənəddir.

*Ardı 3-cü səh.*

## Türkiyə və Azərbaycan hər keçən gün bir-birinə daha da yaxınlaşır

### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident, əziz qardaşım!

Doğum gününüz münasibətilə zati-alinizi xalqım, hökumətim adından və şəxsən öz adımdan ən səmimi hisslərlə və arzularla təbrik edirəm.

Bir tərəfdən öz gücünü ortaq dil, tarix və mədəniyyətimizdən alan qardaşlıq əlaqələrimizin, digər tərəfdən də Azərbaycan Respublikasının qətiyyətli rəhbərliyinizlə gündən-günə inkişaf edərək gücləndiyini məmnunluqla müşahidə edirəm. Türkiyə Respublikası və Azərbaycan Respublikası hər keçən gün bir-birinə daha da yaxınlaşmaqda və əlaqələrimiz güclənməkdədir.

Azərbaycan Xalq Cümhuriyyətinin, Azərbaycan Silahlı Qüvvələrinin, Azərbaycan Milli Məclisinin və Qafqaz İslam Ordusunun 100-cü ildönümünü qeyd etdiyimiz bu ildə strateji tərəfdaşlıq səviyyəsindən də daha yüksək səviyyəyə çatdırdığımız əlaqələrimizin rəmzi olan TANAP və “Star” neft emalı zavodu kimi böyük layihələri həyata keçirməyimizdə zati-alinizin uzaqgörən liderliyinin və mühüm töhfələrinin oynadığı rolu son dərəcə əhəmiyyətli hesab etdiyimi bildirmək istəyirəm.

Zati-alinizə yeni yaşınızda cansağlığı və xoşbəxtlik diləyir, dost və qardaş Azərbaycan xalqına sülh, rifah və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Respublikasının Prezidenti***





# Prezident dəstəyi daxili işlər orqanlarının fəaliyyətini təkmilləşdirir, peşəkarlığını artırır









*Əvvəli 1-ci səh.*

Yeni binada ümumilikdə 1400 kursant yerlik 11 mühazirə zalı var. Burada elektron jurnal tətbiq edilir. Bütün kursantlar bu elektron jurnalda qeydiyyatdadır və onlar haqqında məlumat xidməti vəsiqələrin vasitəsilə burada əks olunur. Bütün tədris proqramının daxil olduğu jurnalda kursantlar imtahan vaxtları və digər mövzularla bağlı məlumat ala bilirlər. Eyni zamanda, müəllimlər kursantların dərsə davamiyyətinə bu jurnal vasitəsilə nəzarət edirlər. Elektron jurnal həm də ümumilikdə auditoriyaya nəzarət etməyə imkan verir.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası 1992-ci ildə yaradılıb və nazirliyin birbaşa tabeliyində olan dövlət ali təhsil-elm müəssisəsidir. Bu tədris müəssisəsi 1921-ci ildən milis nəfəri və komandir kadrları, 1957-ci ildən isə orta təhsilli hüquqşünas hazırlayan milis məktəbi kimi fəaliyyət göstərib. Ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövründə milis orqanlarına göstərdiyi qayğı və tələbkarlıq sayəsində Bakı Xüsusi Orta Milis Məktəbi və onun maddi-texniki bazası inkişaf etdi, kadr cəhətdən möhkəmləndi və akademiya səviyyəsinə qədər yüksəldi. Maddi-texniki bazası nəzərə alınaraq 1995-ci ildə akademiyaya Nazirlər Kabinetinin qərarı ilə birinci kateqoriyalı ali təhsil müəssisəsi dərəcəsi verilib.

Yeni tədris binasındakı kriminalistik təlim şəhərciyindəki müasir şərait müəllimlərə maddi sübutun götürülməsi, ayaq, əl və digər izlər barədə məlumatların toplanması, polis əməkdaşının davranış qaydaları, əməliyyat və xidmət zamanı digər zəruri hərəkətlər haqqında kursantlara əyani surətdə məlumat vermək imkanı yaradır. Buradakı şərait maksimal dərəcədə real vəziyyətə uyğunlaşdırılıb. Şəhərcikdə təlimlərin keçirilməsi üçün şərti olaraq mənzil, ofis, mağaza, bank, küçə və kafe yaradılıb.

Bu gün ölkədə qanunun aliliyinin təmin olunması, asayişin mühafizəsi istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi ilə mühüm işlər görülür. Bu sahədə fəaliyyət göstərən dövlət qurumlarının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər ardıcıl xarakter alıb. Daxili İşlər Nazirliyinin Polis Akademiyasında yeni tədris binasının inşa olunması da bu sahədə görülən işlərdəndir. Bütün bunlarla yanaşı, hüquq mühafizə orqanlarında çalışan əməkdaşların peşəkarlığının artırılması, onların sosial məsələlərinin həlli də dövlətimizin daim diqqət mərkəzindədir.



Sonra xatirə şəkli çəkdirildi.

Daha sonra Prezident İlham Əliyev xidməti istifadə üçün alınan yeni avtomobillərə baxdı.

Məlumat verildi ki, Yol Patrul Xidməti üçün "Mersedes" markalı 118 avtomobil alınıb. Onlardan 75-i "Mersedes"in C-300, 4-ü E-450, 39-u isə E-350 modelidir. Bu avtomobillərin hamısında yeni i-Patrul sistemi quraşdırılıb. Bu sistem texniki xüsusiyyətlərinə görə əvvəlkilərdən xeyli fərqlənir. Yol Patrul Xidməti avtomobilinin dayandığı, eləcə də hərəkət etdiyi hallarda fasiləsiz qaydada fəaliyyət göstərmək imkanına malik olan sistem ətrafı 360 dərəcə əhatə edən doqquz videonəzarət kamerası ilə təchiz olunub. Sistemin daxilində qarşıdakı beş zolaqda hərəkət edən nəqliyyat vasitələrinin dövlət qeydiyyat nişanlarını və sürətlərini avtomatik rejimdə qeydə alan "Radar" quraşdırılıb. Həmçinin avtomobillərdə yan istiqamətlərdə "Nömrətanıma", gecə görüntüsü üçün 30 metrlik məsafəni əhatə edən "infraqırmızı" görünməz işıqlandırma sistemləri və GPS modulu var. Sistemin dayanıqlı daxili kompüter qurğusu bütün proseslərin avtomatlaşdırılmış rejimdə aparılmasına imkan verir. Eyni zamanda, Yol Patrul Xidməti avtomobilinə perpendikulyar istiqamətdə sağ və sol tərəflərdə dayanmış nəqliyyat vasitələrinin də nömrə nişanları oxunur. Bu sistem nömrəsi və sürəti oxunmuş nəqliyyat vasitələri barədə məlumatları cari tarix, saat və GPS koordinatı da əlavə etməklə mərkəzi serverdə arxivləşdirir. Sürət həddini aşmış nəqliyyat vasitələri barədə məlumatlar sistemin mobil rabitə şəbəkəsi vasitəsilə dərhal Baş Dövlət Yol Polisi İdarəsinin Mərkəzi İnformasiya Sisteminə ötürülür.

Məlumat verildi ki, Post Patrul Xidməti üçün isə "Mersedes Citan" markalı 60 avtomobil alınıb. Bu avtomobillər də zəruri texniki avadanlıqla təchiz olunub. Daxili İşlər Nazirliyinin müvafiq strukturlarında digər xidmətlər üçün Azərbaycan istehsalı olan "Khazar" LD avtomobilləri də alınıb.

Qeyd edək ki, yeni tədris korpusunun inşası zamanı ərazidə təntənəli mərasimlər üçün 140 nəfərlik tribuna yenidən qurulub, geniş abadlıq-quruculuq işləri görülüb. Burada görülən işlər bir daha sübut edir ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə daxili işlər orqanları üçün yüksəkixtisaslı kadrlar hazırlayan Polis Akademiyasının fəaliyyətinin daha da təkmilləşdirilməsi istiqamətində son illərdə mühüm islahatlar aparılır və bu sahədə iş davamlı xarakter alıb.

## İndoneziya Respublikasının Prezidenti zati-aliləri cənab Coko Vidodoya

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş sunami nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İndoneziya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

*Allah rəhmət eləsin!*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2018-ci il*

## Energetika sisteminin təkmilləşdirilməsi və elektrik enerjisi təchizatının yaxşılaşdırılması tədbirləri haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq energetika sisteminin təkmilləşdirilməsi və elektrik enerjisi təchizatının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin dəstəklənməsi məqsədilə **qərara alıram:**

1. Energetika sisteminin təkmilləşdirilməsi, əhalinin və iqtisadiyyatın elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikasının Energetika Nazirliyi və "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən birgə tərtib edilmiş Reabilitasiya Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinə nizamnamə kapitalının artırılması üçün 40,0 (qırx) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2018-ci il*

## E.Ə.Qasımzadənin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan memarlıq sənətinin inkişafında böyük xidmətlərinə görə Elbay Ənvər oğlu Qasımzadə "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2018-ci il*

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşlarına fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaradılmasının 100 illiyi münasibətilə və sosial müdafiə sahəsinin inkişafında səmərəli fəaliyyət göstərdiklərinə görə nazirliyin aşağıdakı əməkdaşlarına Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar mühəndis"**
Bünyətov Yunis Heydər oğlu
**"Əməkdar jurnalist"**
Cəfərov Pərviz Əziz oğlu

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2018-ci il*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaradılmasının 100 illiyi münasibətilə və sosial müdafiə sahəsinin inkişafında səmərəli fəaliyyət göstərdiklərinə görə nazirliyin aşağıdakı əməkdaşları "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Abdullayeva Rəna Ramiz qızı
Əhmədov Nizami İbrahim oğlu
Əliyev Hidayət Məcid oğlu
Əsgərova Gülbahar Zəkəryə qızı
Əzizov Bəxtiyar Əskər oğlu
Həşimova Gülnarə İbrahim qızı
Xəlilova Minayə İbrahim qızı
İsgəndərova Xanım Kazım qızı
Məmmədov Məmməd Kərəm oğlu
Mirzəyeva Dürdanə Fərhad qızı
Nəcəfov Bayram Həsən oğlu
Nuriyeva Minayə Mikayıl qızı

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2018-ci il*



# Azərbaycan Avrasiyanın tamamilə yeni enerji xəritəsini yaradır

## İlham ƏLİYEV: "2019-cu ildə Qoşulmama Hərəkatının sədr ölkəsi kimi biz beynəlxalq arenada öz rolumuzu artıracağıq"

*Əvvəli 1-ci səh.*

İl bizim üçün ikitərəfli formatda fəal keçdi. Biz xeyli ikitərəfli görüşlər keçirmişik, beynəlxalq təşkilatlar daxilində fəal iştirak etmişik. Qoşulmama Hərəkatının üzvü olan ölkələrin xarici işlər nazirləri səviyyəsində Bakıda beynəlxalq forum keçirilib. Gələn il sammit keçiriləcək və Azərbaycan gələn il bu iri beynəlxalq təşkilata rəhbərlik edəcək.

Daxili-siyasi proseslər nöqteyi-nəzərindən ölkə uğurla inkişaf edib. Azərbaycanın daxilində potensial risklər mövcud deyil. Xarici potensial risklərə gəlincə isə biz onlardan özümüzü qoruya bilirik. Əlbəttə ki, həmişəki kimi iqtisadi islahatlara böyük əhəmiyyət vermişik. Fikrimcə, 2018-ci il bu cəhətdən çox mühüm il olub. Demək kifayətdir ki, Dünya Bankının "Doing Business" hesablamalarına görə, bu il ərzində Azərbaycan 32 pillə irəliləyərək dünyada 25-ci yeri tutub. Yəni, bu, o deməkdir ki, biznesin asanlaşdırılması, şəffaflıq, sahibkarlığa dəstək istiqamətində aparılan islahatlar yaxşı nəticələr verir. Bu, əlbəttə ki, investisiya reytinqimizi yüksəldir. Bu il biz 10 milyard dollar investisiya cəlb etmişik. Bu, sərmayədarlarda əminlik yaradır, bizim islahatlar siyasətini davam etdirməkdə qətiyyətimizi də nümayiş etdirir. İnflyasiya 2 faizdən bir qədər çox olub. Əhalinin gəlirləri 9 faizdən çox artıb. Biz valyuta ehtiyatlarımızı artırmışıq, ümumi daxili məhsulun 20 faizi qədər olan xarici borcu məqbul səviyyədə saxlamışıq. Yaxın illər üçün xarici borcun ümumi daxili məhsulun 10 faizə qədəri səviyyəsində saxlanılması üçün strategiya hazırlanıb. Fikrimcə, bu, tamamilə realdır. Bununla əlaqədar onu da deməliyəm ki, bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan, demək olar ki, 5 dəfə artıqdır. Yəni, əgər istəsək, bütün borclarımızı azı bir il ərzində ödəyə bilərik. Yəni, makroiqtisadi vəziyyət sabitdir. Biz xeyli sosial məsələləri həll etmişik. Bu il 6 minə qədər məcburi köçkün ailəsi yeni evlər və mənzillərlə təmin olunub. Təxminən 30 minə yaxın insan, yəni, bizim cəmiyyətimizin daha çox ehtiyacı olan hissəsinin nümayəndələri üçün bu il ərzində kiçik şəhər tikilib. Mən bu siyahını davam etdirə də bilərəm, amma düşünürəm ki, dediklərim bizim inkişafın əsas istiqamətlərini səciyyələndirir.

**- Güman edirəm ki, MDB məkanında iqtisadiyyatı inkişaf etməkdə olan ölkələr qarşısında olduğu kimi, Azərbaycanın, həmçinin Rusiyanın qarşısında iqtisadi tempi 1-3 faiz artırmaq vəzifəsi durur. Bu, 2018-ci il ərzində ümumi daxili məhsulun artım göstəriciləri üçün gözlənilən haldır. Bu gün sıçrayış üçün hansı potensialı görürsünüz? Yəni, əgər dünya, orta dünya iqtisadi artım templəri 3 və daha artıq təşkil edirsə, onda aydındır ki, bizim ölkələrimiz qlobal iqtisadiyyatda geri qalmamaq üçün bu göstəriciyə yaxınlaşmalıdırlar.**

- Bəli, siz tamamilə haqlısınız. Biz bu istiqamətdə göstəricilərimizi qiymətləndirərək gələcək addımlarımızı planlaşdıranda həmişə qeyri-neft sektorunu neft sektorundan ayırırıq. Çünki neft sektoru həm qiymət dəyişikliklərinə, həm də neft hasilatının müəyyən artımına, yaxud azalmasına məruz qalır. Azərbaycan OPEK+ proqramının fəal iştirakçısıdır və biz bu yaxınlarda bütün ölkələrlə həmrəylik nümayiş etdirmək üçün hasilatın azaldılması üzrə üzərimizə əlavə öhdəliklər götürmüşük. Buna görə də həmin amillərə əsaslanaraq biz həmişə qeyri-neft iqtisadiyyatına və qeyri-neft sənayesinə daha çox diqqət yetiririk. Fikrimcə, bizim bu istiqamətdə də nəticələrimiz xeyli yaxşı olacaq. On bir ayın yekunlarına görə biz qeyri-neft sənayesinin artımını 9 faizdən çox həcmdə görürük. Bu, ilk növbədə, bizim qeyri-neft sektoru, kiçik və orta sahibkarlıq, fermerlər üçün sərfəli şərait yaradılması üzrə sənayeləşdirmə proqramımızın nəticələridir. Bizim fermerlər torpaq vergisindən başqa bütün vergilərdən azaddırlar. Dövlət güzəştli şərtlərlə gübrə, yanacaq və istehsalata böyük subsidiyalar ayırır ki, biz kənd təsərrüfatı məhsullarının ixracı baxımından mühüm ölkəyə çevrilək. Buna görə də bizim iqtisadiyyatımızın gələcək inkişafı neft-qaz sektoru ilə dəstəklənəcək, lakin dayanıqlı inkişaf sənaye, kənd təsərrüfatı, yüksək texnologiyalarla bağlı olacaq.

Mən bu ilin əlamətdar hadisələrindən biri kimi orbitə üçüncü peykin buraxılmasını qeyd edərdim. Azərbaycan artıq beynəlxalq kosmik klubun fəal üzvüdür. Bizim artıq üç peykimiz var. Bu da bizim niyyətlərimizdən və uğurlarımızdan xəbər verir.

**- Burada birinci plana Rusiya ilə xüsusi münasibətlər çıxır. Qeyri-neft sektorunda əməkdaşlığımız prioritet olduğuna görə bu, uzunmüddətli perspektivdir. Siz bu il Rusiya lideri ilə altı dəfə görüşmüsünüz. Bu, onu göstərir ki, hər iki tərəf bu qarşılıqlı fəaliyyətin, bu əlaqələrin əhəmiyyətini başa düşür. Yaşıl dəhlizlərin yaradılması, o cümlədən, ilk növbədə, kiçik və orta biznes baxımından qarşılıqlı ticarət üçün məhdudiyyətlərin götürülməsi şərtləri müzakirə olunur. Əsas qərarları və zaman oriyentirlərini Siz indi nədə görürsünüz? Bu qərarlar nə vaxt qəbul olunmalıdır?**

- Bəli, siz haqlısınız. Bu il Rusiya-Azərbaycan münasibətləri çox sürətlə inkişaf edib. Bizim münasibətlərimiz prinsipcə çox dinamik inkişafla, sabitliklə, davamlı olması ilə səciyyələnir. Biz mehriban qonşu və etibarlı dostuq. Bu, dəfələrlə sübut olunub və budur, bu yüksək etimad səviyyəsi, ilk növbədə, həm də siyasi qarşılıqlı fəaliyyət bir çox layihələrin həyata keçirilməsinə kömək edir. Siz doğru qeyd etdiniz, mən Prezident Vladimir Vladimiroviç Putinlə altı dəfə, o cümlədən mənim Rusiyaya rəsmi səfərim çərçivəsində və onun Azərbaycana səfəri çərçivəsində, eləcə də beynəlxalq tədbirlərdə görüşmüşəm. Bu görüşlərdən hər biri nəticə verib. Biz əmtəə dövriyyəsinin artırılması məsələsinə çox ciddi yanaşmışıq. Qarşılıqlı fəaliyyətin müxtəlif istiqamətlərinin inkişafı üzrə yol xəritələri işlənib hazırlanıb. Mən şadam ki, bu gün həm Azərbaycan, həm də Rusiya sərmayədarları ölkələrimizin iqtisadiyyatına investisiya qoyurlar. Birgə istehsalatlar yaradılması, əmtəə dövriyyəsinin artırılması üçün çox güzəştli şərait yaradılır. Rusiya bankları böyük həcmdə, yüz milyon dollarla Azərbaycanın mühüm sənaye layihələrini maliyyələşdirir. Bu, bizim münasibətlərin, həm də Azərbaycanın məhz elə ölkə olmasının göstəricisidir ki, burada banklar pul itirməkdən qorxmur. Biz həmişə öz öhdəliklərimizə görə cavab veririk.

Biz 2019-cu il üçün planları müəyyənləşdirmişik. Lap bu yaxınlarda Moskvada Rusiya-Azərbaycan Hökumətlərarası Komissiyasının növbəti iclası keçirilib. Bu il həm də Rusiya və Azərbaycan prezidentlərinin iştirakı ilə Bakıda Rusiya-Azərbaycan Regionlararası Forumu keçirilib. Yəni, bu da bizim əməkdaşlığımızın, Rusiyanın regionları ilə fəal qarşılıqlı fəaliyyətin və onlarla ticari-iqtisadi münasibətlərin qurulmasının mühüm istiqamətidir. Düşünürəm ki, ikitərəfli ticarətə bizim birgə nəqliyyat təşəbbüslərimiz ciddi təkan verəcək. Şimal-Cənub layihəsi artıq reallaşır. Təkcə bu il biz Azərbaycan vasitəsilə Rusiyadan və Rusiyaya tranzitin on dəfə artdığını görürük, o cümlədən bizim yükgöndərənlər bu nəqliyyat arteriyasından fəal istifadə edirlər. Yəni, biz öz münasibətlərimizə kompleks yanaşırıq. Təməl bizim tarixi dostluğumuzdur. Biz bu təməl üzərində siyasi münasibətlərin çox ciddi bazasını qurmuşuq və ticari-iqtisadi, nəqliyyat, energetika sahələrində, əlbəttə ki, humanitar sahədə əməkdaşlıq münasibətlərinin inkişafı üzrə dəqiq anlaşmamız var. Deməliyəm ki, rusiyalılar Azərbaycana gələn turistlərin sayına görə birinci yeri tutur.

**- Onları da anlamaq olar.**

- Bəli, bu il 800 mindən çox rusiyalı ölkəmizə gəlib və özlərini evdəki kimi çox rahat hiss edirlər. Belə ki, bizim münasibətlərimiz çox zəngindir və düşünürəm ki, qonşuların öz münasibətlərini necə qurması üçün yaxşı nümunədir.

**- Cənab Prezident, Siz xatırlatdınız ki, gələn il Azərbaycan Qoşulmama Hərəkatına rəhbərlik edəcək. Amma axı bu imkandan Avrasiya İqtisadi İttifaqı ilə münasibətləri inkişaf etdirmək üçün də istifadə etmək olar. Bu da elə ərazidir ki, onsuz keçinmək olmur və burada münasibətləri, əlaqələri təkcə ikitərəfli əsasda deyil, həm də Avrasiya cəmiyyəti çərçivəsində möhkəmləndirmək imkanları var.**

- Bəli, sözsüz, biz bu istiqamətdə işləyirik. Deməliyəm ki, bizim Avrasiya İttifaqının üzvü olan ölkələrin mütləq əksəriyyəti ilə çox sıx dostluq, o cümlədən ticari-iqtisadi sahədə münasibətlərimiz var. Bizim həmin ölkələrlə azad ticarət haqqında müqaviləmiz mövcuddur. Əlbəttə, bizim əsas ticari-iqtisadi tərəfdaşımız Rusiya Federasiyasıdır. Bizdə azad ticarət formatı da mövcuddur. Buna görə də biz əlbəttə ki, əməkdaşlıq potensialını gücləndirəcəyik. İndiki mərhələdə bu əməkdaşlıq daha çox ikitərəfli xarakter daşıyır, bəzən də üçtərəfli, amma daha geniş deyil. Gələn il hadisələrin necə davam edəcəyini və konkret nəticələri zaman göstərəcək. Amma əlbəttə ki, Qoşulmama Hərəkatının sədr ölkəsi kimi biz beynəlxalq arenada öz rolumuzu artıracağıq. Əlbəttə, çalışacağıq ki, Azərbaycanın tərəfdaşları olan ölkələr bizə necə dəstək göstərirlərsə, onlar da bizim tərəfimizdən eyni dəstəyi alsınlar.

**- Sizin enerji layihələrinizi və dünya bazarında enerji ambisiyalarınızı xatırlatmaya bilmərəm. Bu gün biz bir çoxları üçün nadir sayılan Rusiya-Türkiyə-Azərbaycan birliyini və Rusiya ilə Azərbaycanın Türkiyə vasitəsilə Avropa İttifaqına qaz axınını necə yönəltmələrini müşahidə edirik. Bizi bu məqamda tez-tez toqquşdurmağa, rəqiblər kimi göstərməyə çalışırlar. Tamamilə aydındır ki, bu gün biz birlikdə öz dövlətlərimizin rifahı naminə Avropa İttifaqının enerji təhlükəsizliyini yaradırıq. Sizin üçün bu layihələr nə deməkdir? "Cənub qaz dəhlizi"nin açılması Sizin üçün nə demək idi?**

- Hesab edirəm ki, sizin səciyyələndirdiyiniz bugünkü vəziyyət məhz bu cür olmalı idi. Biz uzun müddət buna doğru getmişik. Bəlkə də müxtəlif istiqamətlərdən, müxtəlif sürətlərlə, amma nəticədə məhz sizin dediyinizə gəlib çatmışıq. Bu gün dünyanın enerji xəritəsində bir növ Rusiya-Türkiyə-Azərbaycan əməkdaşlıq formatı yaranıb. Bu əməkdaşlığın həm ikitərəfli, həm də üçtərəfli planda böyük perspektivləri var.

Biz enerji layihələrimizi hələ 2000-ci ilin əvvəllərində neft-qaz kəmərlərinin tikintisi ilə həyata keçirməyə başlamışıq. Çünki dünya bazarlarına çıxmaq üçün biz mütləq infrastruktur qurmalı idik. Bizim açıq okeana çıxmaq imkanımız yoxdur. Rusiya nisbətən yaxın vaxtlarda bu istiqamətdə addımlar atıb. Hərçənd biz xatırlayırıq ki, xeyli illər əvvəl "mavi axın" layihəsi gerçəkləşdirilmişdi. Bu barədə indi bir az unudublar. Amma axı bu da Rusiyadan Türkiyəyə Qara dənizin dibi ilə qaz kəmərinin inşası layihəsi idi. Yəni, prinsipcə, bu il "Türk axını"nın dəniz fazasının açılmasında yeni heç nə yoxdur. Sadəcə, Rusiya ilə Türkiyənin yüksək səviyyədə qarşılıqlı siyasi fəaliyyəti bu layihənin reallaşmasına, yaxud da gerçəkləşməsini sürətləndirməyə imkan verib. Buna görə də biz Rusiya və Türkiyənin dostları kimi bu layihəni alqışladıq və həmin layihənin açılış mərasimində yüksək hökumət səviyyəsində iştirak etdik.

"Cənub qaz dəhlizi" layihəsinə gəlincə, bu ilin mayında həmin layihə rəsmən işə düşüb. Bu, özündə dörd mühüm müstəqil layihəni birləşdirən layihədir. Bu, iri "Şahdəniz" qaz-kondensat yatağının işlənilməsi və inteqrasiya olunmuş üç qaz kəmərinin tikintisidir. Bu gün bu layihənin dörd seqmentindən üçü artıq reallaşıb və mayda "Cənub qaz dəhlizi"nin rəsmi açılışından sonra iyunda TANAP layihəsinin açılışı oldu. Beləliklə, biz Türkiyə, daha sonra isə Avropa bazarlarına daha böyük həcmdə qaz nəql edəcəyik. Bu da bizim siyasətimizin davamıdır, çünki hələ 2007-ci ildə biz Bakıdan Türkiyənin Ərzurum şəhərinə qədər qaz kəməri açmışıq və Türkiyə bazarına qaz ixracatçısıyıq. "Cənub qaz dəhlizi" bizə Türkiyə bazarına qazın ixracını iki dəfə artırmağa, eləcə də Türkiyənin ətrafındakı ölkələrin bazarlarına, sonra isə Qərbi Avropaya çıxmağa imkan verəcək. Bu, bizə böyük qaz potensialımızı reallaşdırmaq imkanı verəcək, xəzinəmizə milyardlarla dollar gətirəcək. Bu, artıq on minlərlə iş yeri yaradıb və əlbəttə ki, Avrasiyanın tamamilə yeni enerji xəritəsini yaradır. Azərbaycanın, Rusiyanın və Türkiyənin bu istiqamətdə səylərini birləşdirməsi bizə nəinki planlarımızı tamamilə reallaşdırmağa, maraqlarımızı təmin etməyə imkan verəcək, həm də enerji ehtiyatlarımızın və nəqliyyatın inkişafı baxımından çox gözlənilən siyasət deməkdir.

**- Mən dərhal rəqiblər tərəfindən gözlənilən siyasət haqqında bir neçə kəlmə deyə bilərəm. Ölkə nə qədər güclü olarsa, nə qədər böyük uğurlar qazanarsa, ona bir o qədər çox təzyiq göstərilir və burada enerji nüfuzu uğrunda mübarizə göz qabağındadır. Siz Qərb ölkələri, ilk növbədə, Birləşmiş Ştatlar tərəfindən Rusiyaya məhz Avropada öz enerji planlarımıza görə məruz qaldığımız təzyiqə baxa bilərsiniz. Siz qoşulmağa hazırsınız, yoxsa bunun kənar fəsadları var?**

- Məsələ ondadır ki, bizim enerji layihələrimizin inkişafı baxımından heç vaxt belə təzyiq hiss etməmişik. Mən hətta deyərdim, əksinə, Azərbaycan qazı Avropa ölkələrinin enerji təhlükəsizliyini müəyyən dərəcədə təmin edəcəyinə görə biz Avropa İttifaqı tərəfindən dəstək hiss etmişik. Hər il Bakıda "Cənub qaz dəhlizi" layihəsinin reallaşdırılması üzrə Məşvərət Şurası keçirilir. Bu layihədə Avropa İttifaqının üzvü olan bir neçə ölkə iştirak etdiyinə görə Avropa İttifaqı bu Məşvərət Şurası çərçivəsində hər zaman yüksək səviyyədə təmsil olunur. Biz öz enerji layihələrimizi reallaşdırırıq, çünki onlar bizə lazımdır. Çünki biz çox zəngin neft-qaz ehtiyatlarına malik ölkəyik. Biz onları satmalı, pul qazanmalıyıq. Buna görə də biz investor şirkətlər cəlb etmişik. Buna görə biz bankları cəlb etmişik. Neft-qaz kəmərləri tikirik. Təkcə "Cənub qaz dəhlizi" təxminən 40 milyard dollara başa gəlir. Bu investisiyaların böyük hissəsi borc kapitallarıdır. Buna görə əlbəttə ki, beynəlxalq maliyyə təsisatları ilə fəal əməkdaşlıq həmin layihənin mühüm amili idi.

Buna görə də həmin kontekstdə enerji layihələrinin icrası baxımından biz heç bir maneə hiss etmirik. Digər tərəfdən, tamamilə haqlısınız ki, Azərbaycanın əhəmiyyəti və rolu təkcə enerji bazarında deyil, həm də bütövlükdə geosiyasi planda artır. Ölkə daha da inkişaf edir və regionda özünü təsdiqləmək üçün daha çox planları var. Bizim inkişafa, apardığımız müstəqil siyasətə mütənasib olaraq bizə təzyiq də artır. Ancaq bu, enerji amilləri ilə əlaqədar deyil. Bu, bəzən bizi xalqımıza və ölkəmizə tamamilə yad olan hansısa avantüralara cəlb etmək cəhdləri ilə bağlıdır. Mən söhbətin əvvəlində dedim ki, bizim ölkədə - Azərbaycanda heç bir potensial risk, fiziki, ideoloji, sosial, siyasi təhdid yoxdur. Bizim vətəndaşların rahatlığını yalnız kənardan poza bilərlər. Ona görə də biz öz suverenliyimizlə bağlı məsələlərə, təhlükəsizliyimiz, vətəndaşlarımızın təhlükəsizliyi məsələlərinə çox həssaslıqla yanaşırıq. Ona görə də Azərbaycanı hansısa beynəlxalq avantüralara cəlb etmək cəhdləri həmişə fiaskoya uğrayıb. Yəqin ki, bu, kiminsə xoşuna gəlmir və arabir biz bunun nəticələrini görürük. Bir qayda olaraq bunlar bizim, ümumiyyətlə, iştirak etmədiyimiz beynəlxalq təşkilatların qəbul etdiyi hansısa qətnamələrdə ifadə olunur.

**- İnsan hüquqlarının pozulmasında ittihamlar...**

- Tamamilə doğrudur.

**- Sevimli mövzudur.**

- Bəli, elədir ki, var. Həm də qəribədir ki, bizim əleyhimizə olan qətnamələri üzvü olmadığımız və üzv olmağa hazırlaşmadığımız strukturlar qəbul edirlər. Bax, bu, necə deyərlər, daha çox təbəssüm doğurur. Həmçinin əlbəttə, mətbuata yalançı təbliğat tullantıları atılır. Bu, qarayaxma, şantaj və təzyiq göstərmək cəhdlərinin sevimli üsuludur. Amma bizdə buna qarşı immunitet yaranıb. Azərbaycan vətəndaşları çox yaxşı başa düşürlər ki, bu informasiya tullantıları cəhdlərinin arxasında nə durur. Azərbaycanın inamlı, davamlı, təhlükəsiz və sabit inkişafı bizə ziyan vurmaq istəyənlərə ən yaxşı cavabdır.

**- Mədəniyyət və təhsil məkanı, o cümlədən ölkələrimiz arasında nə qədər geniş və dərin olarsa, vətəndaşlarımız nə qədər savadlı olarsa, onlar nəyin həqiqət və nəyin uydurma olduğunu bir o qədər tez və asanlıqla başa düşəcəklər. Burada mən bizim tarixi əlaqələrimizə, münasibətlərimizə toxunmaya bilmərəm. Azərbaycan o ölkədir ki, Sovet İttifaqının dağılmasından sonra artıq 27 ildir ki, rus dili özünü burada doğma hiss edir. Azərbaycana bu cür turist axını yəqin bununla izah olunmalıdır. Bu gün neçə məktəbdə rus dili tədris olunur? Bu gün Rusiyaya təhsil almağa gedirlər. Bizim üçün bu da çox vacibdir. Belə ki, bu, gələcək üçün, gələcək nəsillər üçün əlaqədir.**

- Bu gün Azərbaycanda rus dilində təhsil verən 340-dan çox məktəb var. Üç mindən çox məktəbdə isə rus dili tədris olunur. Müqayisə üçün deyə bilərəm ki, ölkədə cəmi 4,5 minə yaxın məktəb var. Yəni, bizim məktəblərimizin mütləq əksəriyyətində rus dili tədris olunur. 340-dan çox məktəbdə isə tədris rus dilində aparılır və bu məktəblərin sayı artır. Hazırda bizim rus dilini qorumaq üzrə siyasətimiz yaxşı nəticələr verir. Mən tez-tez, xüsusən yeni dərs ili ərəfəsində məktəblərdə oluram. Görürəm ki, rus dilində yeni şöbələr yaradılır və buna ehtiyac var. Əlbəttə, ölkənin hər bir vətəndaşı, ilk növbədə, öz dövlət dilini bilməlidir. Bu cəhətdən bizim Azərbaycanda problem yoxdur. Dövlət dili Azərbaycan dilidir və bütün kargüzarlıq işləri Azərbaycan dilində aparılır. Belə də olmalıdır. Amma rus dilini bilmək həm tələbatdır, həm də bizim tarixi əlaqələrimizə hörmət əlamətidir. Bu gün mən görürəm ki, buna cəmiyyətdə necə tələbat var. Çünki siz tamamilə haqlısınız, buraya gələn milyona yaxın rusiyalı, fikrimcə, ilk növbədə, ona görə buraya gəlir ki, özlərini rahat mühitdə hiss edirlər. Bu da çox vacibdir. Buna görə də bizim rus dilini qorumaq, onun inkişafı üçün daha yaxşı şərait yaratmaq siyasətimiz tamamilə düzgündür və bunun müsbət nəticələrini görürük. Rus dilinə hörmət etməklə biz öz dilimizə qətiyyən xələl gətirmirik. Bu, sadəcə, mümkün deyil. Hesab edirəm ki, Azərbaycanın bugünkü inkişafı dünyaya, ilk növbədə, öz qonşularına açıq olmaqla milli maraqlarını, identikliyini qorumağın nümunəsidir. Biz son illərdə Rusiyanın iki aparıcı ali məktəbinin - Lomonosov adına MDU-nun və Seçenov adına Tibb Universitetinin filiallarını da yaratmışıq. Həmin filiallarda da tədrisi Rusiyadan olan müəllimlər rus dilində aparırlar. Buna görə də mədəni-humanitar sahə, təhsil sahəsi elə bir sahədir ki, ölkələrimiz və xalqlarımız arasında əlaqələrin dəstəklənməsinə kömək edəcək. Siz qeyd etdiniz ki, Sovet İttifaqının dağılmasından 27 il ötüb və yeni nəsil yetişib. Biz istəyirik ki, Azərbaycan vətəndaşları rus dilini də, ingilis dilini də və əlbəttə, ilk növbədə, öz ana dilini bilsinlər. Mümkün qədər çox dil bilsinlər və tərcüməçisiz rahat söhbət edə bilsinlər.

**- Rus dili beynəlxalq ünsiyyət dilidir. Biz burada rus dili haqqında məhz bu kontekstdə danışırıq. Amma bir daha qeyd edim ki, əgər gələcək nəsillər əcdadları tərəfindən yaradılan tərəfdaşlığı bilsələr və qiymətləndirsələr, onda bu gün Sizinlə apardığımız müzakirələrin, gördüyümüz işlərin hədər olmadığı sübut ediləcək. Cənab Prezident, Siz 2019-cu ildən nə gözləyirsiniz? Hansı hadisələrin Azərbaycanın həyatında, bizim ölkələrin həyatında mühüm rol oynayacağını güman edirsiniz? Nəyi həll etmək istərdiniz?**

- Mən əminəm ki, 2019-cu ildə ölkəmiz daha da inkişaf edəcək. Həyata keçirdiyimiz islahatların artıq xeyli hissəsi özünü 2019-cu ildə göstərəcək. Biz Azərbaycan iqtisadiyyatının transformasiyası prosesini bitiririk. Buna görə də düşünürəm ki, iqtisadi inkişaf cəhətdən bütün planlar reallaşdırılacaq. Dövlət büdcəsi də artıq qəbul olunub. O, həmişəki kimi sosialyönümlüdür. Buna görə də bütün sosial proqramlar həyata keçiriləcək. Biz gələn il məcburi köçkünlər və qaçqınlar üçün 4 mindən çox mənzil, Ermənistanla Azərbaycan arasında müharibə zamanı həlak olanların ailələri üçün 800-dən çox mənzil istifadəyə verməyi də nəzərdə tutmuşuq. Yəni, bizim iqtisadiyyatımızın sosial yönümü çox əhəmiyyətli olacaq.

Düşünürəm ki, 2019-cu ildə Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzinə çevirmək üçün də mühüm addımlar atılacaq. Bu gün Şimal-Cənub və Şərq-Qərb layihələri Azərbaycandan keçir. Biz yeganə ölkəyik ki, bu layihələrin hər ikisində iştirak edirik. Bu layihələrə qoşulan ölkələrin sayı isə ildən-ilə artır. Biz Azərbaycanda ən müasir nəqliyyat infrastrukturu - dəmir yolu, dəniz daşımaları, aviadaşımalar, 6 beynəlxalq aeroport, avtomobil yolları yaratmışıq. Deyə bilərəm ki, Davos İqtisadi Forumunun qiymətləndirməsinə görə, avtomobil yollarının keyfiyyəti üzrə Azərbaycan dünyada 34-cü yeri tutur. Bu kifayət qədər yüksək göstərici bizim həmin layihələrə necə diqqət göstərdiyimizdən xəbər verir. Əlbəttə, biz Qoşulmama Hərəkatının sədri kimi beynəlxalq arenada fəal iş aparacağıq və üzv ölkələrə dəstək verəcəyik. Ümid edirik ki, 2019-cu ildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması işində də müsbət irəliləyişlər olacaq. Düşünürəm ki, bu ilin baharında Ermənistanda baş verən hadisələr Ermənistan tərəfindən status-kvonun saxlanılması siyasətinin perspektivsizliyinin əyani göstəricisidir. Biz bu illər ərzində çox böyük inkişaf yolu keçmişik və Azərbaycanla Ermənistan arasında iqtisadi potensialın və bütün digər komponentlərin balansı artıq çoxdan pozulub. Düşünürəm ki, bizim iqtisadiyyatımızı, enerji, nəqliyyat layihələrinin potensialını gücləndirmək üzrə siyasətimiz müəyyən dərəcədə Ermənistanda baş verənlərə səbəb olub. Erməni cəmiyyətini narahat edən bütün digər məsələlərlə yanaşı, bu ilin baharında baş vermiş hadisələrin amillərindən biri Ermənistanın düşdüyü və ya özünü yuvarlatdığı ağır sosial-iqtisadi vəziyyət olub. Bu isə, mən qəti əminəm ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmamasının nəticəsində baş verib. Buna görə də düşünürəm ki, həm Ermənistan cəmiyyətində, həm də hakim strukturlarda daha yaxşı başa düşəcəklər ki, münaqişə yalnız ədalətli nizamlandıqdan, işğal olunmuş ərazilər azad olunduqdan sonra Ermənistan iqtisadiyyatı xeyli arta bilər. Əks təqdirdə, düşünürəm ki, Ermənistanda ciddi sosial-iqtisadi dəyişikliklərin nəticələrini gözləmək çətin olacaq.

Yəni, biz öz siyasətimizin nəticələrini görürük. Biz münaqişəni həmişə danışıqlar yolu ilə nizamlamaq istəmişik və istəyirik. Lakin təbii ki, danışıqlar yolu ilə nizamlamaq üçün çox ciddi vasitələr lazımdır. Bizim apardığımız və aparacağımız siyasət sülhün regiona hansı üstünlüklər verəcəyini və sülh olmayacağı təqdirdə Ermənistanda hansı çətinliklər yaranacağını göstərməyə yönəlib. Mən qəti əminəm ki, Ermənistanın yeni rəhbərliyinin ölkəni dəyişmək üzrə bütün planlarını həyata keçirməsi üçün yeganə yol Azərbaycanla münaqişənin nizamlanması yoludur. Bunun üçün isə onlar özlərinə məxsus olmayan ərazilərdən çıxmalı və yüz minlərlə azərbaycanlının öz yurdlarına qayıtmasına imkan verməlidirlər. Buna görə də ümid var ki, bu baxımdan daha çox anlaşma olacaq. Amma dəqiq deyə bilmərəm. Necə deyərlər, vaxt göstərər. Amma biz də haqqında dediyim siyasəti ardıcıl olaraq yürüdəcəyik, xüsusən görəndə ki, o, nəticə verir.

**- Strateji hövsələ, dözüm, səbir və öz inkişafına diqqət Azərbaycanın 2019-cu ildəki seçimidir.**

- Tamamilə doğrudur. Siz bizim planlaşdırdıqlarımızı və etdiklərimizi çox dəqiq ifadə etdiniz.

**- Mən Sizə uğurlar arzulayıram. Bu müsahibə üçün çox sağ olun. Sizə rifah arzulayıram.**

- Sağ olun. Sizi görməyimə həmişə şadam. Yeni il ərəfəsində fürsətdən istifadə edərək yeni ildə rusiyalılara ən xoş arzularımı çatdırıram, sülh, uğur və xoşbəxtlik diləyirəm.

**- Sağ olun!**

# Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1. Büdcənin ümumi göstəriciləri**

Müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsinin gəlirləri 3 928 104 000,0 manat, xərcləri 3 928 104 000,0 manat məbləğində təsdiq edilir.

**Maddə 2. Gəlirlər**

Müəyyən edilsin ki, 2019-cu ildə müvafiq icra hakimiyyəti orqanının gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 1. | Məcburi dövlət sosial sığorta haqları, cəmi o cümlədən: | 2 419 371 590,0 |
| 1.1. | büdcədən maliyyələşən təşkilatlar üzrə | 811 687 000,0 |
| 1.2. | büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə | 110 684 590,0 |
| 1.3. | qeyri-büdcə sektoru üzrə o cümlədən: | 1 497 000 000,0 |
| | sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üzrə | 65 000 000,0 |
| 2. | Sair gəlirlər, cəmi o cümlədən: | 6 000 000,0 |
| | sanatoriya-kurort yollayışlarının qismən dəyəri üzrə daxilolmalar | 2 000 000,0 |
| 3. | müvafiq icra hakimiyyəti orqanının büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait | 1 502 732 410,0 |

**Maddə 3. Xərclər**

Müəyyən edilsin ki, müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

| | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 1. | Əhaliyə ödənişlər üzrə xərclər | 3 834 944 000,0 |
| 1.1. | əmək pensiyalarının ödənilməsi xərcləri | 3 743 000 000,0 |
| 1.2. | məcburi dövlət sosial sığorta haqları hesabına müavinət xərcləri | 91 944 000,0 |
| 1.2.1. | əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə | 24 628 000,0 |
| 1.2.2. | hamiləliyə və doğuşa görə | 29 716 000,0 |
| 1.2.3. | uşağın anadan olmasına görə | 7 200 000,0 |
| 1.2.4. | 3 yaşına çatanadək uşaqlara qulluqla əlaqədar | 13 400 000,0 |
| 1.2.5. | dəfn üçün | 17 000 000,0 |
| 2. | Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası xətti ilə sığortaolunanların sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi üzrə xərclər | 20 000 000,0 |
| 2.1. | sanatoriya-kurort müalicəsi və istirahət üçün yollayışların alınmasına | 15 530 000,0 |
| 2.2. | sığortaolunanların uşaqlarının sağlamlıq düşərgələrində istirahətinin təşkilinə | 340 000,0 |
| 2.3. | sanatoriya-profilaktoriyalara yemək xərcləri, tibb xidməti və ştatların saxlanılmasına | 210 000,0 |
| 2.4. | Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının idman cəmiyyətlərinə məxsus idman qurğularının qismən saxlanılmasına (işçilərin əməkhaqqının ödənilməsi) | 2 600 000,0 |
| 2.5. | Həmkarlar İttifaqlarının texniki və əməyin hüquqi müfəttişliyinin, etimadlı həkimlərin, sağlamlaşdırma işi ilə məşğul olan təlimatçıların saxlanılmasına | 1 320 000,0 |
| 3. | Pensiya və müavinətlərin əhaliyə çatdırılması, bank əməliyyatlarının aparılması üzrə xidmət haqqı xərcləri | 22 500 000,0 |
| 4. | Müvafiq icra hakimiyyəti orqanının aparatının və onun yerli orqanlarının və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) saxlanılması xərcləri | 49 000 000,0 |
| 5. | Beynəlxalq təşkilatlara üzvlük haqlarının ödənilməsi xərcləri | 60 000,0 |
| 5.1. | Beynəlxalq Sosial Təminat Assosiasiyasına üzvlük haqqının ödənilməsi xərcləri | 30 000,0 |
| 5.2. | Pensiya və Sosial Fondların Beynəlxalq Assosiasiyasına üzvlük haqqının ödənilməsi xərcləri | 30 000,0 |
| 6. | Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında 2004-cü il 23 sentyabr tarixdə imzalanmış "İnkişaf üçün Kredit Sazişi"nə əsasən "Pensiya və sosial təminat" layihəsi üzrə kreditin qaytarılması xərcləri | 1 600 000,0 |

**Maddə 4. Qalıqlardan istifadə**

Müvafiq icra hakimiyyəti orqanının aparatının və yerli orqanlarının hesablarında ilin sonuna qalan vəsait növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.

**Maddə 5. Büdcə təşkilatları üzrə sosial sığorta haqları üzrə daxilolmaların tənzimlənməsi**

Büdcə ili ərzində dövlət büdcəsindən maliyyələşən təşkilatlara nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları üzrə vəsaitlər müvafiq icra hakimiyyəti orqanının xəzinə hesablarına tam məbləğdə daxil olmadıqda, müvafiq icra hakimiyyəti orqanının büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin məbləği nəzərdə tutulmuş və faktiki hesablanmış məcburi dövlət sosial sığorta haqları arasındakı fərq qədər artırılır, artıq daxil olduqda isə nəzərdə tutulmuş və faktiki hesablanmış məcburi dövlət sosial sığorta haqları arasındakı fərq qədər azaldılır.

**Maddə 6. Qanunun qüvvəyə minməsi**

Bu qanun 2019-cu il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 noyabr 2018-ci il*

# "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 208, № 12, maddə 1019; 2007, № 12, maddə 1194; 2008, № 4, maddə 254, № 6, maddə 464, № 7, maddə 602, № 8, maddələr 699, 710; 2009, № 6, maddələr 395, 399, № 11, maddələr 877, 879; 2010, № 7, maddə 579; 2011, № 4, maddə 267, № 6, maddə 465, № 7, maddə 597, № 12, maddə 1109; 2012, № 11, maddələr 1037, 1044; 2013, № 3, maddə 223, № 5, maddə 485, № 6, maddələr 608, 614; 2015, № 5, maddə 494; 2017, № 5, maddə 676, № 7, maddə 1289, № 10, maddə 1776, № 12 (I kitab), maddə 2193, 2018, № 5, maddə 865) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.0.5-ci maddəyə "digər əlavələrdən" sözlərindən sonra "(büdcədənkənar vəsaitlər hesabına hesablanan əlavələr və digər ödənişlər istisna olmaqla)" sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 5.3-cü, 20.30-cu və 22-1-ci maddələr əlavə edilsin:

"5.3. Əmək pensiyalarının təyin edilməsi, hesablanması və yenidən hesablanması (bu qanunun 26.3-cü maddəsi istisna olmaqla), bir növdən başqa növə keçirilməsi və ödənilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.";

"20.30. Bu maddədə nəzərdə tutulan şəxslərin əmək pensiyalarına qulluq stajına görə əlavə hesablanarkən əməkhaqqına, dövlət məvacibinə və vəzifə maaşına büdcədənkənar vəsaitlər hesabına verilən ödənişlər nəzərə alınmır.";

"**Maddə 22-1.** Əmək pensiyasının avtomatlaşdırılmış qaydada təyinatı zamanı 2006-cı il yanvarın 1-dək olan sığorta stajının hesablanması xüsusiyyətləri

22-1.1. 2019-cu il yanvarın 1-dən etibarən sığortaolunanın əmək pensiyası avtomatlaşdırılmış qaydada təyin edilərkən onun fərdi hesabının sığorta hissəsində 2018-ci ilin 1 iyul tarixinə qeydə alınmış pensiya kapitalı olduqda, 2006-cı il yanvarın 1-dək olan sığorta stajı bu qanunun 22-1.2-ci maddəsinə uyğun olaraq hesablanır.

22-1.2. 2019-cu il yanvarın 1-dən etibarən sığortaolunanın 2006-cı il yanvarın 1-dək olan sığorta stajı, bu qanunun 22-1.1-ci və 22-1.4-cü maddələrinin tələbləri nəzərə alınmaqla, aşağıdakı qaydada hesablanır:

22-1.2.1. 2019-2020-ci illərdə bu qanunun 7-ci maddəsi ilə müəyyən edilmiş yaş həddinə çatmış sığortaolunana yaşa görə əmək pensiyası təyin edilərkən onun 2006-cı il yanvarın 1-dək olan sığorta stajı 25 il, 2021-ci ildən etibarən isə hər təqvim ili üçün bir il azaldılmaqla hesablanır;

22-1.2.2. əlilliyi müəyyən edilmiş şəxsə əlilliyə görə əmək pensiyası təyin edilərkən onun 2006-cı il yanvarın 1-dək olan sığorta stajı həmin dövrə olan əmək qabiliyyətli yaş dövrünün hər ili üçün 4 ay götürülməklə hesablanır;

22-1.2.3. ailə başçısını itirməyə görə əmək pensiyası təyin edilərkən pensiyaçı olmayan vəfat etmiş şəxsin 2006-cı il yanvarın 1-dək olan sığorta stajı bu qanunun 22-1.2.2-ci maddəsinə uyğun olaraq hesablanır.

22-1.3. Əmək pensiyası hüququ olan şəxslərin 2006-cı il yanvarın 1-dək faktiki sığorta stajı bu qanunun 22-1.2.1 - 22-1.2.3-cü maddələrində göstərilən sığorta stajından çox olduqda onların arzusuna əsasən pensiya təyin edilərkən faktiki sığorta stajı nəzərə alınır.

22-1.4. Bu qanunun 22-1.2-ci maddəsi aşağıdakı hallarda tətbiq edilmir:

22-1.4.1. 2019-cu il yanvarın 1-dək təyin edilmiş əmək pensiyalarının pensiya hüququ yarandığı gündən yenidən hesablanması zamanı;

22-1.4.2. 2019-cu il yanvarın 1-dən sonra əmək pensiyası təyin edilmiş şəxslərə 2019-cu il yanvarın 1-dən əvvəlki dövr üçün əmək pensiyasının təyin edilməsi və ya əmək pensiyası məbləğinin hesablanması zamanı;

22-1.4.3. bu qanunun 9-cu maddəsinə əsasən güzəştli şərtlərlə yaşa görə pensiya təyin edilməsi və yenidən hesablanması zamanı;

22-1.4.4. bu qanunun 20-ci maddəsinə əsasən əmək pensiyasına qulluq stajına görə əlavə almaq hüququ verən qulluq stajının hesablanması zamanı.

22-1.5. 2019-cu il yanvarın 1-dək "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən təyin edilmiş sosial müavinətlərin bu qanunun 22-1.2-ci maddəsi tətbiq edilərək əmək pensiyalarına keçirilməsinə yol verilmir.";

1.3. 28-ci maddə ləğv edilsin;

1.4. 29.2-ci maddədə "2017-ci il iyulun 1-dən əmək pensiyasına çıxmış bu" sözləri "Bu" sözü ilə əvəz edilsin;

1.5. 31.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"2019-cu il yanvarın 1-dən etibarən əmək pensiyaları bu qanunun 22-1-ci maddəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən avtomatlaşdırılmış qaydada təyin edilir.";

1.6. 32.1-1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu qanuna uyğun olaraq ötən dövr üçün hesablanan pensiyanın ümumi məbləği ötən dövrdəki ayların sayına bölünərək aylıq pensiyanın üzərinə əlavə edilməklə ödənilir.";

1.7. aşağıdakı məzmunda 32.1-2-ci maddə əlavə edilsin:

"32.1-2. Bu qanunun 22-1.1-ci maddəsi nəzərə alınmaqla təyin edilmiş əmək pensiyaları ötən dövr üçün 2019-cu il yanvarın 1-dən tez olmamaqla bu qanunun 32.1-1-ci maddəsinə uyğun ödənilir.".

**Maddə 2.** Bu qanun 2019-cu il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 noyabr 2018-ci il*

# "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1362-VQD nömrəli Qanununun tətbiqi və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 377 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1362-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.3. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 5.3-cü maddəsinə uyğun olaraq, əmək pensiyalarının təyin edilməsi, hesablanması və yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 377 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 228; 2009, № 11, maddə 883; 2013, № 6, maddə 631; 2016, № 9, maddə 1467; 2017, № 5, maddə 756; 2018, № 2, maddə 185) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.2-ci bəndə "9.1-ci" sözlərindən əvvəl "5.3-cü," sözləri əlavə edilsin;

3.2. 2.3-cü bəndə "31.2-ci" sözlərindən əvvəl "31.1-ci," sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

5. Bu fərman 2019-cu il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 dekabr 2018-ci il*

# "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1350-VQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1350-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin 4-cü hissəsində (ikinci halda) nəzərdə tutulan müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin qanunun adında, 1-ci maddəsində, 2-ci maddəsinin birinci abzasında və 3-cü hissəsində, 3-cü maddəsinin birinci abzasında və 4-cü hissəsində (birinci halda), 4-cü və 5-ci (hər iki halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu həyata keçirir;

1.3. həmin qanunun 3-cü maddəsinin 4-cü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının həmin qanuna uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Vergilər Nazirliyi həmin qanunun 2-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

4.1. Nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun 2019-cu il büdcəsinin xərclərinin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

4.2. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi 2019-cu ildə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin rüblük və aylıq bölgüsünü Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırmaqla on beş gün müddətində təsdiq etsin.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları və büdcədən maliyyələşən təşkilatlar büdcədənkənar vəsaitlər üzrə əvvəlki illərdə yaranmış məcburi dövlət sosial sığorta haqları borclarını 2019-cu il üçün xüsusi vəsaitlərin smetalarında nəzərə alsınlar.

7. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, şəhər və rayon icra hakimiyyətlərinə tapşırılsın ki, ərazilərindəki dövlət təşkilatlarının, o cümlədən büdcədən maliyyələşən təşkilatların məcburi dövlət sosial sığorta haqlarını vaxtında və tam ödəməsini təmin etmək üçün Azərbaycan Respublikasının Vergilər Nazirliyinin tabeliyində olan vergi orqanları ilə birlikdə tədbirlər həyata keçirsinlər.

8. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 dekabr 2018-ci il*

# İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1. Büdcənin ümumi göstəriciləri**

İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsinin gəlirləri 83 451 400,0 manat, xərcləri 83 451 400,0 manat məbləğində təsdiq edilir.

**Maddə 2. Gəlirlər**

Müəyyən edilsin ki, 2019-cu ildə İşsizlikdən sığorta fondunun gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 1. | İşsizlikdən sığorta üzrə sığorta haqları, cəmi o cümlədən: | 83 421 400,0 |
| 1.1. | büdcədən maliyyələşən təşkilatlar üzrə | 13 060 700,0 |
| 1.2. | büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə | 13 060 700,0 |
| 1.3. | qeyri-büdcə sektoru üzrə | 57 300 000,0 |
| 2. | Sair gəlirlər | 30 000,0 |

**Maddə 3. Xərclər**

Müəyyən edilsin ki, İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

| | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 1. | İşsizliyə görə sığorta ödənişləri | 11 000 000,0 |
| 2. | Peşə hazırlığı və əlavə təhsilin təşkili | 1 800 000,0 |
| 3. | Peşə yönümünə dair məsləhət xidmətlərinin göstərilməsi | 1 300 000,0 |
| 4. | Əmək yarmarkalarının, əmək birjalarının təşkili | 150 000,0 |
| 5. | Haqqı ödənilən ictimai işlərin təşkili | 1 900 000,0 |
| 6. | Özünüməşğulluq tədbirlərinin təşkili | 42 041 400,0 |
| 7. | Sığortaolunanların əməkhaqqının müəyyən hissəsinin müəyyən müddətə (3 ay, 6 ay, 9 ay, 1 il) sığortaedənlərlə birlikdə maliyyələşdirilməsi | 5 000 000,0 |
| 8. | Peşə standartlarının hazırlanması | 1 000 000,0 |
| 9. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və onun yerli orqanlarının, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) saxlanılması xərcləri | 19 260 000,0 |

**Maddə 4. Qalıqlardan istifadə**

İlin sonuna işsizlikdən sığorta fondunun istifadə olunmamış vəsaitləri növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.

**Maddə 5. Qanunun qüvvəyə minməsi**

Bu qanun 2019-cu il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 noyabr 2018-ci il*

# “İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1351-VQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1351-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. “İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin 9-cu hissəsində (hər iki halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin qanunun 3-cü maddəsinin 9-cu hissəsində (birinci halda) “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti nəzərdə tutulur;

1.3. həmin qanunun 3-cü maddəsinin 9-cu hissəsində (ikinci halda) “orqan (qurum)” dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının həmin qanuna uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Vergilər Nazirliyi:

3.1. İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsinin gəlirlərinin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

3.2. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

4.1. İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsinin xərclərinin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

4.2. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

5. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən hər il üçün təsdiq edilən işsizlikdən sığorta fondunun büdcəsində müəyyən olunan özünüməşğulluq tədbirlərinin təşkili ilə bağlı görülmüş işlərin monitorinqini və qiymətləndirilməsini həyata keçirsin və bu barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları və büdcədən maliyyələşən təşkilatlar büdcədənkənar vəsaitlər üzrə 2018-ci ildə yaranmış işsizlikdən sığorta haqları borclarını 2019-cu il üçün xüsusi vəsaitlərin smetalarında nəzərə alsınlar.

7. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, şəhər və rayon icra hakimiyyətlərinə tapşırılsın ki, ərazilərindəki dövlət təşkilatlarının, o cümlədən büdcədən maliyyələşən təşkilatların işsizlikdən sığorta üzrə sığorta haqlarını vaxtında və tam ödəməsini təmin etmək üçün Azərbaycan Respublikası Vergilər Nazirliyinin tabeliyində olan vergi orqanları ilə birlikdə tədbirlər həyata keçirsinlər.

8. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 dekabr 2018-ci il*

# “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1514) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.0.5-ci maddədə “idarəetməni” sözündən sonra “(işsizlikdən sığorta haqqının hesablanmasına və ödənilməsinə nəzarət üzrə fəaliyyət istisna olmaqla)” sözləri əlavə edilsin;

1.2. 6-cı maddə üzrə:

1.2.1. 6.2.1-ci və 6.2.7-ci maddələr ləğv edilsin;

1.2.2. 6.2.11-ci maddə aşağıdakı redaksiyada verilsin:

“6.2.11. sığorta haqqının hesablanmasını və uçotunu aparmaq, hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş formada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) hesabat vermək, habelə sığorta ödənişi üçün əsas olan sənədlərin və məlumatların qorunub saxlanmasını təmin etmək;”;

1.3. 7-ci maddə üzrə:

1.3.1. 7.1.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

“7.1.1. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) işsizlikdən sığorta haqqı üzrə məlumat və hesabatlar almaq;”;

1.3.2. 7.1.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

“7.1.3. işsizlikdən sığorta haqqı üzrə daxilolmaların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə aylıq, rüblük və illik üzləşdirilməsini aparmaq;”;

1.3.3. aşağıdakı məzmunda 7.1.3-1-ci maddə əlavə edilsin:

“7.1.3-1. sığortaedənlər tərəfindən bu qanunun tələblərinə əməl edilməsinin elektron monitorinqini aparmaq, monitorinqin nəticələri barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat vermək;”;

1.4. aşağıdakı məzmunda 7-1-ci maddə əlavə edilsin:

**“Maddə 7-1.** İşsizlikdən sığorta haqqının hesablanmasına və ödənilməsinə nəzarət

İşsizlikdən sığorta haqqının hesablanmasına və ödənilməsinə nəzarət, işsizlikdən sığorta haqqı üzrə yaranmış borcların alınması, işsizlikdən sığorta haqqının vaxtında ödənilməməsinə görə faizlərin hesablanması və artıq ödənilmiş işsizlikdən sığorta haqqının qaytarılması Azərbaycan Respublikasının Vergi Məcəlləsində vergilər üzrə müəyyən olunmuş qaydada həyata keçirilir.”;

1.5. 10.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

“10.2. İşsizlikdən sığorta haqqının hesablanmasına və ödənilməsinə nəzarəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həyata keçirir.”;

1.6. 19.0.5-ci maddəyə “müvafiq icra hakimiyyəti orqanının” sözlərindən sonra “müəyyən etdiyi orqanın (qurumun)” sözləri əlavə edilsin;

1.7. 23-cü maddədə “25” rəqəmləri “50” rəqəmləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu qanun 2019-cu il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 noyabr 2018-ci il*

# “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1361-VQD nömrəli Qanununun tətbiqi və “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 avqust tarixli 1569 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1361-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Vergilər Nazirliyi:

2.1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırmaqla “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 6.2.11-ci maddəsinə uyğun olaraq, hesabatın formasını bir ay müddətində müəyyən etsin;

2.2. “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanunundan irəli gələn məsələləri həll etsin.

4. “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 avqust tarixli 1569 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1516) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bənddə “16-cı” sözləri “6.2.11-ci (hər iki halda), 7.1.1-ci, 7.1.3-cü, 7.1.3-1-ci, 10.2-ci, 16-cı, 19.0.5-ci” sözləri ilə əvəz edilsin;

4.2. 2.3-cü bənddən “, 23-cü maddəsinin adında və birinci cümləsində (birinci halda)” sözləri çıxarılsın;

4.3. 2.6-cı bəndə “işçilərinə” sözündən sonra “və vergi orqanları işçilərinə” sözləri əlavə edilsin;

4.4. 2.7-ci bəndə “Administrasiyası” sözündən sonra “, Azərbaycan Respublikasının Vergilər Nazirliyi” sözləri əlavə edilsin;

4.5. 2.8-ci bənddən “10.2-ci maddəsində və” sözləri çıxarılsın;

4.6. 2.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

“2.9. həmin qanunun 19.0.5-ci maddəsində “orqan” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;”;

4.7. 2.10-cu bəndə “işçiləri” sözündən sonra “və vergi orqanlarının işçiləri” sözləri əlavə edilsin;

4.8. 2.10-cu bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.11-ci və 2.12-ci bəndlər əlavə edilsin:

“2.11. həmin qanunun 23-cü maddəsinin adında və birinci cümləsində (birinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirirlər;

2.12. həmin qanunun 6.2.11-ci (hər iki halda), 7.1.1-ci, 7.1.3-cü, 7.1.3-1-ci və 10.2-ci maddələrində “orqan” dedikdə Azərbaycan Respublikasının Vergilər Nazirliyi nəzərdə tutulur.”.

5. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

6. Bu fərman 2019-cu il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 dekabr 2018-ci il*

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, I kitab, maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddə 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1168, № 7 (I kitab), maddələr 1435, 1437, 1438; Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1248-VQD, 1251-VQD, 1254-VQD, 30 oktyabr tarixli 1301-VQD, 1307-VQD, 1317-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 43.1-ci maddədən “450.1,” rəqəmləri çıxarılsın;

1.2. 450-ci maddə ləğv edilsin.

**Maddə 2.** Bu Qanun 2019-cu il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 noyabr 2018-ci il*

# “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1357-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1357-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12, maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 noyabr tarixli 331 nömrəli, 15 noyabr tarixli 343 nömrəli, 23 noyabr tarixli 360 nömrəli, 10 dekabr tarixli 384 nömrəli və 18 dekabr tarixli 409 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5.46-cı bənddə “450.2” rəqəmləri “460” rəqəmləri ilə əvəz edilsin;

2.2. 5.55-ci bənd ləğv edilsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Bu Fərman 2019-cu il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2018-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!
Əzizim İlham!
Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırır, cansağlığı, səadət, eləcə də xalqınıza və ölkənizə rifah və tərəqqi arzulayıram.
Sizinlə birlikdə qurduğumuz və ölkələrimizin qarşılıqlı maraqlarına xidmət edən Azərbaycan-Monteneqro dostluq münasibətləri ilə fəxr edə bilərik. Bu xüsusda Sizin töhfələriniz misilsizdir. Sizinlə gələcək görüşlərimizdən və davamlı əməkdaşlığımızdan məmnunluq duyuram.
Ən dərin ehtiramımı və dost salamlarımı qəbul etməyinizi xahiş edirəm.
*Hörmətlə,*

***Milo CUKANOVİÇ,***
***Monteneqronun Prezidenti***

❖ ❖ ❖

Əziz İlham Heydər oğlu!
Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm.
Sizin dövlət başçısı vəzifəsində səmərəli fəaliyyətiniz ən yüksək qiymətə layiqdir. Siz öz işinizdə yalnız müstəqil Azərbaycanın mənafelərini əsas götürürsünüz. Siz dövlətçiliyi möhkəmləndirir, ölkənizdə iqtisadi artım üzərində çalışır, innovasiyalı inkişafı təmin edirsiniz. Sizin rəhbərliyinizlə Azərbaycan regionda sabitliyə və sülhün möhkəmlənməsinə sanballı töhfə verir.
Ukrayna ilə Azərbaycan arasında çoxillik dostluğa və münasibətlərin möhkəmlənməsinə verdiyiniz şəxsi töhfəyə görə Sizə təşəkkür edirəm.
Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, ailənizə firavanlıq, bütün işlərinizdə və təşəbbüslərinizdə yeni uğurlar arzulayıram.
*Hörmətlə,*

***Leonid KUÇMA,***
***1994-2005-ci illərdə Ukrayna Prezidenti***

❖ ❖ ❖

Hörmətli Prezident!
Əzizim İlham!
Doğum gününüz münasibətilə Sizi böyük məmnuniyyətlə təbrik edir, Sizə möhkəm cansağlığı və ali dövləti vəzifənizin yerinə yetirilməsində yeni-yeni uğurlar arzulayıram.
Dost Azərbaycanın tərəqqisinin təmin edilməsində və nüfuzunun artmasında xidmətləriniz əvəzsizdir və daim hörmətə layiqdir. Çox dəyərli atanızın yolunu davam etdirərək beynəlxalq aləmdə dövlətinizin nüfuzunun yüksəlməsi ilə və bir çox sahələrdə digərləri üçün örnək olacaq nailiyyətlərlə iftixar duya bilərsiniz.
Fürsətdən istifadə edərək, ölkələrimiz arasında çox sıx əlaqələrin yaradılmasındakı ciddi töhfələrinizə görə Sizə təşəkkür edirəm. Dövlətlərarası dostluğumuz naminə əməkdaşlıq etmək imkanından çox məmnunam. Bu əlaqələrin gələcəkdə daha da möhkəmlənəcəyinə və inkişaf edəcəyinə əminəm.
*Yüksək ehtiramla,*

***Filip VUYANOVİÇ,***
***2003-2018-ci illərdə Monteneqronun Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!
Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm.
Siz müdrik və məsuliyyətli, öz vətəndaşlarının firavanlığının qeydinə daim qalan, Xəzər regionunda sabitliyin qarantı kimi çıxış edən, Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında ikitərəfli əlaqələrin strateji inkişafını hədəf seçmiş rəhbər kimi haqlı olaraq yüksək nüfuz və hörmət qazanmısınız.
Sizə möhkəm cansağlığı, uğurlar, dost Azərbaycan xalqının firavanlığı naminə yeni zəfərlər arzulayıram.
*Hörmətlə,*

***Maqomedsalam MAQOMEDOV,***
***Rusiya Federasiyası Prezidenti***
***Administrasiyası rəhbərinin müavini***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!
Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.
Sizin müdrik rəhbərliyinizlə Azərbaycan sosial-iqtisadi inkişaf yolunda durmadan irəliləyir, ən mühüm beynəlxalq və regional məsələlərin həllində getdikcə daha fəal rol oynayır. Siz dövlət başçısı kimi yüksək vəzifədə fəaliyyətiniz illərində ölkə vətəndaşlarının hörmətini və etimadını qazanmısınız.
İcazə verin, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, firavanlıq, mənəvi harmoniya, nəzərdə tutduğunuz bütün planların reallaşmasını, səmərəli və məhsuldar işləməyinizi, Azərbaycan Respublikasının tərəqqisi və Azərbaycan xalqının rifahı, habelə ölkələrimiz arasında mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsi naminə yeni layihələr və uğurlu təşəbbüslər diləyim.
Qoy həmişə Sizi yaxınlarınızın sevgisi və qayğısı, sədaqətli dostlar və həmməsləkləriniz əhatə etsin.
*Hörmətlə,*

***Ruslan EDELGERİYEV,***
***Rusiya Federasiyası Prezidentinin müşaviri,***
***RF Prezidentinin iqlim məsələləri üzrə***
***xüsusi nümayəndəsi***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!
Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.
Sizin müdrikliyiniz və siyasi uzaqgörənliyiniz heyranlıq doğurur. Mən bilirəm ki, Sizin üçün hakimiyyət əsas məqsəd deyil, yalnız öz xalqına, doğma ölkəsinə real fayda vermək imkanıdır. Bu gün Siz Azərbaycanı yeniləşmə və inkişaf yolu ilə irəli aparırsınız, bu diyarda sülhün, təhlükəsizliyin və əmin-amanlığın təmin olunması üçün əlinizdən gələni edirsiniz. Azərbaycanın hazırkı sabit, uğurlu inkişafı daha çox Sizin adınızla bağlıdır. Bu, dahi atanız Heydər Əliyevin işlərinin davamıdır.
Bu əlamətdar gündə Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, dostlarla ünsiyyət sevinci, əla əhvali-ruhiyyə, Azərbaycan xalqının rifahı və Rusiya-Azərbaycan münasibətlərinin inkişafı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.
Sizə və yaxınlarınıza firavanlıq arzulayıram.
*Hörmətlə,*

***İlyas UMAXANOV,***
***Rusiya Federasiyası Federal Məclisinin***
***Federasiya Şurası sədrinin müavini***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident!
Doğum gününüz münasibətilə Türkdilli Ölkələrin Parlament Assambleyasının Katibliyi və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan böyük şərəf duyuram. Eləcə də qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbriklərimi qəbul etməyinizi zati-alinizdən xahiş edirəm. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına sülh, tərəqqi və rifah arzulayıram.
Sizin rəhbərliyinizlə məqsədyönlü, ardıcıl və düzgün qurulmuş fəaliyyət nəticəsində Azərbaycanın beynəlxalq nüfuzu durmadan artmış, siyasi, sosial-iqtisadi və mədəni sahələrdə möhtəşəm uğurlar qazanılmışdır. Ölkədə müxtəlif irimiqyaslı beynəlxalq layihələrin və tədbirlərin həyata keçirilməsi ənənə halını almış, dayanıqlı inkişafın nümunəvi Azərbaycan modeli formalaşmışdır.
Bu il yaradılmasının 10-cu ildönümünü qeyd etdiyimiz Türkdilli Ölkələrin Parlament Assambleyasının Katibliyinə daim göstərdiyiniz hərtərəfli diqqət və dəstəyinizə görə Sizə dərin minnətdarlığımı ifadə edirəm. Əminliklə qeyd etmək istərdim ki, Sizin məqsədyönlü və çoxşaxəli fəaliyyətiniz türkdilli ölkələr arasında inkişaf etməkdə olan əməkdaşlığa mühüm töhfəsini verməkdə davam edəcəkdir.
*Yüksək hörmət və ehtiramla,*

***Altınbek MAMAYUSUPOV,***
***Türkdilli Ölkələrin Parlament Assambleyasının***
***Baş katibi***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!
Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm.
Sizin məsul dövləti vəzifədə qurucu fəaliyyətiniz Azərbaycanın sosial-iqtisadi inkişafında müsbət dəyişikliklərin təmin edilməsinə, respublikada sülhün və sabitliyin möhkəmlənməsinə, onun sakinlərinin rifahının yüksəldilməsinə şərait yaradır.
Əminəm ki, Sizin yüksək peşəkar keyfiyyətləriniz və işinizə sadiqliyiniz nəzərdə tutduğunuz planları bundan sonra da uğurla həyata keçirməyinizə imkan verəcək.
Sizə möhkəm cansağlığı, vətən naminə gələcək uğurlu fəaliyyətiniz üçün güc və enerji, Sizə və yaxınlarınıza xoşbəxtlik, firavanlıq və əmin-amanlıq arzu edirəm.
*Hörmətlə,*

***Yunusbek YEVKUROV,***
***Rusiya Federasiyasının İnquş Respublikasının rəhbəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!
Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm.
Sizin rəhbərliyinizlə Azərbaycan Respublikasının bundan sonra da uğurlu sosial-iqtisadi inkişafını, nəzərdə tutulmuş investisiya və infrastruktur layihələrinin, o cümlədən Rusiya ilə ikitərəfli strateji tərəfdaşlığa və ölkələrimizin regionları arasında möhkəmlənən qarşılıqlı əlaqələrə əsaslanmaqla, səmərəli reallaşmasını arzu edirəm.
Sizə möhkəm cansağlığı, əmin-amanlıq diləyirəm.
*Hörmətlə,*

***Andrey BOÇAROV,***
***Rusiya Federasiyasının Volqoqrad vilayətinin qubernatoru***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!
İcazə verin, Moldova Respublikasının Qaqauziya Muxtar Ərazisinin sakinləri adından və şəxsən öz adımdan Sizə dərin hörmət və ehtiramımı ifadə edim və ad gününüz münasibətilə ən səmimi təbriklərimi, xoş arzularımı çatdırım.
Bu təntənəli və mötəbər gündə sülh, əmin-amanlıq, Azərbaycan Respublikası və onun əhalisinin rifahı naminə fundamental fəaliyyətinizdə Sizə uğurlar, möhkəm cansağlığı arzulayırıq.
Siz dövlətin bütün sahələrinin inkişafı üçün yeni-yeni strateji layihələri həyata keçirməklə, vətəndaşların yaşayış səviyyəsini yüksəltməklə və ölkənin milli maraqlarını üstün tutmaqla əzmlə çalışırsınız.
Əminəm ki, Sizin biliyiniz, təcrübə və bacarığınız, müdrikliyiniz Azərbaycan Respublikasının daha gözəl və çiçəklənən gələcəyini təmin edəcək, əmin-amanlıq və sabitlik qorunub saxlanılacaq.
Qaqauziya Muxtar Ərazisinə göstərdiyiniz dəstəyə görə qaqauz xalqı adından Sizə dərin və səmimi minnətdarlığımızı bildiririk. Biz Azərbaycan Respublikası ilə Moldova Respublikasının Qaqauziya Muxtar Ərazisi arasında yaranmış dostluq münasibətlərinə və açıq tərəfdaşlıq əlaqələrinə görə ürəkdən qürur duyuruq.
Sizə, eləcə də yaxınlarınıza və doğmalarınıza daim aydın səma, rifah və sevinc arzulayıram.
Möhtərəm Prezident, fürsətdən istifadə edərək Sizə ən dərin və yüksək hörmətimi ifadə edirəm.
*Dərin hörmət və ehtiramla,*

***İrina VLAX,***
***Moldova Respublikasının Qaqauziya Muxtar Ərazisinin rəhbəri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!
Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.
Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, bütün planlarınızın həyata keçməsi üçün uzun ömür, tükənməz enerji, xoşbəxtlik, firavanlıq və ali dövləti fəaliyyətinizdə uğurlar arzu edirəm.
*Hörmətlə,*

***Aleksandr JİLKİN,***
***Rusiya Federasiyasının Həştərxan vilayətinin sabiq qubernatoru***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!
"Qazprom" Publik Səhmdar Cəmiyyətinin İdarə Heyəti adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm. Sizə səmimi-qəlbdən böyük nailiyyətlər, ölkənizin və bütün Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə yeni uğurlar diləyirəm.
Sizə və yaxınlarınıza möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq arzu edirik.
*Hörmətlə,*

***Aleksey MİLLER,***
***Rusiyanın "Qazprom" Publik Səhmdar***
***Cəmiyyətinin İdarə Heyətinin sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!
Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.
Siz, görkəmli siyasi xadim, haqlı olaraq dünya siyasi elitasının ən parlaq nümayəndələrindən birisiniz. Siz bütün enerjinizi geosiyasi məkanda dövlətinizin mənafelərinin qorunmasına, respublikanın bütün vətəndaşları üçün mənəviyyatın və sosial sabitliyin inkişafına sərf edirsiniz.
Əminəm ki, Sizin müdrik rəhbərliyinizlə Azərbaycan iqtisadi firavanlıq yolunu davam etdirəcək, vətəndaşların rifahının durmadan artmasını bütün dünyaya göstərəcək.
Sizə səmimi-qəlbdən Azərbaycanın və onun vətəndaşlarının rifahı naminə yeni zəfərlər, möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq arzu edirəm.
*Hörmətlə,*

***Mixail QUTSERİYEV,***
***"Russneft" Neft-Qaz Şirkəti Publik Səhmdar***
***Cəmiyyətinin Direktorlar Şurasının sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!
Hörmətli İlham Heydər oğlu!
Doğum gününüz münasibətilə Sizi bütün atıcılar adından təbrik edirəm.
Bizim idman növünün inkişafına verdiyiniz diqqəti yüksək qiymətləndiririk. 2018-ci il yarışlarında Azərbaycan atıcılarının göstərdiyi nəticələr onların aşkar irəliləməsinə və 2020-ci ildə Tokioda keçiriləcək Olimpiya Oyunlarında iştirak etmək üçün lisenziyalar qazanmaqda yaxşı perspektivləri olduğuna dəlalət edir.
İcazə verin, Sizə gözəl respublikanızın durmadan irəliləməsi üçün zəruri olan cansağlığı, qüvvət və enerji diləyim.
*Hörmətlə,*

***Vladimir LİSİN,***
***Beynəlxalq İdman Atıcılığı Federasiyasının prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!
Doğum gününüz münasibətilə ən səmimi təbriklərimizi qəbul edin.
Siz müasir Azərbaycanın qurucususunuz. Bu gün Azərbaycan Sizin rəhbərliyinizlə dünyada daha layiqli və hörmətli yer tutur. Siz mədəniyyətin, elmin və təhsilin qorunub saxlanması və inkişaf etdirilməsi ilə bağlı nəzərdə tutulan planların həyata keçirilməsində böyük rol oynayırsınız.
Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, tükənməz nikbinlik, Rusiya və Azərbaycan xalqları arasında qırılmaz əlaqələrin daha da möhkəmlənməsi, müasir Azərbaycanın tərəqqisi naminə düşündüyünüz bütün möhtəşəm planların uğurla həyata keçirilməsi üçün quruculuq enerjisi diləyirik.
*Səmimi hörmətlə,*

***Sergey MİXAYLOV,***
***İTAR-TASS-ın baş direktoru,***

***Mixail QUSMAN,***
***İTAR-TASS-ın baş direktorunun birinci müavini***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!
Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm.
Siz görkəmli dövlət xadimi olaraq doğum gününüzü yaradıcı və mənəvi qüvvələrinizin çiçəkləndiyi dövrdə qarşılayırsınız. Sizin insanlar arasında sülhün və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə, cəmiyyətin mənəvi, sosial, mədəni və iqtisadi tərəqqisinə, elmə, təhsilə və səhiyyəyə töhfəniz həqiqətən heyranlıq doğurur.
Sizə uğurlar, cansağlığı və nəcib niyyətlərinizin həyata keçməsi üçün tükənməz enerji arzulayıram. Sizə və yaxınlarınıza, Sizin böyük ölkənizə xoşbəxtlik, əmin-amanlıq və firavanlıq diləyirəm.
*Hörmətlə,*

***Pyotr QLIBOÇKO,***
***İ.M.Seçenov adına Birinci Moskva Dövlət***
***Tibb Universitetinin rektoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!
Azərbaycan xalqının rifahı, xoşbəxt gələcəyi, torpaqlarımızın işğaldan azad olunması, vətənimizin bütövlüyü naminə apardığınız səmərəli müasir daxili və xarici siyasəti dəstəkləyir, Avropa-dünya məkanında təbliğ edirik.
Müstəqil Azərbaycan Respublikasının tərəqqisi və sivil ölkələr sırasında inkişaf etməsi üçün gördüyünüz işləri həmişə yüksək qiymətləndirmişik, bu gün də qiymətləndiririk.
Çex Respublikasının nüfuzlu ziyalılarını, elm xadimlərini, soydaşlarımız olan tələbələri, iş adamlarını öz tərkibində birləşdirən Çexiya-Azərbaycan Elm və Mədəniyyət Mərkəzi adından zati-aliləri, Sizi doğum gününüz, qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edir, Sizə ən xoş arzularımızı bildiririk.
Arzu edirik ki, həyatınızın hər anı Azərbaycan xalqının rifahı naminə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə yeni uğurlar gətirsin. Tanrı Sizi qorusun.
*Dərin hörmətlə,*

***Professor Azər KƏRİMOV,***
***Çexiya-Azərbaycan Elm və Mədəniyyət Mərkəzinin sədri,***
***professorlar İvan Meznik, Jirek Vanek, dosentlər***
***Frantisek Capka, Jiri Dusek, Jiri Podluski, Münasib Qurbanov, Tomas***
***Germak, Oldriç Sasinka və başqaları***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!
İcazə verin, Sizi həyatınızda əlamətdar hadisə - doğum gününüz münasibətilə Rusiya Müsəlmanları Ruhani Məclisi adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edim.
Siz respublikaya rəhbərlik edən gündən İslamın sülh, xeyirxahlıq və ədalət prinsiplərini əsas tutaraq, Azərbaycan xalqının rifahı naminə əzmlə çalışırsınız. Siz yorulmaq bilmədən işləyərək özünüzü Azərbaycanın taleyi üçün çox böyük məsuliyyət hiss edən müdrik, qətiyyətli, insanların qayğısına qalan dövlət xadimi kimi göstərə bilmisiniz.
Müasir Azərbaycan sosial-iqtisadi uğurun və millətlərarası sülhün nümunəsi olmaqla bərabər, həm də Sizin səyləriniz sayəsində öz qədim qaynaqlarına qayıdır və özünün əvvəlki tarixi möhtəşəmliyini dirçəldir.
Sizin şərəfli əməyinizə, səxavətli və həssas qəlbinizə görə minnətdarlıq və təşəkkür sözlərimi qəbul edin. Qoy ömrünüzün hər günü sülh, harmoniya və məhəbbətlə dolu olsun!
Sizə çətin işinizdə güc, gümrahlıq, enerji, müdriklik və səbir diləyirik. Allah Sizin bütün xeyirxah işlərinizi, səmimi dualarınızı və ibadətinizi qəbul etsin!
*Dərin hörmətlə və ömrünüzə dualarla,*

***Albir KRQANOV,***
***Rusiya Müsəlmanları Ruhani Məclisinin müftisi,***
***Rusiya Federasiyası İctimai Palatasının üzvü***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!
Doğum gününüz münasibətilə Sizi Beynəlxalq Rusdilli Vəkillər Assosiasiyası, Rusiya Vəkillər Gildiyası, Rusiya Vəkillik və Notariat Akademiyası adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.
Sizin bir vətənpərvər və vətəndaş kimi fəal həyat mövqeyiniz, dövlət əhəmiyyətli məsələləri qüsursuz yerinə yetirməyiniz vətənə layiqli xidmət nümunəsidir.
Azərbaycan xalqı Sizi dövlət başçısı vəzifəsinə seçməklə Sizə öz etimadını və ölkənin inkişaf etdirilməsi, cəmiyyətdə sabitlik və həmrəylik, xalqın firavanlığı və rifahının yüksəlməsi üzrə Sizin siyasətinizi hərtərəfli dəstəklədiyini nümayiş etdirib. Siz Heydər Əlirza oğlu Əliyevin Azərbaycan Respublikasında islahatçılıq yolunun layiqli davamçısısınız.
Sizin səmərəli rəhbərliyinizlə Azərbaycan genişmiqyaslı siyasi, iqtisadi islahatlar və dəyişikliklər, əhalinin sosial rifahının yüksəldilməsi yolunda inamla irəliləyir, aktual beynəlxalq və regional problemlərin həllində fəal iştirak edir.
Sizin müdrik siyasətiniz sayəsində Azərbaycan ilə Rusiya arasında iqtisadi, mədəni, siyasi əlaqələr gündən-günə genişlənir və möhkəmlənir. Mən Sizin həmvətəniniz kimi öz tarixi vətənimlə qürur duyur, onu əziz tuturam. Bakıda bir çox beynəlxalq tədbirlər keçirilməsi faktları da Azərbaycan Respublikasının nailiyyətlərinin beynəlxalq aləmdə tanınmasına dəlalət edir.
Bu gün Siz həyatınızın ən mühüm mərhələsindəsiniz - zəngin təcrübəniz müdriklik və həyat bilgisi ilə ahəngdar şəkildə əlaqələnir, çox iş görülüb, gələcək üçün çoxlu yeni planlar var.
Qoy enerji, gümrahlıq və mənəvi güc Sizin etibarlı tərəfdaşlarınız olsun! Sizə cansağlığı, uzun ömür, ali dövləti fəaliyyətinizdə uğurlar, Azərbaycan xalqının rifahı naminə yeni zəfərlər arzulayıram.
Sizə, yaxınlarınıza və bütün Azərbaycan xalqına sülh və firavanlıq diləyirəm.
*Hörmətlə,*

***Həsən MİRZƏYEV,***
***Beynəlxalq Rusdilli Vəkillər Assosiasiyasının prezidenti,***
***Rusiya Vəkillər Gildiyasının prezidenti, Rusiya Federasiyasının Əməkdar hüquqşünası,***
***hüquq elmləri doktoru, professor***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!
Avropa yəhudiləri icması adından Sizi doğum gününüz münasibətilə təbrik edirik.
Yəhudilərin inancına görə, doğum günü elə bir gündür Tanrı həmin gündə qərara gəlir ki, dünya Sizsiz mövcud ola bilməz.
Ölkəmizdə yaşayan bütün xalqlar kimi, biz - Azərbaycan yəhudiləri də respublikamızın yalnız Sizin müdrik rəhbərliyiniz sayəsində inkişaf və tərəqqi etdiyinin şahidiyik.
Biz böyük sevinc hissi ilə Sizə möhkəm cansağlığı, uzun ömür və hamımıza doğma olan Azərbaycanın rifahı naminə səmərəli fəaliyyət arzu edirik.
Tanrı Sizi qorusun!
*Dərin hörmətlə,*

***Aleksandr ŞAROVSKİ,***
***Avropa yəhudilərinin Bakı dini icmasının sədri,***

***Yevgeni BRENNEYSEN,***
***Avropa yəhudilərinin Bakı dini icması sədrinin müavini,***

***Şneor SEQAL,***
***Avropa yəhudilərinin Bakı dini icmasının baş ravvini***

❖ ❖ ❖

Zati-aliləri, cənab Prezident!
Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edir, Sizə cansağlığı, uzun ömür və ölkənizin, bütün dünyanın rifahı naminə məsul vəzifənizdə uğurlar diləyirik.
*Dərin hörmətlə,*

***II İLİYA,***
***Bütün Gürcüstanın Katolikos-patriarxı, Mtsxeta və Tbilisi***
***arxiyepiskopu, Pitsunda, Suxumi və Abxaziya mitropoliti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!
Özbəkistanda yaşayan azərbaycanlılar Sizi doğum gününüz münasibətilə səmimi qəlbdən təbrik edir. Sizin uzun illər apardığınız uğurlu daxili və xarici siyasət nəinki Azərbaycanın iqtisadi, mədəni, mənəvi inkişafında, eləcə də dünyada yaşayan azərbaycanlıların həyatında müsbət səmərə vermişdir. Özbəkistanda fəaliyyət göstərən diaspor təşkilatımız Azərbaycanla bağlı keçirdiyi tədbirlərə digər çoxsaylı xalqların nümayəndələrini dəvət edir və böyük məmnuniyyətlə tarixi vətənimizdə apardığınız islahatlar haqqında geniş məlumatlar verir.
Dünya birliyinin ən nüfuzlu təşkilatlarına məlumdur ki, Sizin həyata keçirdiyiniz siyasət sayəsində Azərbaycanımız beynəlxalq miqyasda sülhsevər, xalqına əmin-amanlıq gətirən ölkə kimi qəbul edilir. Siz Azərbaycanı onunla əməkdaşlıq etmək istəyən ölkələrə etibarlı dost və tərəfdaş kimi tanıtmısınız. Hətta MDB ölkələrinin bəzi rəhbərlərinin bunu açıq etiraf etməsi Sizə dərin hörmət və minnətdarlığın ifadəsidir.
Özbəkistanda yaşayan azərbaycanlılar Sizin rəhbərliyinizlə həyata keçirilən uğurlu islahatları rəğbətlə qarşılayır, Azərbaycanla nəfəs alır, diaspor təşkilatlarına göstərdiyiniz diqqəti hər zaman hiss edir.
Onu da xüsusi qeyd etmək istərdim ki, Diasporla İş üzrə Dövlət Komitəsi dünyadakı diaspor təşkilatlarımızla çoxsaylı görüşlər keçirir və bu da bizi çox sevindirir.
Möhtərəm cənab Prezident, icazə verin, Sizi əmin edək ki, bütün dünya azərbaycanlıları kimi, Özbəkistanda yaşayan diaspor üzvləri də Sizi və Sizin rəhbərliyinizlə Azərbaycanın beynəlxalq miqyasdakı mövqeyini birmənalı şəkildə dəstəkləyəcək.
Sizi bir daha səmimi-qəlbdən təbrik edir, Sizə cansağlığı, ailə səadəti, Azərbaycanın inkişafı, azərbaycanlıların rifahı naminə ali dövləti fəaliyyətinizdə uğurlar diləyirik.

***Firdovsi HÜSEYNOV,***
***Özbəkistandakı Respublika Azərbaycan***
***Milli Mədəniyyət Mərkəzinin sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!
Doğum gününüz münasibətilə Sizi Rusiya Federasiyasının Kursk vilayətində yaşayan həmvətənlərimiz adından və şəxsən öz adımdan təbrik edirəm.
Möhtərəm İlham Heydər oğlu, Siz dövlət başçısı vəzifəsində fəaliyyətinizə görə haqlı olaraq Azərbaycan xalqının hörmətini və beynəlxalq aləmdə yüksək nüfuz qazanmısınız. Sizin ideyalar ardıcıl olaraq həyata keçirilir, Azərbaycanın sosial-iqtisadi inkişafına şərait yaradır. Siz bizim ürəkdən sevdiyimiz Heydər Əliyevin işinin sədaqətli davamçısı kimi ölkəni xoşbəxt gələcəyə aparırsınız.
Sizə və yaxınlarınıza səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq və yeni uğurlar arzulayıram.
*Hörmətlə,*

***Qasım KƏRİMOV,***
***Rusiyanın Kursk vilayəti Azərbaycanlılar Liqasının rəhbəri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!
Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Sizə və bütün Azərbaycan xalqına möhkəm cansağlığı, işinizdə uğurlar və firavanlıq arzu edirəm.
Dağıstan Respublikasında Azərbaycanın on minə yaxın vətəndaşı müvəqqəti yaşayır və işləyir. Dağıstan rəhbərliyi Azərbaycan Respublikasının rəhbərliyi ilə mehriban qonşuluq münasibətlərini qoruyub saxlayır və fəal dəstəkləyir.
Biz, qonşu və qardaş Dağıstan Respublikasında müvəqqəti yaşayan Azərbaycan Respublikası vətəndaşları öz vətənimizlə fəxr edirik. Sizin seçdiyiniz siyasi fəaliyyət xətti həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda bizim vətəndaşların həyatının daim yaxşılaşdırılmasına yönəlib. Qonşu dövlətin vətəndaşlarından bizim vətənimiz və onun rəhbərliyi barədə ən xoş və səmimi sözlər eşitmək bizim üçün çox xoşdur, bu sözlər bizi daha sıx birləşdirir.
"Mahaçqala şəhəri azərbaycanlılarının yerli milli-mədəni muxtariyyəti" Dağıstan rəhbərliyinin dəstəyi ilə altı ildir ki, hər il Azərbaycanın dövlət və xalq bayramlarını, o cümlədən Novruz bayramını, Azərbaycan Respublikası Gününü, Azərbaycanın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin doğum gününü qeyd edir.
Mahaçqala şəhəri azərbaycanlılarının yerli milli-mədəni muxtariyyəti Azərbaycan vətəndaşlarının həyat fəaliyyətinin müxtəlif sahələrində, miqrasiya siyasəti məsələlərində onları dəstəkləyir, qonşu respublikanın ərazisində azərbaycanlıların rahat yaşamaları üçün onların milli mədəniyyətinin, ənənələrinin, adətlərinin qorunub saxlanmasına və inkişaf etdirilməsinə yönəlmiş tədbirlər keçirir.
Mahaçqala şəhəri azərbaycanlılarının yerli milli-mədəni muxtariyyəti iki qardaş respublikanın xalqları arasında millətlərarası və mədəni münasibətlərin inkişafına verdiyi böyük töhfəyə görə dəfələrlə Dağıstan rəhbərliyi tərəfindən fəxri fərmanlara və təşəkkürnamələrə layiq görülüb, 2018-ci il martın 21-də Novruz bayramına həsr edilmiş tədbirdə Dağıstan Respublikasının Milli Siyasət Nazirliyinin rəhbərliyi tərəfindən "Millətlərarası sülhün və həmrəyliyin möhkəmləndirilməsinə görə" Fəxri nişanı ilə təltif edilib.
Səmərəli işinizə görə Sizə dərin minnətdarlığımızı ifadə edirik. Biz bilirik ki, Sizin sayənizdə bizim ümumi evimiz, bənzərsiz və sevimli Azərbaycan daha da inkişaf edəcək və çiçəklənəcək.
*Hörmətlə,*

***Rakif ƏZİZOV,***
***Mahaçqala şəhəri Azərbaycanlılarının yerli milli-mədəni***
***muxtariyyətinin sədri, Dağıstan Respublikasının rəhbəri yanında millətlərarası münasibətlər şurasının üzvü***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!
Nobel Ailəsi Cəmiyyətinin tərəfdaşları adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə təbrik edirəm.
Son 15 ildə Azərbaycan Sizin müdrik rəhbərliyinizlə çox böyük nailiyyətlər əldə edib və həm regional, həm də beynəlxalq münasibətlər sistemində mühüm rol oynayan müasir, demokratik və güclü sivil dövlətə çevrilib. Azərbaycan Avropanın enerji təhlükəsizliyi sisteminin ayrılmaz bir hissəsi və dünyanın ən etibarlı enerji tədarükçülərindən biri hesab edilir.
İstər dünyada, istərsə də Azərbaycanda həyata keçirilən Nobel layihələrinə göstərdiyiniz davamlı və tükənməz dəstəyə görə Sizə çox minnətdarıq. Nobel qardaşlarının Azərbaycanda çox zəngin və böyük irsi vardır. Bu yaxınlarda Sizin böyük dəstəyinizlə "Emmanuel Nobel Neft Mükafatı"nın bərpa edilməsi ilə bağlı yeni layihənin həyata keçirilməsinə başladıq. Əminik ki, biz strateji tərəfdaşımız olan Azərbaycan Dövlət Neft Şirkəti - SOCAR ilə birlikdə bu unikal beynəlxalq layihəni reallaşdıracaq və Azərbaycanın Avrasiyanın sürətlə inkişaf edən uğurlu ölkəsi kimi müsbət imicini dünyada daha da möhkəmləndirəcəyik.
Cənab Prezident, Siz daim bizim yekdilliklə və səmimi-qəlbdən dəstəklədiyimiz əziz Prezidentimizsiniz. Sizə möhkəm cansağlığı, xoşbəxtlik və daha böyük nailiyyətlər, Azərbaycan xalqına isə əmin-amanlıq və tərəqqi arzu edirik.
Yaşasın möhtərəm cənab Prezidentimiz!
*Dərin hörmətlə,*

***Toğrul BAĞIROV,***
***Bakı Nobel İrsi Fondunun sədri,***
***BMT-nin qlobal enerji üzrə aparıcı eksperti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!
Doğum gününüz münasibətilə şirkətimizin hər bir əməkdaşı adından və şəxsən öz adımdan Sizi ürəkdən təbrik edirəm.
Sizə uzun ömür, möhkəm cansağlığı, sevinc və firavanlıq dolu həyat arzu edirəm. Azərbaycan Respublikasının rəhbəri olaraq həyata keçirdiyiniz uğurlu fəaliyyət, daxili və xarici siyasətdə əldə etdiyiniz misilsiz nailiyyətlər ölkənin hər bir vətəndaşı üçün fəxr mənbəyidir. Bu əlamətdar gündə Sizə və Sizin başçılığınız altında dövlətimizə yeni yüksəlişlər, yeni müvəffəqiyyətlər diləyirəm.
Bu xüsusi tarixin verdiyi fürsətdən istifadə edərək ali dövləti vəzifədə xalqın etimadını layiqincə doğrultduğunuza, ölkədə sahibkarlığa, sosial rifaha, iqtisadi tərəqqiyə verdiyiniz əvəzsiz töhfələrə görə Sizə dərin minnətdarlığımı bildirir, Sizin şəxsinizə böyük hörmət və ehtiramımı ifadə edirəm.
*Hörmətlə,*

***Mübariz MƏNSİMOV,***
***"PALMALİ" Şirkətlər Qrupunun prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!
Doğum gününüz münasibətilə 30 dövlətin işgüzar dairələrinə aid təşkilatları birləşdirən Beynəlxalq Sənayeçilər və Sahibkarlar Konqresi, Moldova Milli Sənayeçilər və Sahibkarlar Konqresi adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi qəbul edin.
Sizin üçün bu əlamətdar gündə Sizə səmimi-qəlbdən firavanlıq, əla əhvali-ruhiyyə və nikbinlik arzu edirik.
Siz öz insani və işgüzar keyfiyyətləriniz sayəsində haqlı olaraq Sizi tanıyan insanların hörmətini qazanmısınız. İşləriniz həmişə uğurlu olsun.
Sizə xoşbəxtlik, tükənməz yaradıcılıq qüvvəsi, möhkəm cansağlığı, firavanlıq, Azərbaycan xalqının rifahı və beynəlxalq birlik naminə çoxşaxəli fəaliyyətinizdə və təşəbbüslərinizdə yeni uğurlar arzulayırıq.
Qoy dostlarınızın və doğmalarınızın dəstəyi bütün maneələri aradan qaldırmaqda Sizə kömək etsin, hər yeni gün Sizə sevinc gətirsin!
*Dərin hörmətlə,*

***Vasili TARLEV,***
***Beynəlxalq Sənayeçilər və Sahibkarlar Konqresi Şurasının sədri,***
***Moldova Milli Sənayeçilər və Sahibkarlar Konqresinin prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!
Yaxşı Prezident olmaq hər kəsə nəsib olmur, lakin qüdrətli Azərbaycanın Sizin sarıdan bəxti çox gətirib. Öz işinin peşəkarı olmaq əsl istedad tələb edir. Biz, Rusiyada yaşayan bütün azərbaycanlılar Sizi doğum gününüz münasibətilə təbrik edirik. Həmişə bu cür diqqətli, həyatsevər, kreativ, nəzakətli, məqsədyönlü, bütün vəziyyətlərdə iki addım irəlini görməyi bacaran insan kimi qalmağınızı arzu edirik. Biz Sizə quruculuq uğurları, ailə səadəti və adi insan xoşbəxtliyi arzu edirik. Qoy şəxsi həyatınız Sizi işinizdə yeni zəfərlərə ruhlandırsın, işiniz isə Azərbaycanda rifaha və rahat güzərana stimul yaratsın!
Mən öz ölkəmlə və öz Prezidentimlə fəxr edirəm!
*Dərin hörmətlə,*

***Yaqub ZEYNALOV,***
***Kazan şəhərindən "Adalat Farm" MMC-nin baş direktoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!
Sizin sayənizdə Azərbaycan ilə Gürcüstan arasındakı siyasi, iqtisadi və mədəni münasibətlər elə bir həddə çatıb ki, bu, qonşu dövlət müstəvisindən çıxaraq iki dost dövlətin, iki qardaş xalqın rəmzinə çevrilib. Ulu öndərin apardığı uğurlu xarici siyasətin davamı kimi bu gün soydaşlarımıza göstərdiyiniz böyük diqqət və qayğı hər gün daha geniş vüsət almaqdadır. Biz inanırıq ki, bundan sonra da ümummilli liderin varisi olaraq bütün sahələrdə soydaşlarımıza məxsusi qayğı ilə yanaşacaq, iki dövlətin hərtərəfli inkişafında çəkdiyiniz zəhmətin bol-bol uğurlarının şahidi olacağıq. Əminlik hissi ilə deyə bilərəm ki, Azərbaycan Sizin rəhbərliyinizlə beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi yolunda qətiyyətlə irəliləyir və yaxın zamanda ərazi bütövlüyünə nail olacaqdır. Böyük siyasi xadim Heydər Əliyev uzaqgörənliklə Dünya Azərbaycanlılarının Həmrəylik Gününü yaratdığı kimi, möhtərəm İlham Əliyev də işğal olunmuş torpaqları azad edib yeni səhifə açacaq və Azərbaycanın bütövlüyü gününü bizlərə yaşadacaqdır.
Gürcüstanda yaşayan soydaşlarımız adından Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edir və ən xoş arzularımı çatdırıram. Qarşıdan gələn 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə də Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, bütün niyyət və istəklərinizin uğurla həyata keçməsini və xalqımıza firavanlıq diləyirəm.
*Hörmətlə,*

***Azər SÜLEYMANOV,***
***Gürcüstan parlamentinin deputatı***

# Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafında xidmətləri olan bir qrup şəxsin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafında xidmətləri olan aşağıdakı şəxslər təltif edilsinlər:

**1-ci dərəcəli "Əmək" ordeni ilə**

Hüseynov İsgəndər Rəşid oğlu
Nəbiyev Əlizamin Mirzəli oğlu
Şirəliyev Mübariz Məmmədəli oğlu
Vəliyev Fazil Adil oğlu

**2-ci dərəcəli "Əmək" ordeni ilə**

Abdullayev Fərman Muxtar oğlu
Aslanov Namiq Nəriman oğlu
Bağırova Ağgül Busad qızı
Cəfərov Sahib Calal oğlu
Dadaşov İlqar Fariq oğlu
Məlikov Soltanpaşa Əziz oğlu
Məmmədov Əhmədağa Astan oğlu
Mustafayev Əlövsət Əmir oğlu
Nərimanov Elman Əkbər oğlu
Orucov Babək Nəcəfqulu oğlu
Orucov Valeh Qəşəm oğlu
Vəliyev Bəydabə Eldar oğlu

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Abdullayev Tahar Vəzir oğlu
Cumayev İmran Ələkbər oğlu
Əzimov Sadıx Bəhlul oğlu
Hüseynov Taleh Nurəddin oğlu
Quliyev Elxan Piri oğlu
Məmmədov Fərhad Əli oğlu
Məmmədov Məmmədxan Saleh oğlu
Yusifov Anar Müzəffər oğlu

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2018-ci il*

# Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin bəyanatı

Son zamanlar sosial şəbəkələrdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın adından saxta hesabların yaradılması, fotoşəkillərini paylaşaraq ona aid olmayan fikir, sitat və ölkə vətəndaşlarına müraciətlərin yayımlanması geniş yer alıb. Bu cür yalan yazıların artmasını nəzərə alaraq, onların yayılmasının qarşısını almaq məqsədilə Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyi bəyan edir ki, xanım Mehriban Əliyeva heç bir sosial şəbəkə istifadəçisi deyil və onun bütün müraciət və bəyanatları auditoriyaya yalnız rəsmi KİV vasitəsilə çatdırılır.

Media və sosial şəbəkələrdə ölkənin Birinci vitse-prezidenti adından dövlətimiz üçün mühüm əhəmiyyət kəsb edən məsələlərə, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair saxta açıqlamaların verilməsi çaşqınlıq doğurur. Azərbaycanın Birinci vitse-prezidentinin fəaliyyətinə dair dolğun, rəsmi və doğru informasiyaya sərbəst çıxış mövcud olduğu halda, həqiqətə uyğun olmayan məlumatların istifadəsi və paylaşılması yolverilməzdir.

Təkidlə hər kəsi məsuliyyətli olmağa və yoxlanılmamış, saxta və təxribat xarakterli məlumatları yaymaqdan çəkinməyə çağırırıq.

# Milli Məclisin nümayəndə heyəti İran Prezidenti Həsən Ruhani ilə görüşüb



Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti İranda səfərdədir.

AZƏRTAC xəbər verir ki, dekabrın 25-də nümayəndə heyəti İran Prezidenti Həsən Ruhani ilə görüşüb.

Milli Məclisin Sədri Oqtay Əsədov Azərbaycan Prezidenti İlham Əliyevin səmimi salamlarını İran Prezidenti Həsən Ruhaniyə çatdırıb.

Görüşdə ölkələrimiz arasındakı münasibətlərin mövcud vəziyyəti və perspektivləri müzakirə olunub. Qeyd edilib ki, İran ilə Azərbaycan arasındakı münasibətlər tarixi köklərə və ənənələrə söykənir. Xalqlarımızın tarixdə yaratdıqları dövlətlər də bir-biri ilə dost münasibətdə, xoş qonşuluq əlaqələrində olublar. Sevindirici haldır ki, əsrlərboyu mövcud olan yaxşı münasibətlər bu gün də davam edir. Bu gün ölkələrimiz arasında müxtəlif istiqamətlər üzrə qarşılıqlı əlaqələr inkişaf mərhələsini yaşayır.

Oqtay Əsədov bildirib ki, Azərbaycan və İran prezidentləri arasında 12 dəfə görüş baş tutub. Bu rəqəm özlüyündə münasibətlərimizin çatdığı yüksək səviyyənin göstəricisidir. Azərbaycan ilə İran arasında 2014-cü ildə imzalanmış dostluq və əməkdaşlıq haqqında Birgə Bəyannamə münasibətlərimizin inkişafına xüsusi töhfə verib. Azərbaycan, İran və Rusiya prezidentlərinin 2016-cı ildə Bakıda və 2017-ci ildə Tehranda üçtərəfli görüşləri regionda sabitliyin davamlı olmasında əhəmiyyətli rol oynayıb.

Diqqətə çatdırılıb ki, bu gün qarşılıqlı əlaqələrimiz bütün sahələr üzrə uğurla inkişaf edir. İki ölkə arasında 186 hüquqi sənəd imzalanıb, daha 9 sənəd üzərində iş aparılır. Ötən il ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 257,7 milyon, cari ildə isə 395 milyon ABŞ dolları həcminə yüksəlib. Ölkələrimizin iqtisadi potensialı ticarət dövriyyəsinin daha da artmasına imkan verir və bu potensialdan səmərəli istifadə etmək lazımdır. Son 5 ildə Azərbaycanın və İranın müxtəlif şəhərlərində hər iki ölkənin iş adamlarının iştirakı ilə 24 biznes forum keçirilib. Bu gün Azərbaycanda 732 İran şirkəti qeydiyyatdan keçib və fəaliyyət göstərir. Bildirilib ki, ölkələrimiz arasında qarşılıqlı investisiya qoyuluşunun həcmi artmaqda davam edir. Bugünə qədər İrandan Azərbaycana təxminən 3,3 milyard ABŞ dolları həcmində investisiya yatırılıb.

Spiker qeyd edib ki, ikitərəfli əlaqələrin inkişafında parlamentlərin də özünəməxsus rolu var. Hər iki parlamentdə yaradılan işçi qrupları intensiv görüşlər keçirərək əlaqələrin inkişafı haqqında müzakirələr aparırlar. Qanunverici orqanlar arasındakı əməkdaşlıqda dinamika hiss olunur. Tərəfləri maraqlandıran məsələlər ətrafında aparılan fikir mübadiləsi qanunverici orqanlarımızı bir-birinə daha da yaxınlaşdırır.

Oqtay Əsədov bildirib ki, Azərbaycan ilə İran beynəlxalq təşkilatlar çərçivəsində də yaxından əməkdaşlıq edirlər. İranın beynəlxalq təşkilatlar çərçivəsində aparılan müzakirələrdə Azərbaycanın ərazi bütövlüyü və suverenliyini dəstəklədiyinə görə təşəkkürünü bildirən Azərbaycan parlamentinin sədri iki dövlət arasındakı xoş münasibətlərin gələcəkdə də davam etməsini arzulayıb.

İran İslam Respublikasının Prezidenti Həsən Ruhani Azərbaycandan gələnlərin İranda həmişə əziz qonaq olduqlarını diqqətə çatdırıb. Qeyd olunub ki, İran ilə Azərbaycan beynəlxalq iqtisadi layihələrin həyata keçməsində də birgə fəaliyyət göstərirlər. Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi hər iki ölkənin iqtisadi inkişafına böyük təkan verəcək. Həsən Ruhani bu işdə mühüm addımlar atan Azərbaycan Prezidentinin fəaliyyətini yüksək qiymətləndirib. Diqqətə çatdırılıb ki, bu dəhliz tam formalaşdıqdan sonra Azərbaycan Fars körfəzinə, İran isə Rusiya və Avropa dövlətlərinə çıxış əldə edəcək. Artıq İran ilə Azərbaycanın dəmir yollarını birləşdirən Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu istifadəyə verilib. Qəzvin-Rəşt-Astara yolunun Rəşt-Astara hissəsində isə işlər davam edir. Hər iki dövlətin birgə iqtisadi layihəsi olan Neftçala avtomobil zavodu da artıq işə düşüb və istehsal başlayıb. Bu layihələr xalqlarımızın mənafeyi nəzərə alınmaqla həyata keçirilib. İran hər zaman yaxın qonşuları ilə əlaqələrinin inkişafına xüsusi əhəmiyyət verir. Azərbaycan ilə İranı ortaq tarixi bağlar, mədəniyyət, din və xalqlarımızın adət-ənənələri sıx bağlayır.

Prezident Həsən Ruhani səmimi salamlarının Azərbaycan Prezidenti İlham Əliyevə catdırılmasını xahiş edib.

Qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsinin aparıldığı görüşdə Milli Məclisin deputatları İsa Həbibbəyli, Hadi Rəcəbli, Şəmsəddin Hacıyev, Hüseynbala Mirələmov, Eldar İbrahimov, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Azərbaycanın İrandakı səfiri Bünyad Hüseynov və başqa rəsmi şəxslər iştirak ediblər.

# Azərbaycan-İran parlamentlərarası əlaqələri müzakirə olunub





Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədovun rəhbərliyi ilə İranda səfərdə olan parlament nümayəndə heyəti dekabrın 25-də İran İslam Şurası Məclisinin (parlament) sədri Əli Laricani ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə ikitərəfli münasibətlər, parlamentlərarası əlaqələr, işçi qruplarının fəaliyyəti və qanunvericilik sahəsində təcrübə mübadiləsi məsələləri müzakirə edilib.

Milli Məclisin Sədri Oqtay Əsədov diqqətə çatdırıb ki, Azərbaycan ilə İranı bir-birinə bağlayan coğrafiya, tarixi, mədəni və dini ortaq dəyərlərimiz var. Bu dəyərlər münasibətlərimizin qarşılıqlı anlaşma üzərində qurulmasına şərait yaradır. Bu gün əməkdaşlığımız müxtəlif istiqamətlər üzrə uğurla inkişaf edir. Əlaqələrimizin inkişafında yüksək səviyyəli səfərlər və görüşlər xüsusi rol oynayır. Heç şübhəsiz ki, ikitərəfli münasibətlərin inkişafında dövlət başçılarının rolu və siyasi iradəsi mühüm əhəmiyyət kəsb edir. Son illərə nəzər salsaq görərik ki, qısa müddət ərzində hər iki ölkənin prezidenti qarşılıqlı səfərlər edib, eyni zamanda, beynəlxalq tədbirlər çərçivəsində dəfələrlə görüşüb, ikitərəfli əlaqələrin inkişafına dair geniş fikir mübadiləsi aparıblar.

Spiker deyib ki, Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanması tərəflər arasında xoş münasibətlərin olduğunu göstərir. Bu konvensiya həm ikitərəfli, həm də çoxtərəfli iqtisadi əlaqələrin inkişafına böyük təkan verəcək. Son illər hökumət nümayəndələri arasında da qarşılıqlı səfərlərin sayı artıb. Məhz bu səfərlərin və aparılan danışıqların nəticəsidir ki, iki qonşu dövlət arasında münasibətlər inkişaf mərhələsinə qədəm qoyub.

Azərbaycan-İran hökumətlərarası müştərək iqtisadi komissiyasının işini yüksək qiymətləndirən Milli Məclisin Sədri bildirib ki, birgə layihələrin həyata keçirilməsi məhz bu komissiyanın işinin nəticəsidir. Bu qəbildən Neftçala avtomobil zavodunu qeyd etmək yerinə düşər. Eyni zamanda, Bakı şəhərinin ətrafında əczaçılıq fabrikinin də əsası qoyulub və işlər davam edir.



Vurğulanıb ki, cari ildə parlament nümayəndələrindən başqa İranın xarici işlər, müdafiə, rabitə və informasiya texnologiyaları, milli təhlükəsizlik nazirləri, sərhəd qoşunlarının komandanı, Prezident Administrasiyasının rəhbəri müxtəlif vaxtlarda Azərbaycana səfər ediblər. Bu səfərlər zamanı qarşılıqlı əlaqələrin inkişafı müzakirə olunub və bir sıra razılaşmalar əldə edilib. İki dost ölkə arasında belə yüksək səviyyəli səfərlərin sayının artması sevindirici haldır. Azərbaycan parlamentinin nümayəndə heyətinin bugünkü səfəri də əlaqələrimizin inkişaf meylinin davamıdır. Qeyd olunub ki, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin formalaşmasında İran ilə Azərbaycan əhəmiyyətli rol oynayırlar. Bu, beynəlxalq transmilli iqtisadi layihədir və bundan çox ölkə istifadə edəcək.

Parlamentlərarası işçi qruplarının fəaliyyətini yüksək qiymətləndirən Oqtay Əsədov bildirib ki, qanunverici orqanların təcrübə mübadiləsi də faydalıdır. Parlamentlərarası əlaqələr xalqların mədəni münasibətlərinin inkişafına da böyük təkan verir.

Oqtay Əsədov İran parlamentinin Sədri Əli Laricanini Azərbaycana rəsmi səfərə dəvət edib.

İran İslam Şurası Məclisinin Sədri Əli Laricani ölkəsinin Azərbaycan ilə bütün sahələr üzrə əlaqələrini inkişaf etdirməkdə maraqlı olduğunu vurğulayıb. İki ölkə arasında qarşılıqlı və faydalı əməkdaşlıqda heç bir problem yoxdur. Dövlət başçılarının dostluq əlaqələri ölkələrimizin münasibətlərinə də təsir göstərir. Bu baxımdan Azərbaycan və İran prezidentlərinin dostluğu çox müsbət xarakter daşıyır.

İran parlamentinin sədri qeyd edib ki, qarşılıqlı ticarət dövriyyəsinin həcmini 2-3 milyard ABŞ dolları həcminə çatdırmaq mümkündür. Buna hər iki dövlətin iqtisadi potensialı imkan verir.

Regional təhlükəsizlik məsələsinə toxunan Əli Laricani deyib ki, terrorçuluq dünyada qlobal problemə çevrilib. Beynəlxalq terrorçuluğa qarşı mübarizədə səylərin birləşdirilməsi regionda sülhün və sabitliyin davamlı olmasını təmin edər.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparıblar.

Görüşdə Milli Məclisin deputatları İsa Həbibbəyli, Eldar İbrahimov, Hüseynbala Mirələmov, Şəmsəddin Hacıyev, Hadi Rəcəbli, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Azərbaycanın İrandakı səfiri Bünyad Hüseynov və digər rəsmi şəxslər iştirak ediblər.

Sonra Oqtay Əsədov və Əli Laricani mətbuat nümayəndələrinin suallarını cavablandırıblar.

* * *

Həmin gün Milli Məclisin Sədri Oqtay Əsədov İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif və Milli Təhlükəsizlik Şurasının sədri Əli Şamxani ilə də görüşüb.

Görüşlərdə regional təhlükəsizlik, terrorçuluğa qarşı birgə mübarizə, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

# Sumqayıtda "Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər" mövzusunda regional konfrans işə başlayıb

Dekabrın 25-də Sumqayıtda "Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər" mövzusunda regional konfrans öz işinə başlayıb. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Sumqayıt Şəhər İcra Hakimiyyətinin birgə təşkil etdiyi konfransda bu qurumların rəhbər şəxsləri, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri, Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı, dini icma sədrləri, din xadimləri, ilahiyyatçılar, həmçinin ictimaiyyət fəalları iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Sumqayıtdakı Heydər Əliyev Mərkəzində keçirilən regional konfransı şəhər icra hakimiyyəti başçısının birinci müavini Teymur Səmədov açıb. Bildirib ki, ümummilli lider Heydər Əliyevin diqqət yetirdiyi sahələrdən biri də xalqımızın milli-mənəvi dəyərlərə qayıdışının sürətlənməsi, eyni zamanda, dini bayramların dövlət səviyyəsində qeyd olunması idi. Bu siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edən natiq ölkəmizdə dövlət quruculuğu prosesləri və dövlət-din münasibətlərinin tənzimlənməsi, cəmiyyətdə ictimai-siyasi sabitliyin bərqərar olunması istiqamətində mühüm addımların atıldığını deyib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında milli-mənəvi dəyərlərimizin təbliği, tolerant və multikultural prinsiplərin təşviqi, dini maarifçilik işinin aparılması və dini radikalizmlə mübarizə sahəsində görülən işlərdən danışıb.

Qeyd olunub ki, ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunması, konfessiyalar arasında dözümlülük mühitinin qorunub saxlanılması ümummilli liderin adı ilə bağlıdır. Ulu öndərin dövlət-din münasibətləri sahəsində qoyduğu bu nümunəvi siyasətin onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycandakı dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir. Dövlət başçısının sərəncamları ilə son illər tarixi dini abidələr, ziyarətgahlar bərpa edilir, milli-mənəvi dəyərlərə verilən yüksək qiymətin göstəricisi olaraq silsilə tədbirlər keçirilir. Dövlət Komitəsinin sədri Mənəvi Dəyərlərin Təbliği Fondunun və Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasını bu diqqət və qayğının parlaq nümunəsi kimi səciyyələndirib. Mübariz Qurbanlı bu istiqamətdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təqdirəlayiq fəaliyyəti haqqında da danışıb. Ölkəmizdəki məscidlərdə, kilsələrdə, sinaqoqlarda aparılan təmir-bərpa işlərini dövlət-din münasibətlərinin ən yüksək məcrada davam etməsinin təzahürü kimi qiymətləndirib.

Ölkəmizdə dövlət-din münasibətlərinin zəngin milli-tarixi ənənəyə əsaslandığını deyən komitə sədri dövlətimizin din siyasətinin əsas məqsədinin ölkədə dini durumun müsbət inkişafı üçün əlverişli şəraitin yaradılmasından, həmçinin cəmiyyətdaxili sabitliyin möhkəmləndirilməsindən ibarət olduğunu diqqətə çatdırıb.

Mübariz Qurbanlı vurğulayıb ki, hazırda respublikada dini durum sabitdir, ölkədəki dini tolerantlığın səviyyəsi yüksəkdir. Bu istiqamətdə aparılan maarifləndirmə tədbirlərinin əhəmiyyətinə toxunan natiq milli-mənəvi dəyərlərin cəmiyyətə, xüsusilə gənc nəslə aşılanmasının vacibliyini vurğulayıb.

Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Rauf Sərdarov dinə dövlət qayğısından bəhs edib. Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində bölgənin məscidlərinin əsaslı təmir edildiyini, burada dindarların ibadəti üçün lazımi şəraitin yaradıldığını vurğulayan qazı bütün bunlara görə ölkə rəhbərliyinə dindarlar adından minnətdarlığını bildirib.

Dövlət-din münasibətləri sahəsindəki siyasətin əsas istiqamətləri, multikultural dəyərlərin qorunması, eyni zamanda, tolerantlıq mühitinə, milli-mənəvi dəyərlərə bağlılığın gücləndirilməsi mövzularının müzakirə olunduğu konfrans işini dekabrın 26-da "Dini radikalizmlə mübarizə və maarifləndirmə" mövzusunda panellə davam etdirəcək.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Sumqayıtda vətəndaşları qəbul edib

Dekabrın 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Sumqayıtda vətəndaşları qəbul edib.

Qəbulda Sumqayıt şəhəri ilə yanaşı, Abşeron, Xızı, Qubadlı və Zəngilan rayonlarının sakinləri də iştirak edib.

Heydər Əliyev Mərkəzində keçirilən qəbula gələn vətəndaşlar əsasən məscidlərin təmiri, dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması məsələlərini qaldırıblar. Eyni zamanda, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciətlərə də baxılıb.

Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan bir sıra məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

***AZƏRTAC***

# Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının növbəti iclası keçirilib



Ölkə üzrə Naxçıvan Muxtar Respublikası daxil olmaqla 2018-ci ilin 11 ayı ərzində Əmək Müqavilələri Bildirişi Elektron İnformasiya Sistemində əmək müqavilələrinin sayında 92 min 750 artım müşahidə olunub. İlin sonunadək bu rəqəmin yüz mindən çox olması gözlənilir.

AZƏRTAC xəbər verir ki, bu barədə dekabrın 25-də Nazirlər Kabinetində keçirilən Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının altıncı iclasında Baş nazirin müavini, komissiyanın sədri Əli Əhmədov deyib. İclasda 2018-ci ildə reallaşdırılan tədbirlər, əldə edilən nəticələr və qarşıda duran vəzifələr müzakirə edilib.

Əli Əhmədov bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə qeyri-rəsmi məşğulluqla mübarizə bundan sonra da qətiyyətlə davam etdiriləcək. Komissiyanın səmərəli fəaliyyəti nəticəsində ölkə üzrə əmək müqavilələri bildirişlərinin və fiziki şəxs olan aktiv fərdi sahibkarların sayında əhəmiyyətli artım müşahidə edilib. Ümumilikdə komissiyaya üzv olan aidiyyəti qurumların fəaliyyəti nəticəsində və yerlərdə məşğulluğa kömək göstərən əlaqələndirmə komitələrinin dəstəyi ilə cari ildə qeyri-formal məşğul əhalinin sayında əhəmiyyətli azalma müşahidə olunub. Cari ilin 9 ayında, həmçinin fiziki şəxs olan fərdi sahibkarların da sayında artım olub. Belə ki, ilin əvvəlindən fərdi sahibkarların sayı 23 min 63 artaraq 351 min 607 təşkil edib. İlin sonuna qədər bu rəqəmin bir qədər də artması ehtimal olunur.

Sonda aidiyyəti üzrə tapşırıqlar verilib.

# Azərbaycan Dillər Universitetində akademik Ramiz Mehdiyevin kitabının təqdimatı olub






Dekabrın 25-də Azərbaycan Dillər Universitetində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin rus dilində işıq üzü görmüş "Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi. XVII əsr-XVIII əsrin ilk dörddəbiri" kitabının təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, təqdimatda universitetin rəhbərliyi, professor-müəllim heyəti, AMEA-nın institutlarının əməkdaşları iştirak ediblər.

Tədbiri açan ADU-nun rektoru akademik Kamal Abdulla bildirib ki, akademik Ramiz Mehdiyevin on illərlə apardığı tədqiqatlarının çox məntiqli davamı olan bu kitab elmimiz, cəmiyyətimiz üçün çox aktual olan bir mövzuya həsr edilib. Qeyd edib ki, akademikin Azərbaycanın tarixi, mədəniyyəti, bugünü və gələcəyi ilə bağlı düşüncələrini, ideyalarını əks etdirən tədqiqatlarını konseptual şəkildə götürsək, bu mənada onun əsərlərini azərbaycançılıq adlandırmaq olar.

Akademik Ramiz Mehdiyevin onlarla bu cür əsərinin olduğunu vurğulayan K.Abdulla bunların hamısının bir sistem kimi bütövlükdə azərbaycançılığın, dövlətçiliyin fəlsəfəsinə həsr edildiyini deyib: "Bu əsərlər göstərir ki, bugünkü dövlətçiliyimiz qarşısında duran problemləri, onun fəlsəfəsini dərindən dərk edən bir filosof kimi Ramiz müəllim Azərbaycanın gələcəyinin qurulması ilə bağlı dövlət təcrübəsindən istifadə edən son dərəcə müdrik dövlət xadimidir. Onun bu gün dövlət xadimi kimi formalaşmasının ən əsas xüsusiyyətlərindən biri də on illərlə ulu öndər Heydər Əliyevin yaxın silahdaşı kimi fəaliyyət göstərməsidir. Ramiz müəllim bir filosof, alim, dövlət xadimi kimi Azərbaycan dövlətçiliyinin inkişaf etdirilməsində bu gün də çalışır, elmi, fəlsəfi fəaliyyətini davam etdirir. Azərbaycanşünaslıq problemləri istər qədim dövrdə, istər XVI əsrdə, istərsə də bu gün Azərbaycan və onun ətrafındakı dövlətlərin münasibətinin öyrənilməsində aktuallıq kəsb edir ki, bu baxımdan akademik Ramiz Mehdiyevin erməni dövlətinin, dininin, cəmiyyətinin formalaşması ilə bağlı fikirləri son dərəcə maraqlıdır və azərbaycanşünaslıq istiqamətində aparılan araşdırmalara işıq saçan bir tədqiqatdır. Əsər Qriqorian kilsəsinin Səfəvi dövlətinə qarşı apardığı casusluq, dağıdıcılıq işlərinin aşkar edilməsi istiqamətində elmi, ictimai və dövlətçilik baxımdan son dərəcə qiymətlidir".

Rektor müəllifin göstərdiyi xidmətin ən böyük məzmununun bu gün gənc nəslin bu kitablardan əsl Azərbaycan tarixini öyrənəcəklərindən ibarət olduğunu qeyd edib: "Onlar Ermənistan-Azərbaycan münasibətlərinin təkcə bu günü ilə deyil, həmçinin dünəni ilə də tanış olacaqlar. Bu günün nəticələrini dünənki günlə əlaqələndirərək gələcəyimiz üçün müəyyən nəticələr çıxaracaqlar".

Tədbirdə çıxış edən ADU-nun azərbaycanşünaslıq elmi-tədqiqat laboratoriyasının professorları Solmaz Rüstəmova-Tohidi, Niyazi Mehdi, "Rusiyaşünaslıq mərkəzi" elmi-tədqiqat laboratoriyasının müdiri, professor Məmməd Əliyev və başqaları akademik Ramiz Mehdiyevin mötəbər elmi-tarixi mənbələr əsasında yazdığı yeni əsərinin çox maraqlı və aktual mövzuya həsr olunduğunu bildiriblər. Çıxışlarda qeyd edilib ki, bu əsərdə Qriqorian kilsəsinin Səfəvilər dövlətinə qarşı apardığı pozucu kəşfiyyat və siyasi-ideoloji fəaliyyət geniş işıqlandırılır. Əsər, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin obyektiv araşdırılması üçün böyük əhəmiyyət kəsb edir.

Sonra kitabla bağlı müzakirələr aparılıb.

# Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə ardıcıl tədbirlər davam etdirilir





Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş məhkəmə-hüquq islahatları Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilərək məhkəmə sistemi müasirləşdirilir, qanunvericilik təkmilləşdirilir, məhkəmə hakimiyyətinin müstəqilliyi gücləndirilir və özünüidarə səlahiyyətləri ilbəil genişləndirilir.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Prezidentinin dekabrın 21-də imzaladığı sərəncamlarla 200-dən çox hakim barədə müvafiq təyinatlar aparılaraq hakim korpusu yeni nəsil hüquqşünaslarla möhkəmləndirilib. Mövcud vakansiyaların tam əksəriyyəti komplektləşdirilməklə hakimlərin iş yükü xeyli azaldılıb, işlərə daha keyfiyyətlə və vaxtında baxılmasına şərait yaranıb.

Dekabrın 25-də ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov Bakı və Sumqayıt apelyasiya məhkəmələrinin yeni təyin edilmiş sədr müavinləri və kollegiya sədrlərinin, bu məhkəmələrin yurisdiksiyasına daxil olan və digər birinci instansiya məhkəmələri sədrlərinin, habelə Ədliyyə Nazirliyinin və Məhkəmə-Hüquq Şurasının aidiyyəti məsul işçilərinin iştirakı ilə geniş müşavirə keçirib.

Müşavirədə çıxış edən nazir Prezident İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə respublikamızın hərtərəfli sürətli tərəqqisini və əldə olunan yüksək nailiyyətləri qeyd edib, məhkəmə-hüquq islahatlarından və yeniliklərdən danışıb, bu ərəfədə dövlət başçısının Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin yeni inzibati binasının açılışını etməsinin məhkəmə hakimiyyətinə verilən böyük önəmin növbəti təzahürü olduğunu vurğulayıb.

Müşavirədə, həmçinin son illər ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə görülən məqsədyönlü tədbirlər diqqətə çatdırılıb, məhkəmə fəaliyyətində mövcud problemlər, yol verilən nöqsanlar və onları doğuran səbəblər, bununla əlaqədar qarşıda duran vəzifələr müzakirə olunub.

Eyni zamanda, dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq məhkəmə qərarlarının ədalətliliyinin təmin olunması, məhkəmələrdə şəffaflığın artırılması, korrupsiyanın yolverilməzliyi vurğulanıb, ötən dövrdə Məhkəmə-Hüquq Şurası tərəfindən hakimlərin fəaliyyətinin prinsipial qiymətləndirildiyi qeyd olunub. Bildirilib ki, kobud qanun pozuntularına yol verdiklərinə görə 120-dən çox hakim məhkəmə sistemindən kənarlaşdırılıb, korrupsiya hüquqpozmalarına görə 34 hakim intizam məsuliyyətinə cəlb edilib, o cümlədən onlardan 8 nəfərinin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilib, 11 nəfər aşağı vəzifəyə keçirilib və ya iş yeri dəyişdirilib.

Müşavirədə hakimlər tərəfindən bəzi hallarda süründürməçilik və digər nöqsanlara yol verilməsi, Hakimlərin Etik Davranış Kodeksinin tələblərinə etinasız yanaşılaraq vətəndaşlarla kobud rəftar edilməsi qeyd olunub, belə halların insanların haqlı narazılığına səbəb olduğu bildirilib. Bunların aradan qaldırılması ilə bağlı qarşıda duran vəzifələr, o cümlədən etik davranış qaydalarına dönmədən əməl edilməsi, qeyri-prosessual münasibətlərin qarşısının alınması, antikorrupsiya mədəniyyətinin yüksəldilməsi diqqətə çatdırılıb, apelyasiya məhkəmələrinin prinsipiallığı artırmasının, qanun pozuntularına ciddi reaksiya verilməsinin, neqativ hallara qarşı barışmaz münasibət göstərilməsinin vacibliyi vurğulanıb.

# Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində il ərzində görülmüş işlər müzakirə olunub



Dekabrın 25-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində 2018-ci ilin yekunlarına və 2019-cu ilin birinci yarısında həyata keçirilməsi nəzərdə tutulan tədbirlərə həsr olunmuş kollegiya iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın Dövlət himni səsləndirilib.

İclasda çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova cari ilin Azərbaycan üçün əlamətdar hadisələrlə zəngin olduğunu, bütün sahələrdə dinamik inkişafın təmin edildiyini bildirib.

Komitə sədri son 15 ildə ölkəmizin böyük uğurlara imza atdığını vurğulayaraq bildirib ki, dövlət başçısı İlham Əliyev ötən müddət ərzində öz fəaliyyəti ilə hər bir azərbaycanlının Prezidenti olduğunu sübuta yetirib. Bu müddət ərzində ümummilli lider Heydər Əliyevin ideyaları daha da inkişaf etdirilib, uğurlu daxili və xarici siyasət həyata keçirilib.

Cari il ərzində görülən işlərdən danışan H.Hüseynova bildirib ki, il ərzində komitə tərəfindən 112 tədbir təşkil olunub, müxtəlif araşdırma və təhlillər aparılıb, qurumun əməkdaşları bir sıra beynəlxalq konfranslarda, forumlarda, təlimlərdə iştirak ediblər.

Bu il Azərbaycanda qadınlara seçki hüququnun verilməsinin 100 illiyinin də qeyd edildiyini söyləyən komitə sədri bildirib ki, Azərbaycan müsəlman Şərqində qadınlara seçmək və seçilmək hüququ verən ilk ölkədir. Cari ildə bu əlamətdar hadisə ilə bağlı silsilə tədbirlər də təşkil olunub. Vurğulanıb ki, qadın sahibkarlığının inkişafı ilə bağlı bir sıra mühüm addımlar atılıb, memorandumlar imzalanıb. Sentyabrda Bakıda IX Azərbaycan-Rusiya Regionlararası Forumu çərçivəsində "Qadın sahibkarlığının inkişafında ikitərəfli əməkdaşlığın perspektivləri" mövzusunda xüsusi sessiya keçirilib. Bu tədbirin sonunda əməkdaşlıq haqqında memorandum imzalanıb. Həmin sənədin əsas məqsədi regionlararası qadın sahibkarlığının inkişafı, ikitərəfli işbirliyinin qurulması idi. Oktyabrda isə Rusiyanın Həştərxan vilayətində "Həştərxan-Azərbaycan: Qadın sahibkarlığı" biznes forumu keçirilib. "Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən qadınlar üçün imkanlar yaradıldıqda müsbət nəticələrə nail olmaq mümkündür. Bu gün fəaliyyət göstərən Qadın Resurs mərkəzləri, eyni zamanda, Uşaq və Ailələrə Dəstək mərkəzləri buna əyani misaldır. Bu il həmin Resurs mərkəzlərinin sayı 8-ə çatıb. İl ərzində mərkəzlərin fəaliyyətindən 20 748 vətəndaş bəhrələnib.

Bu gün Azərbaycanda qızlar üçün heç bir qapalı peşənin olmadığını diqqətə çatdıran komitə sədri bildirib ki, texniki, innovativ, neft sənayesi və digər sahələrdə qızların sayı artmaqdadır. Statistik rəqəmlər göstərir ki, qadınların 30 faizi dövlət, 70 faizə qədəri isə özəl sektorda işləyir.

"Ailələrin sosial rifahını yüksəltmək üçün hökumət mütəmadi zəruri tədbirlər həyata keçirir. İldən-ilə ailələrimizin sosial müdafiəsi güclənir, müxtəlif layihələr reallaşdırılır. Bunun nəticəsində son 20 il ərzində əhalimizin sayı artaraq doqquz milyon doqquz yüz mini ötüb. Bu gün Azərbaycanda 2 milyon yüz mindən çox ailə var. Ailə üzvləri arasında ünsiyyətin güclənməsi üçün "Ailəlikcə kitabxanaya" layihəsi keçirilir. Bu, həm uşaqlarımızın kitaba, mütaliəyə marağını artırır, həm də ailə üzvlərini bir-birinə daha da mehriban edir.

Bizim maraqlı və uzunömürlü layihələrimizdən biri də "Ailə bayramı" və "Azərbaycan ailəsi" adlı filmlər festivalıdır. Bu il layihələrin 10 ili tamam olur. Festivalın əsas məqsədi kinematoqrafiyanın geniş imkanlarından istifadə edərək ailə dəyərlərinin, milli-mənəvi dəyərləri gənclər arasında təbliğ etməkdir", - deyə komitə sədri qeyd edib.

Azərbaycan dövlətinin həyata keçirdiyi uşaq siyasətindən danışan H.Hüseynova bildirib ki, bu istiqamətdə də müxtəlif layihələr həyata keçirilir. Ölkəmizdə uşaq hüquqlarının müdafiəsi ilə bağlı güclü qanunvericilik bazası mövcuddur.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova tədbirdə çıxış edərək deyib ki, muxtar respublikada həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ailə, qadın və uşaqlar dövlətimizin qayğısından bəhrələnməkdədir. Naxçıvanda ailələrin rifah halının yüksəldilməsi üçün yeni iş yerləri açılır, ünvanlı dövlət sosial yardımı təyin edilir.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında qadınların ictimai fəallığının artırılması, onların öz hüquqları barədə məlumatlandırılması, özünüməşğulluqlarının təmin edilməsi, eləcə də ahıl, tənha, xüsusi qayğıya ehtiyacı olan qadınların həyat şəraitlərinin yaxşılaşdırılması məqsədilə kompleks tədbirlər görülür, məişət və sosial sahələrdəki problemlər aradan qaldırılır.

Milli Məclisin Sədr müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova qeyd edib ki, Azərbaycanda ailə təsərrüfatların yaradılması, qadın sahibkarlığının inkişafı, uşaqların, gənclərin sağlamlığının təmini, onlara yüksək səviyyəli təhsilin verilməsi və bütün bu proseslərin üzərində ictimai və sosial nəzarətin təmin olunması istiqamətində görülən işlər təqdirəlayiqdir. Bunlardan yalnız qürur duya bilərik. Bahar Muradova deyib ki, təkcə bu il ərzində Milli Məclisin müvafiq komitələri Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə bu hüquqların qorunması, inkişafı, əlçatanlığının təmin olunması istiqamətinə yönəldilmiş çoxsaylı tədbirlər, ictimai müzakirələr təşkil edib. 2018-ci il ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan olunub. Bu il yubiley tədbirlərində yüz il ərzində Azərbaycan xalqının, dövlətimizin əldə etdiyi nailiyyətlər müzakirə olunub. Ölkəmizdə nailiyyətlərin qazanılmasında və bu nailiyyətlərin qazanılması səbəblərinin formalaşmasında Azərbaycan qadınlarının böyük rolu var.

Milli Məclisin Sədr müavini vurğulayıb ki, iqtisadi cəhətdən müstəqil olmayan qadın siyasi prosesə nə qatıla, nə də uğur qazana bilər. Ona görə də Azərbaycanda qadınların iqtisadi prosesə qatılması baxımından görülən işlər çox əhəmiyyətlidir. "Ona görə də qadın sahibkarlığının inkişafı vacib məsələdir. Qadınlarımızın iqtisadi proseslərdə, milli-mənəvi dəyərlərin qorunmasında iştirakı olduqca önəmlidir. Qadınlar iqtisadi proseslərə nə qədər çox qoşulacaqlarsa, bir o qədər özlərini azad, müstəqil hiss edəcəklər və qətiyyətlə siyasi proseslərin fəal iştirakçısına çevriləcəklər",- deyə Bahar Muradova vurğulayıb.

Nazirlər Kabinetinin humanitar və sosial məsələlər şöbəsinin müdiri Musa Ələkbərov, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı, Milli Məclisin deputatı Sahibə Qafarova ölkəmizdə qadın və uşaq siyasətinin həyata keçirilməsi istiqamətində əldə edilən uğurlar barədə danışıblar.

Kollegiya iclasının ikinci hissəsində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2019-cu ilin birinci yarısı üçün İş Planı haqqında məlumat verilib. Eyni zamanda, komitə yanında yaradılan İctimai Şuranın sədri Rəna Mirzəzadə il ərzində həyata keçirilən tədbirlər barədə məlumat verib. Azərbaycan Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının İdarə Heyətinin sədri Səkinə Babayeva isə qadın sahibkarlığının inkişafı istiqamətində görülən işlərdən danışıb.

Kollegiyanın yekununda bir qrup komitə əməkdaşına qulluq vəzifələrini layiqincə yerinə yetirdiklərinə görə Fəxri fərmanlar təqdim olunub.

# Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası olub

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib. Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" qanunun 7.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 1-ci, 5-ci, 18-ci, 56-cı, 61-ci və 65-ci maddələrinin şərh edilməsinə dair Gəncə Apelyasiya Məhkəməsinin müraciətinə baxılaraq, icraata qəbul olunması haqqında qərardad çıxarılıb.

Müraciətə mahiyyəti üzrə, tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun yanvarın 25-nə təyin edilmiş iclasında baxılacaq.

# Yaponlar İsmayıllıda tibb məntəqəsi tikəcəklər

2004-cü ildən başlayaraq İsmayıllıda Yaponiya səfirliyinin maliyyə dəstəyi ilə sosialyönümlü layihələrin həyata keçirilməsinə başlanılıb. Qafqazda ilk yaradılan "Yapon bağı" daxil olmaqla artıq 15 layihə reallaşdırılıb. Bunların sırasında təhsil, səhiyyə və içməli su təchizatı layihələri əsas yer tutur.



Növbəti qrant müqaviləsinin imzalanması məqsədilə Yaponiya dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Teruyuki Katori başda olmaqla nümayəndə heyəti İsmayıllıya gəlib. Rayon icra hakimiyyətinin konfrans zalında icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov səfir və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Mirdaməd Sadıqov səfiri, onun xanımı Noriko Katorini və digər qonaqları salamlayaraq İsmayıllıya gəlişlərindən məmnun qaldığını bildirib. Deyib ki, İsmayıllı Yaponiyanın İto şəhəri ilə qardaşlaşma müqaviləsi bağlayıb, intensiv xarakter daşıyan qarşılıqlı səfərlər isə əlaqələri daha da möhkəmləndirir.

İcra hakimiyyətinin başçısı xatırladıb ki, İsmayıllıdan şagirdlər İtoya, yapon şagirdləri isə İsmayıllıya gəlirlər. Distant yolla qarşılıqlı surətdə yaponlar Azərbaycan dilini, azərbaycanlı şagirdlər yapon dilini öyrənirlər. Yaponiya səfirliyinin həyata keçirdiyi layihələr İsmayıllıda təhsilin, səhiyyənin, xalq sənətkarlığının inkişafına, içməli su təchizatının yaxşılaşdırılmasına xidmət edir.

RİH-nin başçısı Mirdaməd Sadıqov daha sonra İsmayıllının tarixi, iqtisadiyyatı, turizm imkanları barədə söz açıb, multikultural bir bölgə olduğunu nəzərə çarpdırıb.

Yaponiya səfiri Teruyuki Katori səmimi qəbula görə rayon icra hakimiyyətinin rəhbərliyinə təşəkkür edib. Daha sonra deyib ki, Yaponiya səfirliyinin dəstəyi ilə Azərbaycanda 230 layihə həyata keçirilib. Onun 15-i İsmayıllının payına düşüb. Səfir qeyd edib ki, həmin layihələr həyata keçirilərkən daha çox ucqar ərazilərdə yaşayanların ehtiyacları nəzərə alınıb. Sosial xarakterli layihələrə daha çox üstünlük verilib. Azərbaycanla Yaponiya arasında əlaqələrin yaranmasının 26 illik tarixi var. Əlaqələr yaranandan sonra İsmayıllıda daha çox layihə icra olunub. İsmayıllıya səfərə gələn yaponiyalı şagirdlər geri qayıdarkən səfirlikdə qonaq edilirlər. Onlar bu zaman İsmayıllıdan böyük razılıqla danışırlar.

Görüşdə səfir Teruyuki Katori ilə tərəfdaş təşkilat olan "Gənclər İnkişaf Naminə" İctimai Birliyinin sədri Rasim Allazov arasında rayonun Sulut və Sumağallı kəndlərində tibb məntəqəsi tikintisi barədə qrant müqaviləsi imzalanıb.

Rayon icra hakimiyyətinin başçısı qonaqlara xalq sənətkarlığını əks etdirən hədiyyələr bağışlayıb.

Qonaqlar "Yapon bağı"nda, Velosiped zavodunda olub, sonra Lahıc qəsəbəsinə gediblər.

***Əli SƏLİMOV, "Azərbaycan"***

## Elmar MƏMMƏDYAROV:

# “Azərbaycan müstəqil, çoxşaxəli, tarazlaşdırılmış və fəal xarici siyasətini davam etdirəcək”

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov 2018-ci ilin yekunlarına dair kütləvi informasiya vasitələrinin suallarını cavablandırıb. AZƏRTAC müsahibəni təqdim edir.



**-Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə aparılan danışıqların cari il üzrə yekunları nədən ibarətdir? Münaqişənin həlli üzrə danışıqların, xüsusilə son zamanlar səsləndirilən ümidverici bəyanatlar fonunda gələcək perspektivlərini necə görürsünüz?**

- Əvvəla qeyd etmək istərdim ki, ölkəmizin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyi dəfələrlə ən yüksək səviyyədə bütün platformalarda səsləndirilib. Münaqişə Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyü və suverenliyi əsasında həll olunmalıdır. Münaqişənin həllinin hüquqi bazasına gəldikdə buraya, ilk növbədə, dünyada sülh və təhlükəsizliyin təmin edilməsinə cavabdeh olan BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 4 qətnaməsi, digər çoxsaylı beynəlxalq təşkilatların, o cümlədən ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, GUAM, NATO, Avropa Parlamentinin qərar və qətnamələri, eləcə də ikitərəfli və çoxtərəfli formatlarda qəbul edilmiş birgə sənədlər daxildir.

Təəssüf ki, uzun illərdir münaqişənin həlli üzrə aparılan danışıqlar öz nəticəsini verməmişdir. Ermənistanda baş verən son hadisələr, eləcə də Azərbaycan Respublikasının Prezidenti ilə Ermənistan Baş naziri arasında MDB-nin Düşənbə və Sankt-Peterburq zirvə görüşləri çərçivəsində baş tutan söhbətlər və mənimlə ermənistanlı həmkarım arasında keçirilmiş üç görüş danışıqlar prosesinin irəli aparılması baxımından müəyyən optimizm vəd edir. Bu il dekabrın 6-da ATƏT-in Milanda keçirilmiş Nazirlər görüşü çərçivəsində ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin nümayəndə heyətlərinin rəhbərlərinin, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin qəbul olunmuş birgə bəyanatında qeyd edilir ki, münaqişənin sülh yolu ilə ədalətli və davamlı həlli üzrə danışıqların davam etdirilməsi razılaşdırılıb. Bu isə o deməkdir ki, danışıqların formatı dəyişilməz olaraq qalır. Burada, həmçinin iki ölkənin rəhbərləri səviyyəsində Düşənbədə əldə olunan razılaşmaya riayət olunması və hər iki ölkə əhalisinin sülhə hazırlanması üçün konkret addımların atılması çağırışı əks olunur. Vacib məqamlardan digəri isə, birgə bəyanatda münaqişənin ədalətli və davamlı həllinin təşviq edilməsi üçün yaxın gələcəkdə Azərbaycan və Ermənistan rəhbərliyi səviyyəsində intensiv nəticəyə yönələn danışıqların keçirilməsi fikrinin əks olunmasıdır. Bildirmək istərdim ki, bu yanaşma ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən tam dəstəklənir.

Ümumiyyətlə, qeyd etmək istərdim ki, bu ilin dekabrında keçirilən seçkilərdən sonra Ermənistanın hazırkı rəhbərliyi, münaqişənin həlli istiqamətində siyasi iradəsini nümayiş etdirməli və mehriban qonşuluq fəlsəfəsinə uyğun olaraq bölgədə sülh, sabitlik və davamlı inkişafın əldə olunması istiqamətində çalışmalıdır.

Ümid edirik ki, qarşıdan gələn 2019-cu ildə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması və iki ölkə arasında münasibətlərin normallaşması baxımından müəyyən irəliləyiş əldə olunacaq. Münaqişənin həllində mümkün irəliləyiş bölgədə sülh, təhlükəsizlik və sabitliyə şərait yaratmaqla, bütün regionda, ilk növbədə, Ermənistanın özündə davamlı iqtisadi inkişafa imkanlar açacaq. Ölkəmiz digər etnik mənsubiyyətə malik Azərbaycan vətəndaşları kimi, öz beynəlxalq öhdəliklərinə uyğun olaraq Dağlıq Qarabağdakı erməni əsilli vətəndaşlarının da təhlükəsizliyini təmin etməyə və onlara Azərbaycan Respublikasının beynəlxalq tanınmış sərhədləri çərçivəsində yüksək səviyyədə özünüidarəetmə hüququ verməyə hazırdır. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması öz doğma yurd-yuvalarına geri qayıtmağa hazırdır və icmanın bu yaxınlarda verdiyi bəyanatında qeyd olunan məsələ növbəti dəfə səsləndirildi. Xatırlayırsınızsa, bir müddət əvvəl Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları arasında təmaslar mövcud idi, lakin əfsuslar olsun ki, Ermənistanın keçmiş siyasi rəhbərliyinin “xidmətləri” nəticəsində bu təmaslara son qoyuldu. Bilirsiniz, torpaqları götürüb başqa bir yerə köçmək mümkün deyil və münaqişənin həllindən sonra, əlbəttə, sözügedən iki icma birgə yaşamalı olacaq. Məhz bu baxımdan Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları arasında təmasların bərpa edilməsi vacibdir və bu, təşviq olunmalıdır.

**- Azərbaycanın beynəlxalq təşkilatlarla əlaqələrində hansı mühüm uğurları qeyd edə bilərsiniz?**

- 2018-ci il beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və fəal təmsilçilik xəttini yürüdən ölkəmizin əldə etdiyi bir sıra nailiyyətlərlə yadda qalır. Bu sırada həm BMT və onun ixtisaslaşmış təşkilatları, həm də digər regional təşkilatları qeyd etmək olar. Belə ki, bu ilin 25 sentyabr - 1 oktyabr tarixlərində keçirilmiş BMT Baş Assambleyasının 73-cü sessiyası çərçivəsində baş tutan bir sıra tədbirlərdə və keçirilən görüşlərdə Azərbaycanı narahat edən məsələlərlə bağlı, eləcə də beynəlxalq gündəliyin aktual məsələlərinə dair ölkəmizin mövqeyinə dəstək və anlayış nümayiş etdirildi. Dekabrın 17-də BMT Baş Assambleyası Azərbaycanın təklif etdiyi, dünya ictimaiyyətinin diqqətini beynəlxalq hüququn müddəalarına hörmət edilməsinə yönəldən və silahlı münaqişələr zamanı itkin düşmə hallarının qarşısının alınması, itkin düşmüş şəxslərin axtarışı ilə bağlı bütün lazımi tədbirlərin həyata keçirilməsi, o cümlədən beynəlxalq öhdəliklərə uyğun olaraq itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi üçün əməkdaşlıq edilməsini nəzərdə tutan “İtkin düşmüş şəxslərə dair” qətnamə qəbul edildi. Bu mühüm təşəbbüs Azərbaycanın xarici siyasətinin humanist xarakterini, onun beynəlxalq hüquq və ondan irəli gələn öhdəliklərə sadiqliyini, eləcə də bu qaydalara BMT-nin üzv ölkələri tərəfindən riayət edilməsinə nail olmaq qətiyyətini bir daha qabartmış oldu.

Aprelin 3-5-də Bakıda 117 ölkənin və 16 beynəlxalq təşkilatın nümayəndələrinin iştirak etdiyi Qoşulmama Hərəkatının üzv ölkələrinin Nazirlər Konfransı keçirildi. Tədbir çərçivəsində qəbul edilmiş yekun sənəd və Bakı Bəyannaməsi ölkəmizin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üzrə mövqeyinə birmənalı dəstək ifadə etdi.

Həmçinin bu il dekabrın 12-də Avropa Parlamentinin “Aİ-nin xarici siyasət və təhlükəsizlik sahəsində ümumi xarici siyasətinin həyata keçirilməsi” adlı qətnaməsinin qəbulunu vurğulamaq istərdim. Belə ki, bu qətnamə mövcud münaqişələrin ərazi bütövlüyü, suverenlik və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsipləri əsasında həllini təsdiq etdi.

Bu ilin 1 iyul - 31 dekabr tarixlərində ölkəmizin Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına sədrliyi çox faydalı oldu. Sədrliyimiz dövründə nazirlər səviyyəsində dörd görüş, tematik işçi qruplarının 20-dən çox iclası keçirildi, bizim təşəbbüsümüzlə müvafiq dəyərləndirmə sənədləri qəbul edildi.

İl ərzində beynəlxalq ictimaiyyətin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə münasibətdə artmaqda olan birmənalı dəstəyini xüsusilə vurğulamaq istərdim. Davamlı səylərimiz nəticəsində diplomatik leksikonumuzda beynəlxalq tanınmış sərhədlər çərçivəsində ərazi bütövlüyünə dəstək ifadəsi daha geniş istifadə olunmağa başladı. Keçirilmiş ikitərəfli və çoxtərəfli görüşlər nəticəsində qəbul olunmuş çoxsaylı sənəd və bəyanatlarda, o cümlədən Qoşulmama Hərəkatının nazirlər görüşünün yekun sənədində, NATO-nun zirvə görüşünün yekun bəyanatında, Avropa Parlamentinin sözügedən qətnaməsində, üçtərəfli formatlarda keçirilmiş görüşlərin birgə bəyannamələrində, eləcə də ikitərəfli əsasda qəbul edilmiş bir sıra birgə bəyanatlarda ölkəmizin suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə dəstək münaqişənin həlli ilə bağlı onsuz da mövcud olan geniş hüquqi bazanın daha da möhkəmləndirilməsinə xidmət edib.

Bu il ərzində, həmçinin ölkəmizin bir sıra beynəlxalq təşkilatların seçkili orqanlarına üzvlük müraciətləri də uğurlu olub. Məsələn, iyunun 6-da Azərbaycan UNESCO-nun qeyri-maddi mədəni irsi üzrə Komitəsinin üzvü seçilib, bir gün sonra isə Nyu-Yorkda BMT-nin qadınlara münasibətdə ayrı-seçkiliyin aradan qaldırılması üzrə Komitəsinə üzv olub, noyabr ayında Dubayda Beynəlxalq Telekommunikasiya İttifaqının Şurasına 2019-2022-ci illər üzrə üzv seçilib, həmçinin ölkəmizin nümayəndəsi BTİ-nin Radio Tənzimləmə Komitəsinə üzv seçilib.

Göründüyü kimi, 2018-ci il ərzində Azərbaycan müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində öz maraqlarını daha da irəli aparmaq səylərini davam etdirib.

**- Bu il Xəzəryanı ölkələr arasında Xəzər dənizinin hüquqi statusuna dair imzalanmış Konvensiya yeni neft-qaz yataqlarının istismarı və TransXəzər qaz kəmərinin tikilməsi baxımından hansı perspektivlər açır?**

- Cari ilin avqustunda “Xəzəryanı beşliyin” liderləri tərəfindən Xəzər dənizinin hüquqi statusu haqqında imzalanan konvensiya dövlətlərarası əməkdaşlıq üçün yeni, müstəsna imkanlar açdı. Konvensiya tərəflərin Xəzər dənizindən və onun zəngin təbii ehtiyatlarından istifadəsi ilə bağlı hüquq və vəzifələrini tənzimləyir. Bu sənəd Xəzər dənizinin delimitasiya parametrlərini müəyyənləşdirir.

Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanması beş sahilyanı dövlətin xoş məramını bildirən əsl tarixi hadisə oldu. Bu sənədin ölkəmiz üçün əsas əhəmiyyəti sahilyanı ölkələrin dənizin zəngin təbii sərvətlərindən istifadə edilməsi üzrə suveren və müstəsna hüquqlarının müəyyənləşdirilməsindən ibarətdir. Beləliklə, konvensiya neft-qaz sənayesi sahəsində müxtəlif layihələrin, habelə dənizdə digər iqtisadi fəaliyyətlərin həyata keçirilməsinin davamlılığını və təhlükəsizliyini təmin edir. Xəzər dənizində ticarətin və ölkələrimizin iqtisadiyyatının inkişafı baxımından mühüm rol oynayan naviqasiya azadlığı və təhlükəsizliyi təmin olunur.

Ümumiyyətlə, konvensiyanın müddəalarının yerinə yetirilməsi orada göstərilən məqsədə nail olunmasını təmin edəcək, Xəzər dənizini sülh, mehriban qonşuluq, dostluq və əməkdaşlıq zonasına çevirəcək. Tarixən Xəzər dənizində nəhəng layihələrin həyata keçirilməsində fəallıq göstərən Azərbaycan gələcəkdə də sahilyanı ölkələrlə əməkdaşlığı davam etdirməyi və genişləndirməyi planlaşdırır.

Uğurlu enerji siyasəti sayəsində Azərbaycan özünün iqtisadi təhlükəsizliyini təmin edən, eləcə də Avropanın enerji təhlükəsizliyinə töhfə verən etibarlı tərəfdaş, istehsalçı və tranzit ölkə kimi nüfuz qazanmağa müvəffəq olub. Hazırda Azərbaycanın təşəbbüsü və iştirakı ilə “Cənub qaz dəhlizi” kimi nəhəng enerji layihəsinin reallaşdırılması davam etdirilir. Bu layihə Xəzər dənizindən təbii qazın Avropaya nəqli baxımından mühüm rol oynayır. Ölkəmiz enerji resurslarının dünya bazarlarına çatdırılmasında yüksək potensiala malikdir və biz Azərbaycanın ərazisindən keçən tranzit marşrutlarından istifadə etmək istəyən qonşu dost ölkələrə imkanlarımızı təqdim etməyə həmişə hazırıq.

**- Məlum olduğu kimi, gələn ildən etibarən Azərbaycan üç il ərzində Qoşulmama Hərəkatına sədrlik edəcək. Bu mühüm hadisə ölkəmizə nələr vəd edir?**

- Beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsini qarşıya məqsəd qoyan ölkəmiz, bildiyiniz kimi, 2011-ci ildə Qoşulmama Hərəkatına üzv oldu. Bu təşkilat öz sıralarında 120 üzv, 17 müşahidəçi ölkəni və 10 müşahidəçi təşkilatı birləşdirən ən böyük beynəlxalq qurumlardan biridir. Qoşulmama Hərəkatı keçmişin çox tanınmış dövlət rəhbərləri olan İosip Broz Tito, Cəvahirləl Nehru, Fidel Kastro və digərlərinin iz qoyduğu kifayət qədər uzun tarixə malik bir qurumdur. Təqdirəlayiq haldır ki, çox qısa zaman ərzində ölkəmiz təşkilat çərçivəsində özünü tanıtmaqla yanaşı, Qoşulmama Hərəkatına 2019-2022-ci illər ərzində sədrlik etmək imkanına sahib oldu.

Məlum olduğu kimi, bu ilin aprelində Qoşulmama Hərəkatının üzv ölkələrinin Bakıda keçirilmiş Nazirlər görüşünün yekun sənədində Azərbaycanın bir sıra təşəbbüslərinə dəstək nümayiş etdirildi, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin BMT TŞ-nin 4 qətnaməsinə uyğun olaraq, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq tanınmış sərhədləri çərçivəsində həllinin vacibliyi vurğulandı.

Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi təşkilatın beynəlxalq nüfuzunun daha da artırılması məqsədilə üç əsas prioritet üzərində qurulacaq və buraya Bandunq prinsiplərinin təşviqi, Hərəkat daxilində birliyin möhkəmləndirilməsi və Hərəkatın effektivliyinin artırılması daxildir.

Əminliklə qeyd edə bilərəm ki, Qoşulmama Hərəkatında sədrliyimiz ölkəmizin mövqeyinin beynəlxalq səviyyədə çatdırılması baxımından bizim üçün əlavə imkanlar yaradacaq. Təşkilatın üzvü olan 120 ölkə BMT üzv dövlətlərinin üçdəikisini təşkil edir, bu isə istənilən qərarın qəbuluna təsir imkanı deməkdir. Hərəkata sədrliyimiz, həmçinin ölkəmizin irəli sürdüyü təşəbbüslərin reallaşdırılması baxımından müvafiq imkanlar yaratmış olacaq. Bu təşəbbüslərin həyata keçirilməsi isə öz növbəsində, ölkəmizin beynəlxalq müstəvidə nüfuzunun daha da artmasına xidmət edəcək.

**- 2019-cu ildə Azərbaycan ilə Avropa İttifaqı arasında viza rejiminin sadələşdirilməsi də daxil olmaqla yeni strateji tərəfdaşlıq haqqında sazişin imzalanması mümkündürmü? Bu, Azərbaycana hansı dividendlər gətirəcək?**

- Azərbaycan Avropa İttifaqı ilə bərabərhüquqlu və qarşılıqlı faydalı tərəfdaşlıq münasibətlərini inkişaf etdirmək istəyir. Tərəfdaşlığımızın son ili Aİ ilə əməkdaşlıq gündəliyinin daha da irəli aparılması baxımından çox faydalı olub. Bu xüsusda, iyulun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Aİ Şurasının Prezidenti Donald Tusk tərəfindən Brüsseldə paraflanmış, oktyabrın 15-də isə Lüksemburqda keçirilən Şərq Tərəfdaşlığı ölkələrinin Nazirlər görüşü çərçivəsində qəbul edilməsi rəsmiləşdirilən Azərbaycan-Aİ Tərəfdaşlıq Prioritetləri sənədini vurğulamaq istərdim. İkitərəfli əməkdaşlığımızda mühüm mərhələ açacaq Aİ və Azərbaycan arasında yeni hərtərəfli sazişi və sənədlə bağlı aparılan danışıqları da qeyd etmək lazımdır. Danışıqlar prosesi hələ də davam edir və bunun vaxt tələb etdiyi təbiidir, çünki bizə və Aİ tərəfdaşlarımıza ciddi, keyfiyyətli saziş lazımdır. Bu saziş ikitərəfli münasibətlərin hüquqi əsasını təşkil edəcək və qarşılıqlı sahəvi tərəfdaşlığımızı uzun müddətdə möhkəmləndirəcək. İnanırıq ki, bu saziş bərabərhüquqlu tərəfdaşlıq və birgə maraqlara əsaslanan strateji əhəmiyyətli sənəd olacaq. Bu saziş təkcə bizə deyil, eləcə də Aİ üzv ölkələrinə lazımdır.

Viza sadələşdirilməsi üzrə saziş artıq bir neçə ildir ki, qüvvədədir. Bunun məntiqi davamı Aİ ilə viza rejiminin tam ləğvidir. Yəni viza rejiminin liberallaşdırılması anlamına gəlir. Amma bu müəyyən vaxt tələb edir.

**- Azərbaycanın 2019-cu il üzrə xarici siyasət prioritetləri nədən ibarət olacaq?**

- Ölkəmiz cari ildə olduğu kimi, növbəti il ərzində də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin birbaşa rəhbərliyi ilə ölkəmizin milli maraqlarına əsaslanan və milli mənafelərimizin beynəlxalq müstəvidə qorunmasına xidmət edən müstəqil, çoxşaxəli, tarazlaşdırılmış və fəal xarici siyasətimiz davam etdiriləcək.

Bu gün Azərbaycan bölgədə qlobal layihələrin təşəbbüskarı və iştirakçısı qismində regional əməkdaşlığı inkişaf etdirən və beynəlxalq müstəvidə nüfuz sahibi olan dövlətdir. Bu gün etibarlı tərəfdaş kimi dəyərləndirilən ölkəmizin xarici siyasət sahəsindəki nailiyyətləri, əlbəttə ki, onun qonşu ölkələr və dünyanın digər dövlətləri ilə tarazlaşdırılmış əlaqələr qurmasına, qarşılıqlı maraqlara əsaslanan bərabərhüquqlu dialoq və əməkdaşlıq münasibətlərini həyata keçirməsinə əsaslanır.

2019-cu ildə xarici siyasət prioritetlərinə, ilk növbədə, ölkəmizin suverenliyi və müstəqilliyinin möhkəmləndirilməsi, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticələrinin aradan qaldırılması və beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyümüzün bərpa edilməsi, eyni zamanda, Azərbaycanın təşəbbüskarı və iştirakçısı olduğu iri-miqyaslı infrastruktur layihələrinin həyata keçirilməsinin davam etdirilməsi, bütün beynəlxalq aktorlar, o cümlədən dövlətlər, birliklər və beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsi daxildir.

# Azərbaycanın təcrid siyasəti Ermənistanı fəlakətə sürükləyir

## Prezident İlham Əliyevin prinsipial mövqeyi işğalçı ölkənin dövlətçiliyini əsaslı şəkildə zəiflədib

Əldə etdiyi nailiyyətlərdən məharətlə istifadə edən Azərbaycan işğalçı Ermənistana həm diplomatiya müstəvisində böyük zərbələr vurur, həm də bu ölkəni təcrid vəziyyətinə salmaqla onun sosial-iqtisadi çöküşünü sürətləndirir.

Ermənistan işğal siyasətinə son qoymayana qədər bu vəziyyətdə qalmağa, daha böyük problemlərlə üzləşməyə davam edəcək. Elə 20 il Ermənistana rəhbərlik etmiş oğru, kriminal rejimin hakimiyyətdən qovulmasını təmin edən məqamlardan biri də məhz Azərbaycanın həyata keçirdiyi təcrid siyasəti oldu.

Dekabrın 24-də Abşeron rayonunun ərazisində 1000 məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış kompleksinin istifadəyə verilməsi mərasimində çıxışı zamanı Prezident İlham Əliyev qeyd olunan məqamlara geniş şəkildə toxunub.

Azərbaycanın gördüyü tədbirlərin Ermənistanın iflasını daha sürətli vəziyyətə gətirdiyini vurğulayan Prezident deyib: *“Ermənistanın işğalçılıq siyasəti onları ağır vəziyyətdə qoyub. Bu gün bunu həm dünya görür, həm də regionda baş verən hadisələr bunu göstərir. Ermənistanda uzun illər ərzində - iyirmi il ərzində hakimiyyəti zəbt etmiş kriminal rejim çökdü. Bunun başlıca səbəbi onların işğalçılıq siyasətidir. Çünki biz qarşıya vəzifə qoymuşduq ki, bu kriminal rejim çökməlidir və buna nail olduq. Bütün vasitələrdən istifadə edərək buna nail olduq. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm ki, Ermənistanda kriminal, rüşvətxor xunta rejiminin çökməsində bizim də payımız var. Nə qədər ki, torpaqlarımız işğal altındadır, ilk növbədə, biz onları təcrid vəziyyətində saxlayırıq və saxlayacağıq. Digər tərəfdən, Ermənistan iqtisadiyyatı üçün heç bir əsas yoxdur. Biz onları bütün regional layihələrdən təcrid etmişik və bu proses davam etdirilir. Ermənistanda iqtisadi vəziyyət çox ağırdır və bu il orada baş vermiş hadisələrin əsas səbəbi də səfalət, yoxsulluq, ədalətsizlik və özbaşınalıqdır”.*

### Sosial-iqtisadi böhran dərinləşir

İndi dünya miqyasında da birmənalı qəbul olunan həqiqət budur ki, işğal siyasətinə son qoymayacağı təqdirdə qarşıdakı dövr ərzində Ermənistanı daha böyük problemlər gözləyir. Hakimiyyətin dəyişməsi ilə nəticələnmiş inqilab eyforiyası bitdikdən sonra Ermənistanda mövcud sosial-iqtisadi problemlər yenidən ön plana çıxıb. İndi cəmiyyət yeni hakimiyyətdən üzləşdikləri sosial çətinliklərin həllini tələb edir. Amma bunun üçün lazımi resurslar olmadığından ölkəni yenidən aksiyalar, tətillər bürüyür.

Misal üçün bunu göstərək ki, Ermənistanın iri müəssisələrindən olan “Nairit” kimya zavodunun müflis olması səbəbindən işsiz qalan insanlar yenidən hökumət binası qarşısında etiraz aksiyası keçirərək pozulmuş hüquqlarının bərpasını tələb ediblər.

### 15 milyon dollarlıq borc

Etirazçılar zavodun öz işçilərinə 15 milyon dollardan çox borcunun olduğunu bildiriblər. Bu məbləğ artıq dördüncü ildir ödənilmir. Hökumətə dəfələrlə müraciət olunsa da, fəhlələrin tələbi yerinə yetirilmir.

Zavodun əməkdaşları məsələ ilə bağlı beynəlxalq məhkəməyə də müraciət ediblər. Hökumət binası qarşısında toplaşanlar rəsmilərlə görüş istəyiblər. Lakin onların cəhdləri cavabsız qalıb. Etirazçılar heç yerdə iş tapa bilməmələrindən şikayətləniblər.

Belə bir vaxtda Ermənistanda Mədəniyyət və Diaspor nazirliklərinin əməkdaşları həmin qurumların ləğv edilməsi qərarına qarşı tətilə başlayıblar. Tətil iştirakçıları hökumət binalarının qarşısına toplaşıblar. Etirazçıların nümayəndəsi bildirib: “Cənab baş nazir gəlib bizimlə görüşmək istəməsə, biz onun ayağına getməyi rəva görərik”.

Xatırladaq ki, bu günlərdə ölkədə aparılan hökumət islahatı nəticəsində mövcud 17 nazirlik əvəzinə 12 nazirliyin fəaliyyət göstərəcəyi bildirilib. Baş nazir əvəzi Nikol Paşinyanın bu addımı büdcədə olan kəsirlərlə bağlıdır. Diaspor Nazirliyinin əməkdaşlarının 90 faizinin işsiz qalacağı bildirilir.

Aksiya iştirakçılarının hökumətə yazılı müraciətində qeyd olunub ki, ölkədəki yüksək səviyyədə işsizlik şəraitində dövlət qulluqçularının küçəyə atılması sosial gərginliyi artıracaq və emiqrasiya prosesini gücləndirəcək.

### Əsgər valideynləri yeni aksiyalara hazırlaşırlar

Digər məlumata görə, artıq əsgər valideynləri də aksiyaya hazırlaşır. Əsas səbəb orduda vəziyyətin getdikcə pisləşməsidir. Qeyd edək ki, Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirilən Ermənistan ordusunun bölmələrində qeyri-döyüş şəraitində özbaşınalıqlar və qanunsuzluqlar səbəbindən ölən və yaralananların sayı artmaqda davam edir. Son günlər Ermənistanın xəbər portallarında və sosial şəbəkələrdə yayılan məlumatların təhlili nəticəsində dekabrın 15 günü ərzində düşmən ordusunun ölən və yaralananlar da daxil olmaqla 17 hərbçisini itirdiyi ortaya çıxır.

Məlumatlardan məlum olur ki, qar uçqunu, yol-nəqliyyat qəzası və digər səbəblərdən düşmən ordusunun 7 hərbi qulluqçusu ölüb. Təhlükəsizlik qaydalarının pozulması, özünə qəsd, minaya düşmə və digər hadisələr nəticəsində isə 10 hərbçi ağır yaralanıb. Ölən və yaralananların çoxu zabitlər və müqavilə əsasında xidmət edən hərbi qulluqçulardır. Belə vəziyyət valideynləri narahat etdiyindən onlar da yeni aksiyaya hazırlaşır.

### Əhaliyə satılan qazın qiymətində artım gözlənilir

Gələn ilin əvvəlindən aksiyaların miqyasının daha da böyüməsi gözlənilir. Səbəb isə ölkədə sosial sahədə daha ağır vəziyyətin yaranmasıdır. Belə ki, gələn ildən əhaliyə satılan qazın qiymətində artım gözlənilir. “168 jam” qəzeti yazır ki, Rusiya baş nazirinin müavini Dmitri Kozak erməni həmkarı Tiqran Avinyana rəsmi məktub ünvanlayaraq, 2019-cu ildən etibarən Rusiyanın satdığı təbii qazın qiymətinin artacağını bildirib.

Məktubda Dmitri Kozak bildirib ki, Rusiyanın sərhəddəki qazının min kubmetrinin qiyməti 215 dollar olacaq və bu qərar müzakirə edilmir: “Məsələ ilə bağlı biz Avinyanın özündən şərh almağa çalışdıq. Amma onun ofisinin rəhbəri Varaq Siseryan bildirdi ki, baş nazirin müavini bir neçə görüşdə iştirak edəcəyindən suala cavab verməyə vaxtı olmayacaq”.

Qeyd edək ki, hazırda Ermənistan sərhəddə Rusiya qazının min kubmetrini 150 dollara alır. Yerevan bu qiymətin daha da azaldılmasını istəyir və bunun üçün Moskva ilə danışıqlar aparır.

Erməni mediası isə yazır ki, əgər razılıq əldə olunmazsa, gələn ildən Rusiya təbii qazını Ermənistana daha baha qiymətə satacaq ki, bu da erməni istehlakçılarının daha çox vergi verməsi ilə nəticələnəcək. Belə vəziyyət sosial narazılığı daha da artıracaq.

### “Yeni hakimiyyət idarəçiliyi bacarmır”

Ermənistanın sabiq müdafiə naziri, Respublika partiyasının üzvü Vigen Sarkisyan da bunu qaçılmaz sayır. Onun fikrincə, erkən parlament seçkilərindən sonra yeni parlament formalaşdırılıb, lakin parlamentdə real müxalifət təmsil olunmur ki, bu da istər ölkənin gələcəyinə, istərsə də Paşinyana və onun tərəfdarlarına ciddi risklər yaradır.

Vigen Sarkisyan Nikol Paşinyanın digər çatışmayan cəhətləri barədə də fikirlər səsləndirib: “Hakimiyyətdə olmasının 8-ci ayında o, hər şeyi öncəki hakimiyyətin üzərinə yıxmağa cəhd edib. Artıq ciddi olmağın və cavabdehliyi öz üzərinə götürməyin vaxtı çatıb. Öncəkiləri ittiham etmək nə qədər rahat olsa da, bu mövcud problemlərin həllinə, ölkənin inkişafına, eləcə də xalqın, həmçinin beynəlxalq partnyorların hakimiyyətə inamına heç bir kömək göstərməyəcək. Bundan əlavə, ölkə deyilməyəcək dərəcədə keçmişi və gələcəyi olan dövlətə çevriləcək ki, bu da nə investorların, nə də potensial repatriantların diqqətlərini cəlb edəcək. İndi, işləməyin və nəticələr əldə etməyin vaxtıdır. Amma yeni hakimiyyət bunu bacarmır və ölkəni fəlakətə, yeni etirazlara sürükləyir”.

Bütün bunlar göstərir ki, qarşıdakı dövrdə də Ermənistanda sabitlik olmayacaq.

***Elçin CƏFƏROV, “Azərbaycan”***

# Kolumbiya parlamenti Azərbaycanın işğal olunmuş torpaqlarının qeyd-şərtsiz boşaldılmasını tələb edir

Kolumbiya parlamentinin Xarici işlər, təhlükəsizlik və milli müdafiə üzrə İkinci Komitəsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair Azərbaycanın ədalətli mövqeyini dəstəkləyən qətnamə qəbul edib. Qətnamə Azərbaycan Respublikasının Boqotadakı səfirliyinin müvəqqəti işlər vəkili Həmid Zeynalova rəsmi olaraq təqdim edilib.

AZƏRTAC xəbər verir ki, qətnamədə Kolumbiya ilə Azərbaycan arasındakı ikitərəfli münasibətlərin vacibliyi vurğulanır. Kolumbiya tərəfi Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Azərbaycanın Dağlıq Qarabağ və ətraf yeddi rayonunun işğalından, habelə Azərbaycan əhalisinin etnik təmizləməyə məruz qalmasından narahatlığını qeyd edir. Qətnamədə Ermənistanın təcavüzkarlıq siyasəti pislənir və dünya ictimaiyyəti bu hadisələri insanlığa qarşı cinayət kimi qiymətləndirməyə çağırılır.

Həmçinin Azərbaycan torpaqlarının indiyədək işğal altında qaldığına və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də həllini tapmadığına görə Kolumbiya tərəfinin dərin təəssüfü vurğulanır. Kolumbiya münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri, qəbul olunmuş beynəlxalq hüquqi sənədlər, o cümlədən BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri əsasında sülh yolu ilə həll edilməsinə çağırır.

Eyni zamanda, qətnamədə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən qeyd-şərtsiz çıxarılması və Azərbaycanın qaçqın və məcburi köçkünlərinin öz doğma torpaqlarına dərhal qayıtması üçün şəraitin yaradılması tələb edilir.

Kolumbiya parlamentinin Xarici işlər, təhlükəsizlik və milli müdafiə üzrə İkinci Komitəsi Azərbaycan hökumətinin və xalqının ölkənin müdafiəsi üçün həyata keçirdiyi bütün səyləri tam dəstəkləyir və fürsətdən istifadə edərək Azərbaycan Respublikasının Kolumbiyadakı səfirliyinin yüksək fəaliyyətini xüsusi vurğulayır.

AZƏRBAYCAN www.azerbaijan-news.az

# Mehdi Hüseynzadənin 100 illik yubileyi Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində qeyd olunub



Alman faşizminə qarşı mübarizədə apardığı çoxsaylı uğurlu kəşfiyyat əməliyyatları və nümayiş etdirdiyi misilsiz hərbi şücaətləri ilə böyük şöhrət qazanmış və Azərbaycan xalqının zəngin tarixi hünər salnaməsinə şanlı səhifələr yazmış Mehdi Hüseynzadənin anadan olmasının 100 illik yubileyi münasibətilə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində təntənəli mərasim keçirilib.

AZƏRTAC xəbər verir ki, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin 100 illik yubileyinin keçirilməsinə dair Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən, təşkil olunan tədbirdə müdafiə naziri, general-polkovnik Zakir Həsənov, təhsil naziri Ceyhun Bayramov, mədəniyyət naziri Əbülfəs Qarayev, Mehdi Hüseynzadənin ailə üzvləri, Bakı Qarnizonunun hərbi hissələrinin, xüsusi təyinatlı təhsil müəssisələrinin zabit və kursantları, dövlət universitetlərinin professor, müəllim və tələbələri, veteranlar və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları Mehdi Hüseynzadənin həyat və döyüş yoluna, eləcə də xalqımızın ümummilli lideri Heydər Əliyevin əfsanəvi partizan haqqında həqiqətlərin üzə çıxarılmasında, igid döyüşçüyə ölümündən 13 il sonra Sovet İttifaqı Qəhrəmanı fəxri adının verilməsində, ümumiyyətlə, Mehdi Hüseynzadənin xatirəsinin əbədiləşdirilməsində müstəsna xidmətləri barədə qiymətli fotolar və sənədlər nümayiş olunub. Qəhrəmanın uşaqlıq və təhsil illərini, Stalinqrad uğrunda döyüşlərdə iştirakını, əsirlikdə Azərbaycan naminə xidmətlərini, eləcə də Sloveniyanın milli azadlığı uğrunda sadiq əsgər kimi iştirakını əks etdirən nadir fotolar böyük maraq doğurub.







Mərasimdə əvvəlcə ulu öndər Heydər Əliyevin, İkinci Dünya müharibəsində həlak olan həmvətənlərimizin, Azərbaycanın müstəqilliyi, azadlığı, ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan oğul və qızlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət himni ifa olunub. Tədbirdə "Mehdi Hüseynzadənin 100 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 iyun tarixli Sərəncamı bir daha nəzərə çatdırılıb.

Sonra əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, ehtiyatda olan polkovnik Abdulla Qurbaninin ssenarisi və rejissorluğu ilə hazırlanmış "Mən öz Xəzərimə vurğunam, ey dost!" yubiley tamaşası nümayiş etdirilib. Mehdi Hüseynzadənin bəlli olmayan, son vaxtlar üzə çıxarılmış şeirlərinin istifadə edildiyi tamaşada əməkdar artistlər Azad Şükürov, Səmayə Sadıxova, Anar Şuşalı, Hüsniyyə Mürvətova, Elxan Rza, gənc aktyorlar və Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı heyəti iştirak ediblər.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbəsi Nicat Hüseynzadə Mixaylo rolunu məharətlə ifa edib. Tamaşa boyu sənədli kadrlar nümayiş etdirilib.

Tədbirin iştirakçıları ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə igid döyüşçünün 1973-cü ildə Bakının mərkəzində ucaldılmış abidəsi qarşısındakı tarixi nitqini və Azərbaycan Prezidenti İlham Əliyevin Sloveniya Respublikasına rəsmi səfəri zamanı M.Hüseynzadənin memorial muzeyinin açılışında ictimaiyyət qarşısında çıxışını və əfsanəvi qəhrəman haqqında söylədiyi fikirləri əks etdirən süjetləri alqışlarla qarşılayıblar.

Sonda xatirə şəkilləri çəkdirilib.

## Dövlət başçısına minnətdarlıq





# And yerimiz

*Qarabağ savaşında tərtərlilər qəhrəmanlıq salnaməsi yazmışlar. Onlar təpədən-dırnağadək silahlanmış Ermənistan silahlı qüvvələri ilə döyüşlərdə doğma yurdun bir qarışını da itirməmiş, vətən torpaqlarını canları, qanları bahasına mərdliklə müdafiə etmişlər.*

Bu müqəddəs savaşda şəhid olub əbədiyyətə qovuşan mərd-mübariz oğulların xatirəsi Tərtər rayonunun hər kəndində, hər ailəsində hər zaman uca tutulur, hörmət və ehtiramla yad edilir. Təbii olaraq müharibədən daha çox zərər çəkən cəbhə xəttinə yaxın ərazilərdə bu təqdirəlayiq yanaşma özünü daha aydın şəkildə, qabarıq formada göstərir. Qapanlı, Yuxarı Qaradağlı və Qarağacı kəndləri düşmənlə təmas xəttinin yaxınlığında yerləşir. Bu yaşayış məntəqələrində müharibə çox sayda evləri dağıtmış, burada sinəsini düşmən gülləsinə sipər edən oğullar şəhid olmuşlar.

Şəhid Zülfiqar Qasımovun qardaşı, ikinci qrup Qarabağ müharibəsi əlili Etibar Qasımovun təşəbbüsü və fəal iştirakı ilə rayonun Yuxarı Qaradağlı kəndində respublikamızın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olmuş Qapanlı, Yuxarı Qaradağlı və Qarağacı şəhidlərinin xatirəsinə abidə ucaldılmış, abidənin ətrafı abadlaşdırılmışdır. Bu vətənpərvərlik təşəbbüsü rayon ictimaiyyəti tərəfindən minnətdarlıqla qarşılanmış, yüksək dəyərləndirilmişdir. Bu günlərdə abidənin açılışına həsr olunmuş mərasim keçirilmişdir. Mərasimdə rayon ictimaiyyətinin nümayəndələri, məktəblilər, şəhidlərin ailə üzvləri, döyüş yoldaşları və hərbçilər iştirak etmişlər.

Tərtər Rayon İcra Hakimiyyəti başçısının birinci müavini, Yeni Azərbaycan Partiyası Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov tədbirdə çıxış edərək demişdir ki, ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçən oğulların xatirəsi hər yerdə uca tutulur, hər zaman məhəbbət və ehtiramla yad edilir. Onların qəhrəmanlıqla dolu əməllərini kitablarda, müxtəlif sənət əsərlərində yaşatmaq, bu qürurverici anları və hadisələri gələcək nəsillərə çatdırmaq bizlərin vətəndaşlıq borcudur. Bu aydın mövqe dövlət səviyyəsində həyata keçirilən vətənpərvərlik siyasətindən qaynaqlanır.

Qarabağ müharibəsi veteranlarına, şəhid ailələrinə davamlı dövlət qayğısını dəyişməyən əsas ünvanlardan biri Tərtər rayonudur. Rayonda Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 94 mənzildən ibarət yaşayış binaları, həmçinin fərdi evlər inşa olunmuşdur. Onlara çox sayda minik avtomobili, əlil arabası verilmişdir. Adları məktəblərə, küçələrə verilməklə şəhidlərin xatirəsi əbədiləşdirilmişdir.

Tədbirdə Tərtər batalyonunun keçmiş qərargah rəisi Pənah Məmmədov, Vətən Müharibəsi Veteranları İctimai Birliyi rayon şöbəsinin sədri, "Azərbaycan bayrağı" ordenli Nizami Heydərov, keçmiş döyüşçü Yolçu Süleymanov, Qapanlı kənd orta məktəbinin direktoru Fitat Əliyeva və başqaları çıxış etmişlər. Abidənin müəllifi, şəhid Zülfiqar Qasımovun qardaşı, ikinci qrup Qarabağ müharibəsi əlili Etibar Qasımov çıxışında şəhidlərin qəhrəmanlıqlarla dolu döyüş yollarından danışmış, Qarabağ müharibəsi veteranlarına, şəhid ailələrinə göstərilən davamlı qayğı və diqqətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirmişdir.

Şəhidlərin əziz xatirəsinə məhəbbət və ehtiramın ifadəsi olan bu abidənin önündə hər zaman təzə-tər güllərin olacağı şübhəsizdir. Bu müqəddəs məkanı ziyarət edən gənclər, məktəblilər burada vətənpərvərlik dərsi alacaq, bu torpağın hər qarışı uğrunda canlarından keçməyə hazır olacaqlarına and içəcəklər.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Zaqatala sakinlərinə xoş müjdə

*200 ailə abad həyətlə, 5 min sakin mavi yanacaqla təmin olunub. Dünən Zaqatala şəhərində "Abad həyət" layihəsi çərçivəsində 200 ailənin yaşadığı yaşayış məntəqəsində görülmüş abadlıq işlərinin yekunu ilə əlaqədar tədbir keçirilmişdir.*





Tədbirdə rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə, rayon ağsaqqalları, ziyalılar, abadlıq işləri aparılmış yaşayış məntəqəsinin sakinləri və KİV nümayəndələri iştirak etmişlər.

Tədbiri açan rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə yaşayış məntəqəsinin sakinlərini qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edərək bu günlər yaşayış kompleksində aparılmış abadlıq-quruculuq işlərinin onların bayram əhvali-ruhiyyələrinin daha da artmasına səbəb olmasına ümid etdiyini bildirib və ölkə rəhbərinin tapşırığı ilə həyata keçirilən bu cür layihələrin rayonun digər yaşayış məntəqələrində də icra olunacağını vurğulayıb.

Natiq öz çıxışında dövlət başçısının ölkə vətəndaşlarının sosial vəziyyətinin və həyat səviyyələrinin yüksəldilməsi məsələlərini daim diqqətdə saxladığını bildirib. O, həyata keçirilən müxtəlif dövlət proqramları hesabına sadə vətəndaşların rifah halının yüksəldilməsinə nail olunduğunu bildirib.

Sonra tədbir iştirakçıları yaşayış məntəqəsində aparılan abadlıq-quruculuq işləri ilə tanış olublar. Qeyd olunub ki, "Abad həyət" layihəsi əsasında 200 ailənin yaşadığı Sülh küçəsi 1, 3, 9 və 5 saylı beşmərtəbəli yaşayış binalarının həyətində 0.9 ha sahədə abadlıq və təmir işləri aparılıb. Ərazidə 2425 kvadratmetr yaşıllıq sahəsi salınıb. 70 ədəd müxtəlif dekorativ və meyvə ağacları, 100 ədəd qızılgül kolu əkilib. Sahəsi 448 kvadratmetr olan idman meydançası, xeyir-şər evi, avtomobillər üçün parklama yerləri inşa edilib. Səkilərə tamet örtük döşənib, istirahət və yeni transformator yarımstansiyası, uşaq oyun meydançaları, söhbətgahlar, suvarma və işıqlandırma sistemləri quraşdırılıb. Məhəllədaxili avtomobil yollarına və keçidlərə 3 min kvadratmetr asfalt örtük döşənib.

Elə həmin gün rayonun 1030 fərdi evdən ibarət, 5 minə yaxın əhalisi olan Bəhmətli kəndinə təbii qaz verilib.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Pambıq yığımı davam edir

Dekabrın 25-dək ölkə üzrə pambıq qəbulu məntəqələrinə 229 min 144 ton məhsul təhvil verilib.

Dövlət Statistika Komitəsindən bildiriblər ki, ötən ilin eyni dövrü ilə müqayisədə 11,4 faiz çox pambıq tədarük olunub.

Hazırda ölkə üzrə ən çox pambıq tədarük edən rayonlar bunlardır: Saatlıda 15 min 815 hektardan 30 min 119 ton, Bərdədə 9 min 630 hektardan 25 min 105 ton, Ağcabədidə 10 min hektardan 22 min 935 ton, Biləsuvarda 12 min hektardan 21 min 839 ton və Beyləqanda 9 min 560 hektardan 21 min 425 ton. Məhsul yığımı davam edir.

Xatırladaq ki, ölkədə pambıq istehsalı üzrə ən yüksək nəticə 1981-ci ildə əldə olunmuş, 1 milyon tondan çox pambıq yığılmışdı. Sonradan bu sahəyə diqqətin zəifləməsi pambıqçılıqda tənəzzülün yaranmasına gətirib çıxardı. Hazırda qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı görülən tədbirlər çərçivəsində ənənəvi kənd təsərrüfatı sahələrinin, o cümlədən pambıqçılığın inkişafı ön plana keçib, bu sahəyə dövlət dəstəyi artırılıb. 2015-ci ildə 18 min hektarda çiyid səpilmiş, 35 min ton məhsul yığılmışdısa, 2016-cı ildə əkin sahəsi 51 min hektara, tədarük 89 min tona çatmışdı. 2017-ci ildə isə pambıq tarlalarının sahəsi 136 min hektarı ötmüş, məhsul yığımı isə 2016-cı ilin ümumi göstəricisindən 2,3 dəfə çox olmuşdu.

AZƏRTAC respublikada pambıq tədarükünə dair dekabrın 25-nə olan operativ məlumatı təqdim edir.

**25.12.2018-ci il tarixə pambıq tədarükünə dair operativ məlumat**

| Rayonlar | Əkin sahəsi, hektar | | | 25 dekabr tarixə pambıq qəbulu məntəqələrinə təhvil verilmişdir, ton | | |
|---|---|---|---|---|---|---|
| | 2018-ci il | 2017-ci il | 2018-ci il 2017-ci ilə nisbətən | 2018-ci il | 2017-ci il | 2018-ci il 2017-ci ilə nisbətən |
| **Respublika üzrə cəmi** | **132512,0** | **136413,2** | **97,1%** | **229144,30** | **205696,89** | **111,4%** |
| Ağcabədi rayonu | 10000,0 | 9550,0 | 104,7% | 22935,54 | 20228,01 | 113,4% |
| Ağdam rayonu | 3100,0 | 3005,0 | 103,2% | 5656,90 | 6157,97 | 91,9% |
| Ağdaş rayonu | 3185,0 | 3000,0 | 106,2% | 3738,69 | 3687,33 | 101,4% |
| Ağsu rayonu | 2600,0 | 2500,8 | 104,0% | 1927,41 | 2715,70 | 71,0% |
| Beyləqan rayonu | 9560,0 | 8550,0 | 111,8% | 21425,19 | 15570,73 | 137,6% |
| Bərdə rayonu | 9630,0 | 8518,5 | 113,0% | 25105,54 | 22291,90 | 112,6% |
| Biləsuvar rayonu | 12000,0 | 11351,8 | 105,7% | 21839,41 | 24759,09 | 88,2% |
| Cəlilabad rayonu | 505,0 | 500,0 | 101,0% | 1260,34 | 997,00 | 126,4% |
| Füzuli rayonu | 2100,0 | 2050,0 | 102,4% | 2073,30 | 2106,90 | 98,4% |
| Goranboy rayonu | 5000,0 | 5000,0 | 100,0% | 9070,17 | 6922,80 | 131,0% |
| Hacıqabul rayonu | 1300,0 | 1203,9 | 108,0% | 1153,18 | 948,04 | 121,6% |
| İmişli rayonu | 13645,0 | 15641,5 | 87,2% | 18185,41 | 14297,64 | 127,2% |
| Kürdəmir rayonu | 5030,0 | 4027,0 | 124,9% | 6516,82 | 4896,50 | 133,1% |
| Neftçala rayonu | 7000,0 | 11111,0 | 63,0% | 10015,53 | 8922,58 | 112,2% |
| Saatlı rayonu | 15815,0 | 17220,0 | 91,8% | 30119,68 | 25722,60 | 117,1% |
| Sabirabad rayonu | 13055,0 | 15055,0 | 86,7% | 17046,67 | 18048,69 | 94,4% |
| Salyan rayonu | 7055,0 | 7052,4 | 100,0% | 10282,55 | 9205,80 | 111,7% |
| Samux rayonu | 400,0 | 53,0 | 7,5 dəfə | 922,63 | 46,30 | 19,9 dəfə |
| Tərtər rayonu | 3300,0 | 3123,0 | 105,7% | 8146,51 | 8404,11 | 96,9% |
| Ucar rayonu | 2500,0 | 2500,0 | 100,0% | 1666,60 | 2219,08 | 75,1% |
| Yevlax şəhəri | 2500,0 | 2168,0 | 115,3% | 5222,70 | 3386,62 | 1,5 dəfə |
| Zərdab rayonu | 3232,0 | 3232,3 | 100,0% | 4833,53 | 4161,50 | 116,1% |

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**

# Taleyinin ardınca gedənlər

*İnsan həyatda başına gələcəklərini öncədən bilsəydi, görəsən, yaşamağa davam edərdimi?! Çoxları "yox" deyər, başqa bir həyatı yaşamaq istədiyini bildirər. Amma həyatda nə etsən də, qismətində olan taleyi yaşamağa məcbursan.*



Mehman Zöhrabov 1968-ci ildə Qubanın Zərqova kəndində dünyaya göz açanda həyatının sonrakı taleyindən xəbərsiz idi. Xoşbəxtlik insanın yaranışı, başına gələnlər isə qismətidir, deyirlər. 3 qardaş və 2 bacısı ilə uşaqlıq həyatını yaşayan Zöhrabovların sevinci çox sürmədi. 1972-ci ildə analarını itirən 5 uşaq ana babalarının yanına, Paşaoba kəndinə gəlir və orada yaşayırlar.

- Tale insanı çox vaxt qarışıq sınaqlara çəkir, - qardaşı İmran bildirir. - Bizim də həyat yolumuz çox keşməkeşli olub. 1975-ci ildə birinci sinfə gedəndə yolda Mehmanı maşın vurmuşdu. Hamı başına yığışıb, "Sənə bir şey olmayıb?" deyə soruşanlara "Mənə onsuz da olan olub" cavabını vermişdi. Babam onu qucağında evə gətirəndə razı olmamış, "Mən heç kəsə yük olmaq istəmirəm" demişdi.

Mehman hamıdan seçilirdi. Onun gözəl qaməti, dərrakəsi, uzaqgörən gözləri vardı. Paşaoba kənd orta məktəbində oxuduğu illərdə hamı bu gəncin gələcəkdə sənət yiyəsi olacağına ümid bəsləyirdi. Dərslərini hazırlayanda sinif yoldaşlarının çoxu riyaziyyatı və fizikanı ondan öyrənərdi.

- Əlinə düşən pulun hamısını kitaba verərdi Mehman, - İmran sözünə davam edir. - Aldığı kitabların birinci vərəqinə "Mehman Zöhrabova məxsusdur" sözlərini qırmızı karandaşla yazardı. Səliqə-sahmanına söz olmazdı. Sevdiyi yazıçıların əsərlərini dönə-dönə oxuyardı. Vaxtaşırı oxuduqlarından misal gətirər, hazırcavablığı ilə fərqlənərdi.

1985-ci ildə orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yola düşür. İki ildən sonra geri qayıdan Mehman qardaş-bacılarına kömək edir. Bir qədər sonra əsgəri xidmətdə olduğu yerə, Moskva ətrafında tanışlarının yanına qayıdır.

- Ona çox dedik ki, oxu. O, ali məktəbə daxil ola bilərdi. Amma işləməyə üstünlük verdi. Moskvadan bizə yetərincə pul göndərərdi. Biz onun sayəsində böyüdük. Bacılarım ona ata deyirdilər, - İmran beləcə sakit-sakit danışırdı.

Qarabağ müharibəsi başlayanda Mehman vətənə qayıdır. Əvvəl yenicə yaranan Milli Ordumuzun sıralarında könüllü kimi döyüşür. Sonra bilinməyən səbəb üzündən Moskvaya dönür. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin çağırışı ilə yenidən Azərbaycana qayıdır.

- İyunun əvvəllərində qəfildən onu qarşımızda gördük, - İmran həmin anları gözləri qarşısında canlandırırmış kimi söhbətinə davam edir. - Xeyli deyib-güldük. Sonra gəlişinin səbəbini bildirdi. Dedi ki, gəlmişəm döyüşəm, ermənilərdən intiqamımızı alam.

Səhəri hərbi komissarlığa gedir və ordu sıralarına yazılır. Qubada bir neçə gün qaldıqdan sonra "N" saylı hərbi hissəyə yollanır. Ağdam, Tərtər, Füzuli istiqamətindəki döyüşlərdə iştirak edir. Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndində gedən döyüşdə başından yaralanır. Yenidən silahını götürüb irəli atılmaq istəyəndə düşmənin ikinci gülləsi bu cəsur gəncin həyatına son qoyur.

- 5 mart tarixində onun nəşini Qubaya gətirdilər, - İmran həmin anları xatırlayır. - Evimizdən qəbiristanlığa qədər insan axını Mehmanı son mənzilə yola salırdı. Əsgər yoldaşları onun fədakarlığından danışırdılar.

Mehman Zöhrabovun adı Qubada həmişə anılır. Paşaoba kənd orta məktəbi Mehmanın adını daşıyır. Bütün yaxınları onunla fəxr edir, məktəbin şagirdləri hər bayramda Mehmanın məzarını ziyarət edirlər. Kəndin xeyrində, şərində onun ruhuna dualar oxunur.

- Dövlətimizdən çox razıyıq, - İmran bildirir. Hansısa bir işimizlə bağlı müraciətimizə həmişə hörmətlə yanaşırlar. Qardaşım bizim nəslin varlığını kiçik çevrədən böyük bir aləmə yayıb. Mehmanla təkcə Zöhrabovlar deyil, onu tanıyanların hamısı fəxr edir. Azərbaycan Prezidentinin müvafiq fərmanı ilə hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmə verilməsi də dövlətin qayğı və diqqətinin nəticəsidir. Buna görə dövlət başçısına, eləcə də şəhid analarına, ailələrinə həmişə himayədarlıq göstərən Birinci vitse-prezident Mehriban xanım Əliyevaya ürəkdən minnətdarıq.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Aztəminatlı ailələrə dövlət dəstəyi

"IDEA" İctimai Birliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) təşkilatçılığı ilə Qazax rayonunun Qazaxbəyli kəndi ərazisində aztəminatlı ailələr üçün 2 hektar ərik bağı salınmışdır.

Bu münasibətlə keçirilən tədbirdə rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək son illər respublikamızın müxtəlif bölgələrində aztəminatlı ailələr üçün görülən işlərin əhəmiyyətindən danışmışdır. Qeyd edilmişdir ki, ölkəmizdə əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində bir sıra məqsədyönlü tədbirlər həyata keçirilir.

"IDEA" İctimai Birliyinin nümayəndəsi Nəzakət İsayeva demişdir ki, meyvə bağının salınması üzrə pilot layihənin icrasına Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının xoşməramlı səfiri Leyla Əliyevanın təşəbbüsü ilə keçən il başlanılmışdır. Layihə çərçivəsində ilk meyvə bağı İsmayıllıda, sonra Şəmkir, Ağstafa, Tovuz, Ağdaş, Qax, Lənkəran, Beyləqan, Sabirabad, Ağcabədi, Bərdə, Lerik, Quba, Qəbələ, İmişli və Göygöl rayonlarında salınaraq aztəminatlı ailələrə, Qarabağ müharibəsi veteranlarına və şəhid ailələrinə verilmişdir. Əsasən fındıq, nar, ərik, feyxoa, xurma, qoz, alma olmaqla 18560-dan çox meyvə ağacı əkilmiş, 57 aztəminatlı ailə məşğulluqla təmin edilmişdir. Birlik nümayəndəsi demişdir ki, aztəminatlı ailələr üçün meyvə bağlarının salınması layihəsi çərçivəsində ağacəkmə aksiyaları gələcəkdə də davam etdiriləcəkdir.



Meyvə bağları ilə təmin ediləcək kənd sakinləri, Qabil Qocayev, Valeh Seyidov, Müşkül Nəbiyev və Fərhad Fərzəliyev aztəminatlı ailələrə göstərilən diqqət və qayğıya görə bu işin təşkilatçılarına minnətdarlıq etmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***



# Qış nağılı



## “Soyuq əllər, isti ürək” kampaniyası Yeni ilin ilk müjdəçisidir

6 ildir Yeni il ərəfəsində paytaxtda “Nargis Fund” tərəfindən həyata keçirilən “Soyuq əllər, isti ürək” xeyriyyə yarmarkası xoş bir ənənəyə çevrilib. Bu xeyriyyə yarmarkası Yeni ilin ilk xəbərçisi zənn edilir. Bakının tən ortasında fərqli ab-hava, bayram əhvali-ruhiyyəsi yaradan bu yarmarka bu il də paytaxtın Fəvvarələr meydanında təşkil edilib.







### Paytaxt sakinlərinin səbirsizliklə gözlədiyi mərasim

Builki xeyriyyə yarmarkasının öz konsepsiyasına görə əvvəlkilərdən daha fərqli və yaddaqalan olacağı deyilir. Bu yarmarka paytaxt sakinlərinin səbirsizliklə gözlədiyi mərasimə çevrilib. Həmişə olduğu kimi, bu il də yarmarkadan toplanan gəlir xeyriyyə işlərinə sərf olunacaq.

Bu məkana baş çəkəndə xeyriyyə yarmarkasının fərqli və yaddaqalan detallarının şahidi olduq. İlk rastlaşdığımız mənzərə yaddaqalan oldu.

Budəfəki yarmarkada əvvəlki illərə nisbətən kiçik taxta “evlər”in sayı artırılaraq 47-ya çatdırılıb. Evciklərdə şəhər sakinlərinə və turistlərə yeməklər, suvenirlər, əl işləri, oyuncaqlar, Yeni il hədiyyələri, yolka bəzəkləri, kitablar, geyimlər və sair təklif olunur.

Məkanda əyləncə üçün hər imkan yaradılıb. İlk diqqətimizi çəkən isə “Xəyal evi” olur. Xüsusən, uşaqlar, gənc qızlar orda qurulmuş Yeni il, şaxta baba, şam ağacı maketləri qarşısında fotolar çəkdirirlər. Foto çəkdirmək ödənişsizdir. Şəkil çəkdirmək üçün meydana qoyulan avtomobilin qarşısında isə növbə var idi.

### Böyük şəhərin mərkəzində nağıllar dünyası

Uzaqdan burnumuza gələn dadlı qoxuya dözməyib, qutab, lavaşların hazırlandığı evciyə yaxınlaşırıq. Satıcı Vəsilə xala ilk dəfədir bu yarmarkada iştirak edir. Deyir ki, daha çox əcnəbilər Azərbaycan qutabını dadmağa gəlirlər.

Elə onunla söhbətimiz zamanı Səudiyyə Ərəbistanından gəlmiş Salman qutab almaq üçün evciyə yaxınlaşır. Deyir ki, birinci dəfədir belə bir yarmarkanın şahidi olur və çox xoşuna gəlir:

- Azərbaycan çox maraqlı ölkədir. Bakını da çox sevirik. Artıq 1 aydır ki, burda qalıram. Ailəmlə gəzməyə gəlmişəm. Yeni il üçün Şahdağa getməyi planlaşdırırıq. Bakıda bu cür yarmarkanın təşkili çox marağımızı çəkdi. Sanki böyük şəhər içində balaca nağıllar dünyası yaradılıb. Bu cür tədbirlər davamlı təşkil edilsə, daha yaxşı olar.

Yarmarkada milli mətbəximizlə yanaşı, “Fast food”, “balık-ekmek”, dönər, “çiy köftə”, “pancake” kimi xarici təamları da dadmaq mümkündür. Eləcə də, kiçik, rahat kafelərdə çay, kofe, digər isti və ya soyuq içkilərdən içə bilərsiniz.

Satıcılarla söhbətimiz zamanı öyrəndik ki, əsasən şənbə-bazar günləri yarmarkada adamlar daha çox olur. Həftəiçi isə işdən sonra gələnlər olur. Turistlərin diqqətini isə daha çox Azərbaycan mədəniyyətinə xas olan təamlar, xüsusilə, kabablar çəkir. “Azərbaycan çayı” evciyinin milli geyimli qızları yarmarkaya gələn vətəndaşlara isti çay təklif edirdilər.

### Uşaqların ən çox sevdiyi təam...

Yarmarkaya gələn uşaqların ən çox sevdiyi isə “xırta-xırt” kartof çipsləridir. Yarmarkanın ərazisində stol və stullar yerləşdirilib. Kimlərsə aldığı təamı orda əyləşib yeyə, söhbət edə bilərlər.

7 yaşlı oğlu Aydını gəzməyə gətirən Gülnarə xanım da buranın təkcə uşaqlar üçün deyil, böyüklərə də maraqlı olduğunu deyir. Evciklərdə satılan təamların qiymətinin normal olduğunu söyləyən Gülnarə xanımın azyaşlı oğlu da digər balacalar kimi “xırta-xırt”ı çox xoşlayır.

Yarmarkada diqqəti ən çox cəlb edən isə yeni il bəzəkləri, aksessuarları idi. Yarmarkada Qar qız və Şaxta babanın evini xatırladan evcik də qurulub. Yeni ilin simvolu olan yolka ilə şəkil çəkdirmək üçün insanlar sıraya düzülürlər. Müşahidələrimizi bitirib yarmarkanı tərk edirik. Burada təhlükəsizliyi təmin etmək üçün asayişə də ciddi nəzarət edilir.

Qeyd edək ki, “Amapola Exclusive Events” şirkətinin təşkilatçılıq etdiyi yarmarka dekabrın 1-dən fəaliyyətə başlayıb və 2019-cu il yanvarın 6-dək davam edəcək.

***Fərizə ƏHMƏDOVA, Ağaəli MƏMMƏDOV (foto), “Azərbaycan”***

---


## “Bakı Metropoliteni” QSC avtomobil, maşın və mexanizmlər üçün süzgəc və müxtəlif tipli akkumulyatorların satın alınması üzrə *açıq tender elan edir*

**Tender 2 (iki) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan (əlaqələndirici şəxs: İlqar Qasımov, telefon: 490-00-91) ala bilərlər.

**LOT-1. Avtomobil, maşın və mexanizmlər üçün süzgəclərin satın alınması**

**LOT-2. Müxtəlif tipli akkumulyatorların satın alınması**

**İştirak haqqı - LOT-1 - 300 manat**
**LOT-2 - 300 manat**

| | |
|---|---|
| Hesab: | AZ98AZRT38050019440010268002 |
| VÖEN | 1402871431 |
| Bank: | AZƏR-TÜRK BANK ASC (Mərkəz filialı) |
| Kodu: | 501361 |
| VÖEN: | 9900006111 |
| MH: | AZ02NABZ01350100000000022944 |
| SWIFT: | AZRTAZ22 |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **30 yanvar 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **07 fevral 2019-cu il saat 17:00-a** qədər Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına, “İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri” şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **08 fevral 2019-cu il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



## B İ L D İ R İ Ş

“Bakı Metropoliteni” QSC tərəfindən 09.01.2019-cu il tarixdə keçirilməsi nəzərdə tutulan **“Bakı Metropoliteni” QSC-nin Bənövşəyi xəttinin “B-03” stansiyasının vestibüllərində quraşdırılması nəzərdə tutulan ANM turniketlərinin alınması və quraşdırma işlərinin satın alınması** üzrə açıq tenderin vaxtı **25 yanvar 2019-cu il** tarixə, **saat 15:30-a** keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **16 yanvar 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **24 yanvar 2019-cu il saat 17:00-a** qədər Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına, “İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri” şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

***Tender komissiyası***



## “Azərpoçt” MMC üzrə Tabeli poçt müəssisələrinin təminatı üçün *açıq tender elan edir*

Tender 4 (dörd) LOT üzrə keçirilir:

**LOT 1.** Polietilen məhsulların alınması.
**LOT 2.** Ciddi hesabat və nömrəli qəbzlərin alınması.
**LOT 3.** İstismar blankların və istismar jurnalların alınması.
**LOT 4.** Təsərrüfat mallarının alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər Lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 72 ünvanında yerləşən “Azərpoçt” MMC-dən (əlaqələndirici şəxs: İsmayılov Oktay, telefon: 493-56-00 (240)) ala bilərlər.

**I LOT üzrə - 300 manat**
**II LOT üzrə - 300 manat**
**III LOT üzrə - 400 manat**
**IV LOT üzrə - 200 manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:
**“Azərpoçt” MMC**
**Kod: 690001**
**M\H: AZ76NABZ01350100000000094944**
**VÖEN: 9900037711**
**SWIFT: AZPOAZ 22**

**“Azərpoçt” MMC**
**VÖEN: 9900037711**
**Hesablaşma hesabı: AZ82AZPO99995381000420000125**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərfin açıldığı gündən sonra 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə peşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət Satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **30 yanvar 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və zəmanətini isə möhürlənmiş ikiqat zərfdə **08 fevral 2019-cu il saat 18:00-a** qədər Üzeyir Hacıbəyli küçəsi, 72 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri **11 fevral 2019-cu il saat 11:00**-da Üzeyir Hacıbəyli küçəsi, 72 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



## B İ L D İ R İ Ş

“Azərişıq”ASC tərəfindən Müxtəlif mətbəə məhsullarının satın alınması məqsədilə keçirilmiş açıq tender üzrə təqdim olunmuş iddiaçıların təklifləri Tender komissiyası tərəfindən qiymətləndirilmişdir. Tender komissiyasının qərarına əsasən müvafiq LOT üzrə “AZ KAPİTAL HOLDİNG” MMC şirkəti qalib elan olunmuş və satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***



«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az


## ALLAH RƏHMƏT ELƏSİN!

YAP icra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzov Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, general-mayor Səhlab Bağırova anası

**HƏLİMƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Eldar Əzizov və Bakı Şəhər İcra Hakimiyyətinin kollektivi Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, general-mayor Səhlab Bağırova anası

**HƏLİMƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, general-mayor Səhlab Bağırova anası

**HƏLİMƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt İnzibati-İqtisadi Məhkəməsinin sədri İslam Əliyev Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, general-mayor Səhlab Bağırova anası

**HƏLİMƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsinin kollektivi Goranboy rayon qeydiyyat şöbəsinin rəisi Tuqay Sərdarlıya atası

**CAVANŞİR SƏRDARLININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi və kollektivi iş yoldaşları Akif Mustafayevə əzizi

**XALİSA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin sədri İlham Cəfərov Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, general-mayor Səhlab Bağırova anası

**HƏLİMƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

## Ermənistan silahlı qüvvələrinin bölmələri iriçaplı pulemyotlardan istifadə etməklə atəşkəs rejimini 29 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 29 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikasının Noyemberyan rayonunun Voskevan, Voskepar kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Fərəhli, Gədəbəy rayonunun Göyəli kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub. Ağdam rayonunun işğal altında olan Baş Qərvənd, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8412
Sifariş 3896
Qiyməti 40 qəpik